RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 217 (9672) 4 oktyabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



◆ Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri

## Cəbrayıl və Zəngilanın bərpası konsepsiyası sürətlə reallaşır



Prezident İlham Əliyev oktyabrın 3-də Cəbrayıl və Zəngilan rayonlarına səfər edib. Səfər çərçivəsində Prezident Cəbrayılın Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olub və Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına tam orta məktəbin binasının açılışında iştirak edib. Cəbrayıl şəhərində alkoqolsuz içki məhsulları istehsalı kompleksinin, damazlıq yumurta istehsalı fabrikinin, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməli qoyulub. Prezident İlham Əliyev Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib. Zəngilan şəhərində beşinci yaşayış kompleksinin təməli qoyulub. Zəngilan şəhərində təməli qoyulan altıncı yaşayış kompleksində 177 mənzil olacaq. Prezident İlham Əliyev Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə və Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub. Zəngilan rayonunda "Sarıqışlaq" Su-Elektrik Stansiyası istifadəyə verilib.

→ 2-5

## COP29 çərçivəsində Almaniya ilə sıx əməkdaşlıq edəcəyik

### Almaniya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Frank-Valter Ştaynmayerə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Alman Birliyi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edirəm.

Biz Azərbaycan-Almaniya əlaqələrinin hərtərəfli inkişafına xüsusi önəm veririk. İnanıram ki, ölkələrimiz arasında dostluq münasibətlərinin, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımızın möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Noyabr ayında Bakıda keçiriləcək COP29 çərçivəsində Almaniya ilə sıx əməkdaşlıq edəcəyimizə ümidvar olduğumu bildirirəm.

Belə bir bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2024-cü il*

## Azərbaycan-Koreya əlaqələri daha da möhkəmlənəcəkdir

### Koreya Respublikasının Prezidenti zati-aliləri cənab Yun Sok Yola

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan Koreya ilə əlaqələrinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Koreya Respublikasına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2024-cü il*

## Azərbaycan ilə İraq arasındakı dostluq münasibətləri bundan sonra da inkişaf edəcək

### İraq Respublikasının Prezidenti zati-aliləri cənab Əbdüllətif Camal Rəşidə

Hörmətli cənab Prezident!

İraq Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri birgə səylərimizlə bundan sonra da inkişaf edəcək, həm ikitərəfli qaydada, həm də çoxtərəfli təsisatlarda əməkdaşlığımız daha da genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İraq xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2024-cü il*

## Prezident İlham Əliyev Suqovuşanın azad olunması ilə bağlı paylaşım edib

**Prezident İlham Əliyev Suqovuşanın işğaldan azad edilməsi ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.**

AZƏRTAC xəbər verir ki, paylaşımda "Zəfər tariximiz - Suqovuşanın Ermənistan işğalından azad edilməsindən dörd il ötür" sözləri yer alıb.



## Avropa və Asiyanı birləşdirən yeni yol qovşağı

### Bu qovşaq işğaldan azad edilmiş ərazidə salınıb

Dünya üzrə İnnovativ inşaat metodologiyası nominasiyasında 1-ci yeri tutan bu yol layihəsi daim Prezident İlham Əliyevin nəzarətində olub. Dövlət başçısı bir neçə dəfə tikinti gedən ərazilərə səfər edib. Məsələn, 2023-cü ilin iyul ayında yolun Füzuli Beynəlxalq Hava Limanına qədər uzanan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub. Bu ilin mayında isə dövlət başçısı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda aparılan işlərlə tanış olub, bu yolda inşa edilmiş birinci tunelin açılışında iştirak edib. Mühüm yol infrastrukturu layihələrindən biri olan və İnnovativ inşaat metodologiyası nominasiyası üzrə qalib seçilən uzunluğu 81,7 kilometr təşkil edən I texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda 11 körpü, 7 tunel və 9 viaduk inşa edilib. Viadukların tikintisi zamanı aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib.



→ 14

## Cəbrayıl - azadlığa qovuşan ilk şəhər

Cəbrayıl da 27 il ərzində ermənilər tərəfindən vəhşicəsinə dağıdılan rayonlarımızdandır. İşğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard dollar məbləğində ziyan dəyib. Cəbrayılın işğaldan azad olunmasının ilk ilində Prezident Cəbrayıla səfər edərək, orada bir sıra təməlqoyma tədbirlərində iştirak edib "KAMaz" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin əsasını qoydu. Ölkə rəhbəri eyni zamanda 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak etdi. Həmin səfərində cəbrayıllılarla görüşən Prezident İlham Əliyev qələbənin önəmindən söz açaraq Cəbrayılın azad olunmasından sonra işğal altında olan digər rayonlara uğurlu addımların mümkün olduğunu bildirdi.

Bəli, Cəbrayıldan sonra Zəngilan, Qubadlı və Laçın rayonunun cənub hissəsinin




işğalçılardan təmizlənməsinə şərait yarandı. Qüdrətli ordumuz bu şəraitdən məharətlə istifadə edərək irəlilədi. Beləliklə, hərbçilərimiz Laçın dəhlizinə tam nəzarəti bərpa edə bildilər.

Cəbrayılda "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin də təməlləri qoyuldu. Ötən il Cəbrayıl Şəhəri Günündən öncə rayona səfər edən dövlət başçısı ilk yaşayış məhəlləsi - Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış oldu.

→ 9

**Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri**

# Cəbrayıl və Zəngilanın bərpası konsepsiyası sürətlə reallaşır

## Cəbrayılın Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına və birinci xanıma kənddə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihələndirilən ümumi ərazi 248 hektardır və perspektivdə bu kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub.





Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün tikilən 334 fərdi evin hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. İnşa olunan evlər iki, üç, dörd və beş otaqdan ibarətdir. Həmçinin burada məktəb binası, uşaq bağçası və digər iaşə obyektlərinin tikintisi davam etdirilir.

Diqqətə çatdırıldı ki, kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə də həyata keçirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənddə hazır evlərə baxdılar.

Qeyd edək ki, Horovlu kəndinin təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

## Cəbrayıl şəhərində alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməli qoyulub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Cəbrayıl şəhərində "Azərsun Holdinq" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, "Azərsun Holdinq" şirkətinin Müşahidə Şurasının sədri Abdolbari Gözəl dövlətimizin başçısına istehsal kompleksi haqqında məlumat verdi.

Bildirildi ki, qazlı və qazsız su, soyuq çay, soyuq qəhvə, limonadlar, təbii meyvə şirəli içkilərin istehsal ediləcəyi müəssisənin illik istehsal gücü 250 milyon PET şüşə, 350 milyon alüminium tənəkə qutu təşkil edəcək. Ölkəmizdən valyuta axınının qarşısının alınmasına töhfə verəcək alkoqolsuz içkilərin istehsalı kompleksi müasirlik və dayanıqlılıq prinsiplərinə uyğun avadanlıqlarla təmin ediləcək. Müəssisədə alternativ enerji mənbələrindən istifadə olunacaq.

Tam istehsal gücü ilə fəaliyyətə başladıqdan sonra kompleksdə Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Cəbrayıl şəhərinə qayıdacaq 300-ə yaxın sakinin işlə təmin edilməsi nəzərdə tutulur.

Alkoqolsuz içkilərin istehsalı kompleksinin istismara verilməsi üçün ilkin mərhələdə 35 milyon manat həcmində investisiyanın qoyuluşu nəzərdə tutulur.

Prezident İlham Əliyev kompleksin təməlini qoydu.





## Prezident İlham Əliyev Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına tam orta məktəbin binasının açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Diqqətə çatdırıldı ki, ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində abadlıq işləri görülüb, futbol, basketbol, voleybol və açıq oyun meydançaları yaradılıb.

Xatırladaq ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Cəbrayıl şəhərində məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Prezidenti 2021-ci ildə sərəncam imzalayıb.





Təhsil ocağının təməli 2021-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. İşğaldan azad edilən ərazilərdə təhsil infrastrukturunun bərpası istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları və tapşırıqları ilə hazırda mühüm işlər görülür. Bu, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda əksini tapıb. Tədbirlər Planına əsasən, Elm və Təhsil Nazirliyinə 2022-2026-cı illərdə ərazi planlaşdırma sənədlərinə uyğun olaraq, yaşayış məntəqələrində təhsil müəssisələrinin tikintisi və bərpası ilə bağlı təkliflərin hazırlanması tapşırılıb.

◆ Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri

# Cəbrayıl və Zəngilanın bərpası konsepsiyası sürətlə reallaşır

## Prezident İlham Əliyev Cəbrayıl rayonunda damazlıq yumurta istehsalı fabrikinin təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Cəbrayıl rayonunda "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, "Hicaz" MMC-nin təsisçisi Səfər Sadıqov dövlətimizin başçısına müəssisə haqqında məlumat verdi.

Bildirildi ki, müəssisə 3 sahədən - damazlıq yumurta, inkubator və yem fabriklərindən ibarət olacaq.

Birinci mərhələdə 30 hektar ərazidə hər biri 1600 kvadratmetr olmaqla 24 damazlıq yumurta istehsalı sahəsi tikiləcək. Burada illik 24 milyon





ədəd damazlıq yumurta istehsal ediləcək.

Bununla yanaşı, 2 hektar ərazidə saatda 40 ton istehsal gücünə malik yem fabriki və inzibati bina inşa olunacaq. Həmçinin 2 hektar ərazidə yerləşən soyuducu anbar və illik 24 milyon ədəd yumurta tutumuna malik inkubasiya fabriki fəaliyyət göstərəcək.

Bütün istehsal zamanı müasir avadanlıqlardan istifadə olunacaq. Müəssisədə istehsal olunan məhsulun keyfiyyətinin daim nəzarətdə saxlanılması məqsədilə ən müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya da fəaliyyət göstərəcək.

Layihə üzrə 150 daimi iş yerinin yaradılması nəzərdə tutulub.

Prezident İlham Əliyev fabrikin təməlini qoydu.

## Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməli qoyulub













**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlqoyma mərasimlərində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına və birinci xanıma sənaye parkında görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri sənaye sektorunun, xüsusilə də qeyri-neft sənayesinin sürətli inkişafıdır. Bu baxımdan yeni dövrün iqtisadi inkişaf tələbləri ilə uzlaşan mütərəqqi mexanizmlərin - sənaye zonalarının (sənaye parkları və məhəllələri) yaradılması və fəaliyyətinin genişləndirilməsi xüsusi önəm kəsb edir.

İşğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyası, yeni əməkdaşlıq imkanları, beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin artan potensialı Azərbaycanın sürətli inkişafı üçün əlavə stimul yaradır. İqtisadi resursları, təbii ehtiyatları, enerji mənbələri, yeraltı metal filizi yataqları, termal suları, tikinti materialları üçün xammal bazası, nəqliyyat-tranzit, turizm imkanları və s. azad edilmiş ərazilərimizə investorların marağını artırır. Cəbrayıl rayonunun Qarabağ regionundakı strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir.

Dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Sənaye parkının əsas fəaliyyət istiqaməti kimi parkda logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır.

Ərazisi 200 hektar olan sənaye parkı logistik imkanlar baxımından çox əlverişli ərazidə təşkil olunub ki, bu da sahibkarların diqqətini cəlb edən əsas məqamlardan biridir. Belə ki, bu sənaye parkı yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir.

Sənaye parkının hazırda 13 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən ümumi olaraq parka 133,8 milyon manat investisiyanın yatırılması, 2 mindən çox iş yerinin yaradılması nəzərdə tutulur. Artıq bu günədək rezidentlər tərəfindən sənaye parkına 20 milyon manatdan artıq investisiya yatırılıb, 40-dan çox daimi iş yeri yaradılıb.

Rezidentlər tərəfindən sənaye parkında fibrobeton və polistirolbeton blokların, quru inşaat qatqılarının, tamet daşların, müxtəlif çeşiddə yapışqan lentlərin, ayaqqabıların, dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların və digər məhsulların istehsalı, 40 otaqlı hotelin və 100 nəfərlik restoranın tikintisi həyata keçiriləcək, logistik mərkəz inşa olunacaq.

Hazırda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında bir müəssisə fəaliyyət göstərir. Müəssisədə kənd təsərrüfatı texnikalarına, yük maşınlarına texniki servis xidməti göstərilir.

❖ ❖ ❖

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənaye parkında əvvəlcə Litvanın "Dominari" şirkətinin mebel klasterinin təməlqoyma mərasimində iştirak etdilər.

Məlumat verildi ki, Litvanın "Dominari" şirkəti "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb. Şirkət tərəfindən sənaye parkının 10 hektar ərazisində 5 mərhələdən ibarət mebel klasteri layihəsinin həyata keçirilməsi nəzərdə tutulur.

İlkin mərhələdə döşək istehsalının əsas xammalı olan paralon materialının istehsalı zavodunun və mebel klasterinin müxtəlif mərhələlərini parça ilə təmin edəcək toxuculuq fabrikinin qurulması planlaşdırılır. İnvestisiya dəyəri 50 milyon manatdan çox olan müəssisədə ilkin mərhələdə 650 nəfər işlə təmin ediləcək. İşçilərin Cəbrayıl və ətraf rayonlardan cəlb olunması nəzərdə tutulur.

Şirkət ildə 6 min ton elastik poliuretan, 250 min ədəd müxtəlif mebel, həmçinin döşəklər, divanlar və çarpayılar üçün 1 milyon ədəd üzlük, 200 min döşək, 5,5 min kubmetr mebel komponentləri istehsal edəcək. İstehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, ixracı da həyata keçiriləcək.

Qeyd edildi ki, Litvanın "Dominari" şirkəti qısa müddət ərzində Baltikyanı ölkələrin və Şərqi Avropanın aparıcı mebel istehsalçılarından birinə çevrilib. Hazırda şirkət 2 min işçi və 200-dən çox korporativ müştəri bazasına malikdir.

Prezident İlham Əliyev "Dominari" şirkətinin mebel klasterinin təməlini qoydu.

❖ ❖ ❖

Sonra dövlətimizin başçısı və birinci xanım sənaye parkında "Karabakh Stone" MMC-nin zavodunun təməlqoyma mərasimində iştirak etdilər.

Məlumat verildi ki, "Karabakh Stone" MMC 2024-cü ilin iyulunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkət sənaye parkının 3,5 hektar ərazisində yol və müxtəlif sahələrin abadlaşdırılması üçün dekorativ daşlar (tamet daşlar) və səki bordürlərinin istehsalı ilə məşğul olacaq.

İnvestisiya həcmi 7,8 milyon manat olan layihə çərçivəsində 95 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

İstehsal gücü 1 milyon 250 min kvadratmetr təşkil edəcək müəssisədə hazırlanacaq məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Türkiyə texnologiyasından istifadə ediləcək müəssisənin 2025-ci ildə fəaliyyətə başlaması planlaşdırılır.

Dövlətimizin başçısı zavodun təməlini qoydu.

❖ ❖ ❖

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənaye parkında, həmçinin "Prestij-Kimya" MMC-nin zavodunun təməlqoyma mərasimində iştirak etdilər.

Bildirildi ki, şirkət sənaye parkının 2,15 hektar ərazisində dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların istehsalını həyata keçirəcək zavod inşa edəcək. İnvestisiya dəyəri 5,8 milyon manat olan müəssisədə 214 nəfər daimi işlə təmin ediləcək.

Türkiyənin, Çinin, Avropanın qabaqcıl ölkələrinin texnologiyalarından istifadə ediləcək müəssisədə il ərzində 30 min ton müxtəlif dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsulların istehsal olunması nəzərdə tutulur. Müəssisədə istehsal olunacaq məhsulların daxili bazarla yanaşı, xarici bazarlarda da satışı planlaşdırılır.

Dövlətimizin başçısı zavodun təməlini qoydu.

◆ Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri

# Cəbrayıl və Zəngilanın bərpası konsepsiyası sürətlə reallaşır

## Prezident İlham Əliyev Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Rəqəmsal İdarəetmə Mərkəzi iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə hər birinin gücü 2500 kV olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Mərkəzin elektrik təchizatı üçün 110/35/10 kilovoltluq "Zəngilan" yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib.

Diqqətə çatdırıldı ki, mərkəz elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzini işə saldı.

Qeyd olundu ki, rəqəmsal yarımstansiyadan qidalanan istehlakçılar elektrik enerjisi verilişində fasilələrin yaranması barədə məlumatları onlayn qaydada əvvəlcədən ala bilərlər. Bərpaolunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə işin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə koordinasiyasını tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir, daimi işçi heyətə ehtiyac olmur.

## Zəngilan şəhərində beşinci yaşayış kompleksinin təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində beşinci yaşayış kompleksinin təməlini qoyub.**



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Qeyd olundu ki, yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir. Kompleksin ərazisi məktəb və uşaq bağçası, Zəngilan Konqres Mərkəzi və şəhər parkının yaxınlığında yerləşir.

Yaşayış məhəlləsi 5 hektar ərazini əhatə edir. Burada binalar 3, 4, 5 və 6 mərtəbədən ibarət olacaq. Ümumilikdə bu yaşayış kompleksində 334 mənzilin inşası nəzərdə tutulub.

Prezident İlham Əliyev yaşayış kompleksinin təməlini qoydu.

## Zəngilan şəhərində təməli qoyulan altıncı yaşayış kompleksində 177 mənzil olacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində altıncı yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına yaşayış kompleksi barədə məlumat verildi.

Bildirildi ki, yaşayış kompleksi orta sıxlıqlı ərazidə, məktəb, uşaq bağçası, inzibati və ticarət zonalarının yaxınlığında yerləşəcək. Kompleks 3 hektar ərazidə yaradılacaq. Baş plana uyğun olaraq, kompleksdə 3, 4, 5 və 6 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Burada tikiləcək yaşayış binalarında 177 mənzilin olması planlaşdırılıb.

Prezident İlham Əliyev altıncı yaşayış məhəlləsinin təməlini qoydu.

## Prezident İlham Əliyev Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına yaşayış kompleksi barədə məlumat verildi.

Qeyd edək ki, Zəngilan şəhərində quruculuq işlərinin geniş vüsət aldığı yerlərdən biri də bu yaşayış kompleksidir. Kompleksin təməli 2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Bildirildi ki, 12 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 1,92 hektardır və burada 104 mənzil inşa olunub. Kompleksdəki binaların inşasında modern və minimalistik memarlıq yanaşmalarından, həmçinin milli naxış elementlərindən istifadə edilib.

Yaşayış məhəlləsi şəhərin mərkəzi hissəsində, məktəb, uşaq bağçası və şəhər parkının yaxınlığında, orta sıxlıqlı və çoxfunksiyalı zonada yerləşir.





## Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksdə yaradılacaq şərait barədə məlumat verdi.

Qeyd edək ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Kompleksdəki hotel binasının təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Hotel binasında 111 nömrə, konfrans, iclas və ziyafət zalları, fitnes və SPA mərkəzləri, qapalı və açıq hovuzlar, restoran və uşaq əyləncə mərkəzləri yaradılacaq. İstirahət kompleksinin ərazisində həmçinin 10 kottec də qonaqların istifadəsinə veriləcək.

Hoteldə 70 nəfərdən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Kompleksin ərazisində üzüm və digər meyvə bağları salınacaq.

Bir sözlə, müxtəlif çeşidli yüksək xidmətlərin göstəriləcəyi hotel kompleksi müasir standartlar səviyyəsində inşa olunur. Rayona səfərə gələnlərin rahatlığı üçün burada hər cür şərait yaradılacaq.





◆ Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri

# Cəbrayıl və Zəngilanın bərpası konsepsiyası sürətlə reallaşır

## Zəngilan rayonunda "Sarıqışlaq" Su-Elektrik Stansiyası istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Zəngilan rayonunda "Azərenerji" ASC-nin "Sarıqışlaq" Su-Elektrik Stansiyasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Sarıqışlaq" SES Oxçuçayın üzərində kaskad üsulla tikilən Zəngilan silsiləsindəki 4 SES-dən biridir və buna qədər digər 3 SES - "Cahangirbəyli", "Şayıflı" və "Zəngilan" su-elektrik stansiyaları dövlətimizin başçısının iştirakı ilə istismara verilib.

"Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq tikilən "Sarıqışlaq" SES-də eyni vaxtda derivasiya borularının montajından, bünövrə işlərindən tutmuş maşın zalının tikilməsinə, açıq paylayıcının qurulmasına qədər bütün işlər tam normativ qaydalara uyğun həyata keçirilib.









Flora və faunanın qorunması üçün xüsusi qurğular quraşdırılmaqla yaradılan baş suqəbuledicidən çıxan suyun 35 faizi çay məcrasında saxlanılmaqla derivasiya boruları çəkilib və borudan çıxan suyun itkisiz şəkildə çaya təkrar buraxılması təmin edilib.

"Sarıqışlaq" SES-də tikilən maşın zalında çayda su azalarkən özünü avtomatik dayandıra bilən 2 ekoturbin quraşdırılıb ki, bu turbinlər Oxçuçayın ekoloji axımından iki dəfə artıq suyun çayda saxlanılmasını təmin edir.

Qeyd olunub ki, su-elektrik stansiyasında 110 kV-luq açıq paylayıcı qurğu tikilib. Bu qurğu nəinki "Sarıqışlaq" SES-də, eyni zamanda "Şayıflı" SES-də istehsal olunan "yaşıl enerji"nin sistemə ötürülməsi funksiyasını icra edir. Burada həm yarımstansiya, həm də bütövlükdə su-elektrik stansiyası rəqəmsal avadanlıqlarla təchiz edilərək avtomatik idarəetmə sistemi ilə təmin olunub.

"Sarıqışlaq"da il ərzində 33 milyon kilovat-saatadək elektrik enerjisinin istehsal olunması, bununla da 7,4 milyon kubmetr qaza qənaət edilməsi və atmosferə atılan 13 min ton karbon qazının qarşısının alınması nəzərdə tutulur.

Prezident İlham Əliyev "Sarıqışlaq" Su-Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, "Sarıqışlaq" SES-in də daxil olduğu 4 SES-dən ibarət 42 meqavatlıq Zəngilan silsiləsi işğaldan azad edilən ərazilərdə yaradılan ən böyük silsilədir.

Yerli mütəxəssislər tərəfindən layihələndirilməklə, tam yeni tikilmiş 42 MVt gücündə kaskad tipli bu 4 stansiya qoyuluş gücünün 70 faizdən çox hissəsi ilə çalışır. Burada istehsal olunun enerjinin bir hissəsi daxili tələbata sərf edilir, artıq qalan enerji isə ölkə enerji sisteminə yönləndirilir. Bu da regional enerji müstəqilliyini artırır və ətraf mühitin qorunmasına töhfə verir.

Ümumilikdə isə bu günədək "Azərenerji" tərəfindən Qarabağda və Şərqi Zəngəzurda istismara verilən 270 meqavat gücündə 32 Su-Elektrik Stansiyasında hava şəraitindən asılı olan digər bərpaolunan enerji mənbələrindən fərqli olaraq, 24 saat fasiləsiz "yaşıl enerji" istehsal edilir.

Prezident İlham Əliyevin regionun "yaşıl enerji" zonasına çevrilməsi barədə qəti mövqeyinin nəticəsi kimi ölkə enerji sistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur regionları istismarda olan su-elektrik stansiyaları hesabına ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı bölgəyə çevrilib və elektrik enerjisi tələbatı tam həcmdə "yaşıl enerji" hesabına təmin edilir.

# Baş nazir Əli Əsədov Minskdə Belarus Prezidenti Aleksandr Lukaşenko ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Minskə rəsmi səfəri çərçivəsində oktyabrın 3-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Əli Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Belarus dövlətinin başçısına çatdırıb.

Görüşdə Azərbaycan ilə Belarus arasında dostluq və tərəfdaşlıq münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə olunub.

Qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

# Azərbaycanın Baş naziri Minskdə "Qələbə" abidəsini ziyarət edib

**Belarus Respublikasına rəsmi səfəri çərçivəsində Baş nazir Əli Əsədovun rəhbərlik etdiyi Azərbaycan Respublikasının nümayəndə heyəti oktyabrın 3-də Minsk şəhərindəki "Qələbə" abidəsini ziyarət edib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Əli Əsədov abidənin önünə əklil qoyub.

Sonra Azərbaycanın və Belarusun Dövlət himnləri səsləndirilib.

# Minskdə Azərbaycanın və Belarusun baş nazirlərinin görüşü olub

**Minskdə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov oktyabrın 3-də Belarus Respublikasının Baş naziri Roman Qolovçenko ilə görüşüb.**





Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə hökumət başçılarının məhdud tərkibdə görüşü keçirilib. Sonra müzakirələr hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşdə Azərbaycan-Belarus dövlətlərarası münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə olunub, iki ölkənin prezidentlərinin sıx təmasları və birgə səyləri nəticəsində müxtəlif sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın dinamik inkişafı qeyd edilib.

Bu xüsusda Belarus Prezidentinin bu ilin mayında Azərbaycana dövlət səfərinin əhəmiyyəti vurğulanıb.

Hökumət başçıları iqtisadi-ticari əməkdaşlığa dair cari məsələləri müzakirə ediblər. Bildirilib ki, bu ilin 8 ayının yekunları üzrə qarşılıqlı ticarətin həcmində 39 faiz artım müşahidə olunub. Ticarət dövriyyəsinin artması tendensiyasının dəstəklənəcəyinə əminlik ifadə edilib.

Vurğulanıb ki, dövlət başçılarının qarşılıqlı maraq doğuran bir sıra perspektivli istiqamətlər üzrə layihələrin hazırlanması ilə bağlı birgə qərarı çoxşaxəli qarşılıqlı fəaliyyətə mühüm təkan verib.

Bu baxımdan iki ölkənin prezidentlərinin razılaşmalarının və tapşırıqlarının icrasına xüsusi diqqət yetirilir.

Bir sıra sahələrdə, o cümlədən sənaye kooperasiyası, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aqroşəhərciklərin salınması, həmçinin peşə təhsili sahəsində konkret layihələrin işlənib hazırlanmasında əldə olunan uğurlardan məmnunluq ifadə edilib.

Sənaye kooperasiyası Azərbaycan-Belarus əməkdaşlığının əsas istiqaməti kimi qiymətləndirilib, Gəncə Avtomobil Zavodu ilə Belarusun aparıcı maşınqayırma müəssisələri arasında uzunmüddətli uğurlu qarşılıqlı fəaliyyətə xüsusi diqqət yetirilib.

Hökumət başçıları aqrar sahədə əməkdaşlığın sabit inkişafını qeyd edib və hər iki tərəfin kənd təsərrüfatı məhsullarının qarşılıqlı tədarükünü artırmağa hazır olduğunu təsdiqləyiblər.

Tərəflər nəqliyyat və tranzit sektorunda əməkdaşlığın dərinləşdirilməsini zəruri hesab ediblər.

Ənənəvi olaraq mədəni-humanitar əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə edilib. Hökumət başçıları mədəni, elmi və gənclər mübadiləsinin intensivləşdirilməsini, eləcə də təhsil sahəsində qarşılıqlı fəaliyyətin inkişafını təqdir ediblər.

Tərəflər həmçinin Belarus Prezidentinin dövlət səfəri zamanı iki ölkənin bir sıra şəhərləri arasında qardaşlaşmış şəhərlər əlaqələrinin yaradılmasına dair sazişlərin imzalanmasının göstəricisi kimi regionlararası əməkdaşlığın genişləndirilməsini qeyd ediblər.

Turizm sahəsində əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğu vurğulanıb.

Əli Əsədov və Roman Qolovçenko həmçinin qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivlərini müzakirə edib, Azərbaycan və Belarus üçün qarşılıqlı maraq doğuran bütün aktual məsələlər üzrə birgə fəaliyyət göstərməyə hazır olduqlarını bildiriblər.

Danışıqların yekununa dair Ağdam rayonunda kənd təsərrüfatı istehsalının inkişafı, səhiyyə sahəsində əməkdaşlıq, Ağdam rayonunun Qızıl Kəngərli kəndində aqroşəhərciyin layihələndirilməsi və yanğınsöndürmə avadanlığının tədarükü ilə bağlı bir sıra sənədlər imzalanıb.

# Bakıda "Afrikada Fransanın neokolonializm siyasətinə" həsr edilmiş beynəlxalq konfrans keçirilib





**Oktyabrın 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Afrikada Fransanın neokolonializm siyasətinə" həsr edilmiş beynəlxalq konfrans keçirilib.**







AZƏRTAC xəbər verir ki, konfransda Seneqaldan, Burkina-Fasodan, Kamerundan, Qvineya-Bisaudan, Konqo Demokratik Respublikasından, Mavritaniyadan, Zimbabvedən, Nigerdən, Fransadan və Fransanın əsarəti altında olan Mayot adasından nümayəndələr, hüquqşünaslar, həmçinin QHT rəhbərləri, siyasətçilər və ekspertlər iştirak ediblər. Konfransda "Delimitasiyası olunmuş, lakin azad olmayan: Neokolonializmin Afrikada yeni təzahürləri", "Afrikanın inkişafı üçün iqtisadiyyatın dekolonizasiyası", "Afrikalıların kimliyin müəyyənləşdirilməsi üçün sosial və mədəni dirçəliş" mövzularında sessiyalar keçirilib.

Sessiyalarda çıxış edən mavritaniyalı jurnalist Abdarahman Von bildirib ki, Afrika ölkələri Fransa müstəmləkəçiliyindən əziyyət çəkən ölkələrdəndir. "Bu müstəmləkə vəziyyəti qadınlarımızın, uşaqlarımızın ləyaqətlə yaşamalarına imkan vermir. Bizə qarşı diskriminasiya siyasəti həyata keçirilir, qul kimi yanaşılır. İnanırıq ki, müstəmləkəçiliyə qarşı bu mübarizəmizi qazanacağıq. Ümidvaram, icmalarımız bu mübarizənin nə demək olduğunu anlayacaq və birləşəcək, nəticədə biz qalib gələcəyik", - deyə Abdarahman Von vurğulayıb.

Çıxış edən Milli Məclisin deputatı Nizami Səfərov deyib ki, insanlıq əleyhinə cinayətlərin konsepsiyası məhz Afrikada hələ də izləri görünən Trans-Atlantik qul ticarəti ilə bağlıdır. Bunun təsdiqini hələ XIX əsrdə dərc edilən və beynəlxalq hüquqa həsr olunmuş bir çox dərsliklərdə, ədəbiyyatlarda görmək olar. İnsanlıq əleyhinə cinayətlərin mənbəyi məhz quldarlıq, Afrikada baş verən qul ticarətidir. Şübhəsiz ki, Fransa bu cinayətin törədilməsində çox fəal rol oynayıb.

Qul ticarətinə görə Fransa tərəfindən reparasiyaların ödənilməsinin ən mühüm məsələlərdən biri olduğunu qeyd edən deputat vurğulayıb: "1998-ci ildə Qayanadan olan deputat Kristian Tobira Fransa parlamentində çıxış edib və xüsusi qanun layihəsi təklif edib. Həmin qanun layihəsində iki məsələ öz əksini tapmalı idi: Fransanın daxili cinayət qanunvericiliyinə uyğun olaraq quldarlığın, qul ticarətinin insanlıq əleyhinə cinayət kimi tanınması və reparasiya məsələsi, ümumiyyətlə, beynəlxalq müstəvidə reparasiya və kompensasiya. Ancaq çox təəssüf ki, bu məsələ Afrika xalqlarına, Afrika dövlətlərinə münasibətdə qanun layihəsindən kənarda qaldı".

Malidən olan QHT rəhbəri Kabin Dumbia qeyd edib ki, iqtisadi müstəqilliyi əldə etmək üçün təbii resurslara tam sahib olmaq, istehsal zəncirini qurmaq, yerli istehsalı təşviq etmək zəruridir. Bunun üçün də elmi və texniki sahəyə çox ciddi investisiya qoyulmalıdır. Bütün Afrika ölkələri isə bu cəhətdən çətinliklə üzləşib. Diplomatik müstəqillik zəruridir. Diplomatik müstəqillik dedikdə xarici güclərin təzyiqini dəf etmək nəzərdə tutulur. O bildirib ki, Afrika ölkələri yeni tərəfdaşlar axtaran zaman keçmiş müstəmləkəçi ölkələrlə ehtiyatla davranmağa məcburdur. İqtisadi, diplomatik və hərbi təzyiqlər Afrika ölkələrinin dəf etməli olduğu çətinliklərdəndir. Bəzən xarici qüvvələr sülhü təmin etmək və ya terrorla mübarizə adı altında Afrika ölkələrinə müdaxilə edirlər.

Konqo Kinşasa Dünyəvilik Evinin rəhbəri Dani Bos Sinqoma Kabaqambe deyib: "Konqo Demokratik Respublikası kolonializm uğrunda mübarizədə həlak olmuş Patris Lubumbanın vətənidir. Neokolonializmlə mübarizə bütün bəşəriyyətin vəzifəsi olmalıdır. Suverenliyin çox böyük üstünlükləri var. Ölkənin suveren olması hökumətin müstəqil qərar qəbul etməsinə imkan verir. Bu zaman dövlət milli maraqlar çərçivəsində qərar qəbul edə bilir".

Çıxış edən fəal Kemi Seba "neoliberalizm" adı altında Qərb dəyərlərinin bir çox ölkələrə yeridildiyini bildirib. Onun sözlərinə görə, lakin bu dəyərlər bir çox ölkədə müqavimətlə qarşılanır. Berlin divarının dağıdılmasından sonra Avropa dövlətləri Mali, Benin, Burkina-Faso və digər Afrika ölkələrini bir-birindən ayırmağa çalışdılar. Lakin indiki Afrika gəncləri bunu bilir və buna imkan vermirlər.

"Azərbaycan hazırda Fransa ilə gərginlik yaşayır. Siz nəzərə alın ki, biz 500 ildir bu ölkənin zülmündən əziyyət çəkirik. Bəzi şəxslər panafrikanizmlə bağlı böyük tədbirin Bakıda keçirilməsini təəccüblə qarşılayırlar. Lakin ümumi vəziyyətə nəzər yetirsək görərik ki, Azərbaycan Qoşulmama Hərəkatında fəal iştirak edir, deməli, dekolonizasiyaya qarşı ən ciddi mübarizə aparanlar sırasındadır. Azərbaycanın Fransanın insan hüquqları ilə bağlı bəyanatlarından artıq təngə gəldiyini bilirik. Afrikalılara gəldikdə, insan hüquqları fransız oliqarxiyasının yadına düşmür. Rəsmi Parisin Qarabağla bağlı mövqeyi Afrika ölkələri, Qviana, Martinika və Qvadelupaya münasibətilə daban-dabana ziddir. Fransa Qarabağdan fərqli olaraq Reünyon və Yeni Kaledoniyada öz müqəddəratını təyinetmə məsələsindən danışmır", - deyə Kemi Seba vurğulayıb.

Sosial Tədqiqatlar Mərkəzinin (STM) sektor müdiri, politoloq İlyas Hüseynov qeyd edib ki, hər bir xalq üçün öz taleyinin sahibi olmaq, müstəqil dövlət yaratmaq və inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik və dövlətçilik əzmini sarsıda bilmədi. 1991-ci ildə müstəqilliyini elan etməklə Azərbaycan öz dövlət suverenliyini bərpa etdi. Çünki suverenlik hakimiyyətin ali keyfiyyəti deməkdir.

O bildirib ki, ikili standartların ən çox müzakirə olunan və ən ağrılı tərəfi böyük dövlətlərin kiçik dövlətlərə, ümumiyyətlə, bir dövlətin digər iki dövlətə qarşı fərqli, qərəzli münasibətidir. İkili standartlara misal kimi ABŞ, Fransa və digər ölkələrin Ermənistan və Azərbaycana qarşı siyasətini göstərmək olar. Bu zaman ikiüzlü siyasət termini də işlədilir. ABŞ Konqresinin Azərbaycan dövlətinə yardımı qadağan edən 907-ci düzəlişi də ikili standartın bariz nümunəsi hesab olunur.

"Afrikanın dörd əsrdən artıq qul ticarəti və müstəmləkə istismarı zamanı Avropa dövlətləri tərəfindən əsarət altına alınması milyonlarla afrikalı üçün nəinki böyük əzab və ölümlə nəticələndi, həm də Afrikanın geriliyinə və kütləvi yoxsulluğuna səbəb oldu. Bununla belə həm "sivilizasiya missiyası", həm də Fransanın Afrikadakı siyasəti tamamilə irqçi idi və müstəmləkəçilik dövlət tərəfindən təsdiqlənmiş zorakılıq aktına çevrildi", - deyə politoloq vurğulayıb.

Sessiyalardan sonra Təşəbbüs Qrupunun illik (2023-2024) fəaliyyətinə həsr edilmiş videoçarx nümayiş etdirilib.

Sonda xatirə şəkli çəkdirilib.

# Tələbələr üçün seminarlar təşkil olunub





**Azərbaycan İlahiyyat İnstitutunun (AİI) tələbələri üçün seminarlar təşkil olunub. Seminarlar İndoneziyanın Sunan Kalijaqa Dövlət İslam Universitetinin müəllimləri tərəfindən AİI-də təşkil olunub.**

Azərbaycan İlahiyyat İnstitutunun rektoru dosent Aqil Şirinov tədbir iştirakçılarını səmimi salamladıqdan sonra məruzələr üçün qonaqlara təşəkkürünü bildirib. Rektor silsilə mühazirələrin tələbələrin dünyagörüşlərinə, təhsillərinə müsbət təsir göstərəcəyini qeyd edib, onlara uğurlar diləyib.

Rektor bu seminarların İndoneziyanın Cokyakarta şəhərində "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda keçirilən III Beynəlxalq Simpozium çərçivəsində AİI ilə İndoneziyanın Sunan Kalijaga Dövlət İslam Universiteti arasında imzalanan Anlaşma Memorandumuna əsasən keçirildiyini və bunun tələbələr üçün əhəmiyyətini diqqətə çatdırıb.

Dillər və ictimai fənlər kafedrasının dosenti Elvüsal Məmmədovun moderatorluq etdiyi seminarda sözügedən universitetin Ədəb və mədəniyyət elmləri fakültəsinin Tədris işləri üzrə dekan müavini dosent Ubaidillah M.Hum məruzə edib. Məruzəçi "Quranda cənnət obrazı: linqvistikada analitik araşdırma" mövzusunda danışıb. O, çıxışında müxtəlif dinlərdə, o cümlədən islamda cənnət obrazını müqayisəli şəkildə araşdırıb, onun linqvistikada analitik araşdırılması metodları barəsində ətraflı bəhs edib.

Daha sonra AİI-nin Dinşünaslıq kafedrasının müdiri dosent Anar Qafarovun moderatorluğu ilə seminarda Sunan Kalijaqa Dövlət İslam Universitetinin İslam tarixi və mədəniyyəti kafedrasının müdiri Risvinarno M.M "İndoneziya arxipelaqında yaşayış şəraitinin müxtəlifliyi", İslam tarixi və mədəniyyəti kafedrasının müəllimi Fatiyah M.A. isə "Yoxsulluq zamanı iman: Betahvalanq, Demakda (Mərkəzi Yava, İndoneziya) sahilyanı icmaların dindarlığının və dini təcrübələrinin araşdırılması" mövzularında məruzələr ediblər. Seminarlar qarşılıqlı müzakirələrlə davam edib, sonda məruzəçilərə AİI-nin sertifikatları təqdim olunub.

Məlumat üçün bildirək ki, sözügedən təlimlər cari ilin may ayında İndoneziyanın Cokyakarta şəhərində "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda keçirilən III beynəlxalq simpozium çərçivəsində Azərbaycan İlahiyyat İnstitutu ilə İndoneziyanın Sunan Kalijaga Dövlət İslam Universiteti arasında imzalanan Anlaşma Memorandumuna əsasən keçirilib.

***"Azərbaycan"***

# "Narkomaniyaya qarşı mübarizədə dini-mənəvi dəyərlərin rolu" mövzusunda seminar keçirilib





**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) "Narkomaniyaya qarşı mübarizədə dini-mənəvi dəyərlərin rolu" mövzusunda seminar keçirilib.**

Tədbir AİI tələbələrinin iştirakı ilə baş tutub. İlahiyyat fakültəsinin dekanı, seminarın moderatoru dosent Elnurə Əzizova çıxışında sözügedən mövzuda təlimlərin keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Dekan sağlam cəmiyyətin formalaşması baxımından narkomaniya ilə mübarizənin cəmiyyətin qorunması üçün zəruri olduğunu vurğulayıb, həmçinin bu səpkili seminar və təlimlərə tələbələrin fəal surətdə qatılmasını tövsiyə edib.

AİI-nin Dillər və ictimai fənlər kafedrasının dosenti Elvüsal Məmmədov "Narkomaniyaya qarşı mübarizədə dini-mənəvi dəyərlərin rolu" mövzusunda çıxış edib. Məruzəçi zərərli vərdişlərin getdikcə artan təhlükəsinə toxunub, bu problemin həlli üçün çıxış yollarından söhbət açıb.

E.Məmmədov dini-mənəvi dəyərlərin insan şəxsiyyətinin formalaşmasında mühüm rol oynadığını diqqətə çatdırıb. Məruzəçi qeyd edib ki, dini-mənəvi dəyərlərimizdə ehtiva olunan və insana əzmkarlıq, iradə, məqsədyönlülük aşılayan motivlər imkan verir ki, fərddə hələ uşaq yaşlarından sağlam mənəvi immunitet formalaşsın və bu dəyər zərərli vərdişlərdən qorusun. Məruzəçi daha sonra qeyd edib ki, dini-mənəvi dəyərlər insana axirət şüurunu aşılayır, fərd davamlı olaraq hər bir işə məsuliyyətlə yanaşır. Hər hansı bir əməlinin nəticəsini düşünən insan hərəkətlərinə, əməllərinə diqqət yetirir ki, bu da zərərli vərdişlərdən uzaq durmaq hissini aşılayır.

Seminar müzakirələrlə davam edib.

Məlumat üçün bildirək ki, seminar Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində nəzərdə tutulmuş tədbirlər planına əsasən baş tutub.

***"Azərbaycan"***

# Milli Məclisdə komitə iclasları keçirilib

Oktyabrın 3-də Milli Məclisin Səhiyyə komitəsinin 2024-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda 3 məsələ müzakirə edilib.

Komitənin sədri Əhliman Əmiraslanov əvvəlcə Səhiyyə komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planının layihəsini təqdim edib. Bildirilib ki, iş planına qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin, mövcud qanunlara ediləcək dəyişikliklərin müzakirəsi daxil edilib. Komitə sədri qeyd edib ki, sənədin hazırlanması zamanı Prezident İlham Əliyevin VII çağırış Milli Məclisin ilk iclasında səsləndirdiyi proqram xarakterli fikirləri və tövsiyələri əsas götürülüb.

Gündəliyin ikinci məsələsi - "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı danışan komitə sədri deyib ki, təklif olunan əlavə və dəyişikliklər əhalinin dərman vasitələrinə olan ehtiyaclarının maliyyə baxımından qarşılanmasına, əlçatanlığına və keyfiyyətin artırılmasına, habelə sığortaolunanların maraqlarının qorunmasına hüquqi zəmin yaradacaq.

Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihəsi barədə ətraflı məlumat verib. O bildirib ki, layihədə vətəndaşlara göstərilən tibbi xidmətlərin təkmilləşdirilməsi və keyfiyyətin yüksəldilməsi, həmçinin əhalinin dərman vasitələrinin qiymət dəyişmələrinə qarşı həssaslığının və dərman vasitələri üzrə xərclərinin minimuma endirilməsi məqsədilə bir sıra mühüm və mütərəqqi addımların atılması nəzərdə tutulub. Qeyd olunub ki, qanun layihəsinin qəbulu icbari tibbi sığortanın əsas məqsədlərindən olan əhaliyə keyfiyyətli və əlçatan tibbi xidmətlərin göstərilməsini təmin edəcəkdir.

Sonra komitə sədri Əhliman Əmiraslanov gündəliyin sonuncu məsələsi olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib, təklif olunan dəyişikliklərin mahiyyəti barədə danışıb.

Məsələlərin müzakirəsində Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, komitənin üzvləri İlham Məmmədov, Soltan Məmmədov, Məlahət İbrahimqızı, Kamaləddin Qafarov, Pərvanə Vəliyeva çıxış edərək, komitənin payız sessiyası üçün iş planı barədə danışıblar, təqdim olunmuş qanun layihələrinin əhəmiyyətini qeyd ediblər, öz fikir və təkliflərini səsləndiriblər.

İclasın sonunda komitənin 2024-cü ilin payız sessiyası üçün iş planı təsdiq edilib, müzakirəyə çıxarılan qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Oktyabrın 3-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin 2024-cü ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Hicran Hüseynova komitənin üzvlərini VII çağırış Milli Məclisə seçilmələri münasibəti ilə təbrik edib və onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra gündəliyi təqdim edən Hicran Hüseynova gündəliyin birinci məsələsi olan Ailə, qadın və uşaq məsələləri komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planının layihəsi haqqında məlumat verib. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında ailə dəyərləri həmişə diqqətdə saxlanılıb. Komitə sədri bu istiqamətdə fəaliyyətlərin davam etdirilməsi üçün payız sessiyasında bununla bağlı dinləmələrin keçiriləcəyini vurğulayıb. Diqqətə çatdırılıb ki, qarşıdakı sessiyada komitəyə qanunvericilik subyektlərindən daxil olacaq qanun layihələrinin müzakirəsi, o cümlədən müxtəlif qanun layihələrinə əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulub.

Gündəliyin ikinci məsələsi olan "Uşaq hüquqları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı qeyd edilib ki, təklif olunan dəyişikliklər uşaq müəssisələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, uşaq hüquqlarının həyata keçirilməsinin təkmilləşdirilməsinə xidmət edir.

Sonuncu məsələ olan "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi haqqında layihə (birinci oxunuş) qanunda nəzərdə tutulan şəxslərə sosial ödənişlərin təyin olunmasının və onların sosial müdafiəsinin mütəmadi olaraq təkmilləşdirilməsi məqsədi ilə hazırlanıb.

İclasda komitənin 2024-cü ilin payız sessiyası üçün iş planı təsdiq edilib, müzakirəyə çıxarılan qanun layihələri birinci oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Oktyabrın 3-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin payız sessiyasında onlayn formatda ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda 10 məsələ müzakirə olunub.

Gündəliyin birinci məsələsi olan Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin 2024-cü il payız sessiyasının qanunvericilik işləri planı layihəsi barədə danışan komitə sədri Əli Hüseynli bildirib ki, iş planında nəzərdə tutulan ən mühüm məsələ "Beynəlxalq müqavilələr haqqında" qanun layihəsidir. Bu qanun layihəsi dövlətçiliyimiz üçün mühüm əhəmiyyət kəsb edir. İş planı ilə bağlı komitə üzvləri öz təkliflərini təqdim edə bilərlər.

İş planı təsdiq olunduqdan sonra gündəliyin ikinci məsələsi olan "Bir sıra məhkəmələrin hakimlərinin təyinatı ilə bağlı təqdimat" barədə bildirildi ki, sənəddə Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və müxtəlif apellyasiya məhkəmələrinə hakimlərin namizədliyi irəli sürülüb.

Onlayn iclasda iştirak edən Məhkəmə-Hüquq Şurası Aparatının rəhbəri Kərəm Mansurov təqdimat barədə fikirlərini bölüşüb, hakimlərin seçilməsi prosesi, onların fəaliyyətinin qiymətləndirilməsi və digər sahələrdə görülmüş işlərdən danışıb.

Sonra Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərov təqdim olunan namizədlər haqqında məlumat verib.

Gündəliyin növbəti məsələsi olan "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) barədə danışan komitə sədri Əli Hüseynli bildirib ki, təklif olunan dəyişikliklər hakimlərin seçilməsi prosesinin sürətləndirilməsi məqsədi daşıyır.

Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev layihədə hakimlərin seçilməsi prosesində nəzərdə tutulan yeniliklər barədə məlumat verib. Bildirib ki, layihədə vakant hakim vəzifələrinin qısa müddətdə komplektləşdirilməsi məqsədilə hakimlərin seçilməsi prosesinin daha da sürətləndirilməsi təklif olunur. Belə ki, hakimlərin seçilməsi test imtahanı, yazılı imtahan və müsahibə olmaqla üç mərhələdən ibarət olacaq. Eyni zamanda ilk dəfə hakim vəzifəsinə təyin olunan şəxslər hakim təyin olunduqdan dərhal sonra təlimə cəlb ediləcəklər.

Layihədə hakimlərin fəaliyyətinin qiymətləndirilməsi üçün Məhkəmə-Hüquq Şurasının ixtisaslaşmış orqanının - Hakimlərin Qiymətləndirilməsi Komitəsinin yaradılması da nəzərdə tutulur.

Sonra gündəliyin 4-cü məsələsi - Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında qanunun layihəsi (birinci oxunuş) barədə komitə üzvü Kamal Cəfərov məlumat verib. Bildirilib ki, bu qanunlara təklif olunan dəyişikliklərin məqsədi antikorrupsiya sahəsindəki milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılmasıdır.



İclasda "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) də müzakirə olunub. Qeyd edilib ki, təklif olunan dəyişiklik uyğunlaşdırma xarakterlidir və qanunvericiliyin təklmilləşdirilməsinə xidmət edir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəliyin qalan 5 məsələsinin də uyğunlaşdırma xarakterli olduğunu diqqətə çatdırıb. Bunlar "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş), "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Kitabxana işi haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Poçt haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir (birinci oxunuş).

Komitə üzvlərinin qeyd və təklifləri dinlənildikdən sonra gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

❖ ❖ ❖

Oktyabrın 3-də Milli Məclisin Gənclər və idman komitəsinin 2024-cü ilin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan komitə sədri Şahin İsmayılov diqqətə çatdırıb ki, gündəliyə Gənclər və idman komitəsinin 2024-cü ilin payız sessiyası üçün iş planının layihəsi və "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə layihə (birinci oxunuş) daxil edilib.

Şahin İsmayılov gündəlikdəki məsələlər barədə məlumat verərək bildirib ki, komitənin qarşıdakı sessiya üçün iş planında büdcə zərfinin və komitəyə daxil olacaq digər qanun layihələrinin müzakirəsi nəzərdə tutulub.

Eyni zamanda iş planında müstəqil Azərbaycanda gənclər siyasətinin banisi Ulu Öndər Heydər Əliyevin irsinin öyrənilməsi və təbliğinə, gənclər və idman sahəsinin aktual məsələlərinə həsr olunmuş ictimai dinləmələrin və digər tədbirlərin keçirilməsi, şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə görüşlər, vətəndaşların qəbulu, ərizə və şikayətlərlə işin təşkili və digər məsələlər nəzərdə tutulub.

Komitə sədri gündəliyin ikinci məsələsi ilə bağlı bildirib ki, qanun layihəsində ümumilikdə 5 məcəllədə və 6 qanunda, o cümlədən "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" qanunda dəyişiklik edilməsi təklif olunur. Layihə uyğunlaşdırma xarakterlidir. Belə ki, "Arbitraj haqqında" qanunun qəbulu ilə yerli arbitraj institutunun yenidən formalaşdırılması, beynəlxalq və daxili arbitrajın həyata keçirilməsi kimi məsələlərlə bağlı yeni tənzimləmələr qanunvericilikdə müvafiq dəyişiklikləri zəruri edir.

Məsələlərin müzakirəsində komitə üzvləri Ülvi Quliyev, Vüqar İskəndərov, Eyvaz Qurbanov, Asif Əsgərov, Müşfiq Cəfərov və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış edərək komitənin payız sessiyası üçün iş planının layihəsini müsbət qiymətləndiriblər, iş planı ilə bağlı təkliflərini səsləndiriblər. Onlar qanun layihəsindəki dəyişikliklərin əhəmiyyətini qeyd edərək Azərbaycanda gənclər və idman sahəsinin daha da inkişafının bəzi aktual məsələlərinə və müvafiq qanunvericiliyin təkmilləşdirilməsinə dair fikirlərini bölüşüblər.

Müzakirələrin sonunda komitənin 2024-cü ilin payız sessiyası üçün iş planı təsdiq edilib, müzakirəyə çıxarılan qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

❖ ❖ ❖

Oktyabrın 3-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitənin sədri Arzu Nağıyev 3 oktyabr tarixinin əhəmiyyətini xüsusi qeyd edərək, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 31 il keçdiyini vurğulayıb, Ulu Öndərin yaratdığı milli ideologiyanın bu gün də davam etdiyini bildirib.

Arzu Nağıyev komitənin iclasının gündəliyinə 7 məsələnin daxil olduğunu söyləyib. Əvvəlcə o, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2024-cü il payız sessiyası üçün iş planının layihəsi barədə danışıb. Bildirilib ki, sessiya ərzində qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin, habelə "Hərbi qulluqçuların statusu haqqında", "Minatəmizləmə fəaliyyəti haqqında" layihələrin müzakirəsi, komitəyə müvafiq orqanlardan daxil olan təkliflərin təhlili, vətəndaşların müraciətlərinə baxılması nəzərdə tutulub.

Sonra komitə sədri "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, qanun layihəsinə əsasən, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanunun tətbiqi barədə Prezidentin Fərmanının 3.2-ci bəndinə əsasən bu qanunun 9.6-cı maddəsinin mövcud redaksiyasında nəzərdə tutulan Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda müvafiq vasitələrlə təmin edilməsi qaydası və təminat norması müəyyən edilməyəcək, yeni redaksiyaya əsasən onlar üçün ümumi qayda müəyyən ediləcək.

Növbəti məsələnin "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Konstitusiya Məhkəməsi haqqında" və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" qanun layihəsi (birinci oxunuş) olduğu qeyd edilib.

Diqqətə çatdırılıb ki, layihədə "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Qanuna təklif olunan dəyişiklikdə komissiyanın fəaliyyətinin təşkilinin ətraflı tənzimlənməsi məqsədilə yeni müddəaların əlavə olunması təklif edilir. Yeni müddəalarda Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın hüquqlarının, səlahiyyətlərinin genişləndirilməsini, üzvlərinin təyin edilməsini, onların dairəsinin və səlahiyyət müddətlərinin müəyyən edilməsini, işinin təşkili üçün işçi qruplarının yaradılmasını və komissiya üzvlərinin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi hallarını tənzimləyən normaların əlavə edilməsi nəzərdə tutulur. Bununla əlaqədar "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" və "Konstitusiya Məhkəməsi haqqında" qanunlarda da müvafiq dəyişikliklərin edilməsi təklif olunur.

Sonra "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsinə (birinci oxunuş) baxılıb.

Sənəddə Əsasnaməyə təklif olunan dəyişiklikdə müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış və həmin orqanın ehtiyatına keçirilmiş birinci dərəcəli ehtiyatda olan hərbi vəzifəlilər üçün hərbi təlim toplanışlarına çağırılması müddəti ayrıca müəyyən edilir. Eyni zamanda müvafiq icra hakimiyyəti orqanında həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış və həmin orqanın ehtiyatına keçirilmiş hərbi vəzifəlilərin toplanışlarda olmağının ümumi müddəti də müəyyən edilir. Bundan başqa, toplanışlara cəlb ediləcək hərbi vəzifəlilərin sayının müvafiq icra hakimiyyəti orqanının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilməsi nəzərdə tutulur. Bu müddəa "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 45.5-ci maddəsində nəzərdə tutulduğu üçün Əsasnaməyə də bu dəyişikliyin edilməsi təklif olunur. Layihədə habelə mövcud normaların təkmilləşdirilməsi ilə bağlı və dəqiqləşdirmə xarakterli digər dəyişikliklər də yer alıb.

Sonra "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) təqdim edilib. Qeyd olunub ki, layihə hərbi qulluqçuların təhsili ilə bağlı normaların təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Nəzərə çatdırılıb ki, layihənin müxtəlif maddələrində "orta ixtisas təhsili" sözləri əlavə edilir. Bununla yanaşı, dəyişikliklərdə müvəffəqiyyətsizliklərinə, təhsillərini davam etdirmək istəmədiklərinə və ya intizamsızlıqlarına görə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali təhsil müəssisələrindən xaric edilən kursantlarla yanaşı, xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrindən xaric edilən kursantların da müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə göndərilməsi təklif edilir. Sənəddə habelə hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsil sisteminin təkmilləşdirilməsi, tələbələrin həmin təhsil müəssisələrinə daxil olmaqda marağının artırılması məqsədilə gizirlərin və miçmanların tutmalı olduqları vəzifələrin, həmçinin hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrini bitirmiş hərbi qulluqçularla komplektləşdirilməsi təklif edilir. Layihədə bir sıra digər dəyişikliklər də nəzərdə tutulur.

İclasda habelə "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) də təqdim edilib. Bildirilib ki, qanunun 7.2.5-ci və 18.4-cü maddələrinə təklif edilən dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, Silahlı Qüvvələrin tərkib hissəsinə Azərbaycan Ordusu ilə yanaşı, başqa silahlı birləşmələr də daxil olduğundan layihədə "başqa silahlı birləşmələr" ifadəsinin çıxarılması təklif edilir. Digər dəyişikliyə əsasən, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin əməkdaşlarının bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə xarici dövlətlərin xüsusi xidmət və hüquq-mühafizə orqanları ilə müvafiq proqramlar çərçivəsində kadrların hazırlanması, təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində də əməkdaşlığın həyata keçirilməsi nəzərdə tutulur.

Sonra gündəliyin sonuncu məsələsi - "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunlarında dəyişiklik edilməsi barədə" (birinci oxunuş) qanun layihəsi nəzərdən keçirilib. Qeyd olunub ki, "Qida təhlükəsizliyi haqqında" qanunun icrası ilə əlaqədar "Hərbi qulluqçuların statusu haqqında", "Müdafiə haqqında" qanunlarda, habelə Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri Nizamnaməsi"ndə və Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət Nizamnaməsi"ndə uyğunlaşdırma xarakterli bir sıra dəyişikliklər edilib.

Müzakirələr zamanı komitə sədrinin müavini Qüdrət Həsənquliyev, üzvləri Hikmət Məmmədov, Ramid Namazov, Rizvan Nəbiyev, Aydın Mirzəzadə, Erkin Qədirli, Qaya Məmmədov, Elman Məmmədov, Səbinə Salmanova çıxış ediblər, təqdim olunan sənədlər barədə fikir və qeydlərini açıqlayıblar.

İclasda komitənin 2024-cü il payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib, qanun layihələri birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

Mərkəzi Seçki Komissiyasında

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib



**Məzahir Pənahovun sədrliyi ilə oktyabrın 3-də Mərkəzi Seçki Komissiyasının iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın sentyabrın 13-ü, 14-ü, 15-i və 16-sı tarixli iclaslarının protokolları təsdiq edilib.

Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi məsələsinə baxılıb. Aparılan müzakirələrin ardınca 24 saylı Nizami birinci, 42 saylı Sumqayıt birinci, 82 saylı İmişli-Saatlı və 83 saylı Beyləqan seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib.

Media subyektləri nümayəndələrinin iştirak etdiyi iclasda həmçinin cari məsələlərə baxılıb.

## QƏRAR № 46/229

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 13 sentyabr, 14 sentyabr, 15 sentyabr və 16 sentyabr tarixli iclas protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 13 sentyabr, 14 sentyabr, 15 sentyabr və 16 sentyabr tarixli iclas protokolları təsdiq edilsin.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*03.10.2024*

## QƏRAR № 46/230

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Niyazi İsgəndər oğlu Nəcəfov 24 saylı Nizami birinci, Ruslan Zülfüyeviç Hacıyev 42 saylı Sumqayıt birinci, Barat Zöhrab oğlu Xəlilov 82 saylı İmişli - Saatlı, Gülnar Vaqif qızı Cəfərli 83 saylı Beyləqan seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Fəridə Rza qızı Rzayeva 24 saylı Nizami birinci, Təravət Ələvsət qızı Rəsulova 42 saylı Sumqayıt birinci, Sabit Çərkəz oğlu Yaqubov 82 saylı İmişli - Saatlı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

*03.10.2024*

# Azərbaycanla Özbəkistan arasında komanda-qərargah təlimi keçirilir

**"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında imzalanan 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı"na əsasən, iki ölkə arasında "Məharət-2024" kompüter dəstəkli birgə komanda-qərargah təlimi keçirilir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində keçirilən təlimdə əməliyyat əmrinin çatdırılması və vəzifələrin təhlili üzrə fəaliyyətlər icra olunub.

Daha sonra vəzifə təhlili brifinqində təlimin ssenarisinə uyğun xəbərdarlıq əmrləri verilib və fəaliyyət tərzlərinin hazırlanması prosesi həyata keçirilib. Azərbaycan və Özbəkistan ordularının əməliyyat bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsi məqsədilə keçirilən komanda-qərargah təlimi oktyabrın 6-dək davam edəcək.

# "N" hərbi hissəsinin yaranma günü qeyd olunub

**Oktyabrın 3-də "N" hərbi hissəsinin yaranma günü münasibətilə tədbir keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə Müdafiə Nazirliyi rəhbərliyinin təbriki şəxsi heyətə çatdırılıb, eləcə də hərbi hissənin yaranma tarixi barədə ətraflı məlumat verilib.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunda aparılan uğurlu islahatların müsbət nəticələri tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu fəxri fərman və qiymətli hədiyyələrlə təltif edilib.

Sonra hərbi qulluqçuların tribuna önündən təntənəli keçidi olub.

# Ali Audit Orqanlarının Avropa Təşkilatının Ətraf Mühitin Auditi üzrə İşçi Qrupunun illik toplantısı keçirilib

**Bakıda Hesablama Palatasının evsahibliyi ilə Ali Audit Orqanlarının Avropa Təşkilatının (EUROSAI) Ətraf Mühitin Auditi üzrə İşçi Qrupunun illik toplantısı keçirilib.**



AZƏRTAC xəbər verir ki, toplantıdan öncə tədbir iştirakçıları Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə güllər düzüblər.

Sonra isə Şəhidlər xiyabanına gedərək ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları önünə gül dəstələri qoyublar.

Tədbiri giriş sözü ilə açan Hesablama Palatasının sədri Vüqar Gülməmmədov işçi qrupun toplantısına evsahibliyinin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, ölkə Prezidentinin müvafiq sərəncamına əsasən, 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib, eyni zamanda cari ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Bakıda keçirilməsi nəzərdə tutulur. Sədr bildirib ki, illik toplantının Bakıda məhz bu il keçirilməsi Hesablama Palatasının məsuliyyətini artırmaqla bu tədbirdən gözləntilərin reallaşması üçün toplantı iştirakçıları ilə birgə daha təsirli fəaliyyətləri zəruri edir.

Daha sonra sədr Hesablama Palatası tərəfindən aparılan ekoloji auditlər zamanı ortaya çıxan çağırışlara diqqət yetirib. Vüqar Gülməmmədov İqlim Skaneri təşəbbüsünün cari icra vəziyyəti barədə də məlumat verərək Hesablama Palatasının beynəlxalq cəmiyyətdə, o cümlədən Ali Audit Orqanları (AAO) cəmiyyətində ətraf mühit üzrə təşəbbüsləri aktiv şəkildə dəstəklədiyini vurğulayıb.

Çıxışının sonunda sədr bu toplantı timsalında tədbirlərin ətraf mühitlə bağlı məsələlərin gündəmdə qalmasına xidmət etməklə bu sahədəki problemlərin həllində audit institutunun rolunun artırılmasına töhfə verəcəyindən bəhs edib.

Tədbir işçi qrupun katibliyinin rəhbəri Polşa AAO-nun sədrinin çıxışı, habelə EUROSAI prezidentinin mesajı ilə davam edib.

Qeyd edək ki, toplantıda 19 ölkənin ali audit orqanının 50-dən çox nümayəndəsi iştirak edir. Toplantı zamanı beynəlxalq AAO ictimaiyyəti tərəfindən "Fəlakətlərə hazırlığın dəstəklənməsi", "Ekstremal hadisələri başa düşmək, uyğunlaşmaq və təsirin azaldılması ilə bağlı fikirlər", "Səhralaşma, meşə və çöl yanğınları ilə mübarizədə əlaqələndirilmiş audit", "Milli parklarda yanğından mühafizə" və s. mövzularda müzakirələrin aparılması nəzərdə tutulur.

EUROSAI-ın Ətraf Mühitin Auditi üzrə İşçi Qrupu rəsmi olaraq EUROSAI-ın 1999-cu ildə keçirilmiş 4-cü Konqresinin qərarı ilə yaradılıb. Qrupun əsas məqsədi peşəkar əməkdaşlığı təşviq etmək və dəstəkləmək, bilik və təcrübə mübadiləsini təşviq etməkdir.

# Braziliyada IEA və IRENA ilə COP29-un enerji gündəliyi müzakirə edilib

**Energetika naziri Pərviz Şahbazov Braziliyada G20 tədbirləri çərçivəsində Beynəlxalq Enerji Agentliyinin (IEA) icraçı direktoru Fatih Birol və Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera ilə görüşlər keçirib.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Beynəlxalq Enerji Agentliyinin (IEA) icraçı direktoru Fatih Birolla görüşdə enerji bazarlarında vəziyyət və perspektivlər, həmçinin COP29 çərçivəsində əməkdaşlığa dair məsələlər müzakirə predmeti olub. "Bərpa Olunan Enerji və Enerji Səmərəliliyinə dair Qlobal Vəd"in yerinə yetirilməsində Azərbaycanın təşəbbüskarı olduğu "Qlobal Enerji Anbarları və Şəbəkələri Öhdəliyi"nin vacib rolundan danışılıb. Bildirilib ki, "yaşıl enerji" zonası və dəhlizlər də daxil olmaqla iki öhdəlik Azərbaycanın bu sahədə təcrübəsindən irəli gəlir.

Noyabrın 15-də "Enerji Günü"ndə keçiriləcək COP29 Fəaliyyət Gündəliyinin enerji təşəbbüslərinin elanına həsr olunmuş nazirlər səviyyəsində "dəyirmi masa", bərpaolunan mənbələrin üç dəfə artırılması və enerji səmərəliliyinin ikiqat artırılması üçün investisiyaların genişləndirilməsi, neft və qaz sənayesinin sürətlə karbonsuzlaşdırılması, enerji keçidinə nail olmaq üçün infrastrukturun qurulması, elektrik sistemlərində ötürmə gücünün üçqat artırılması kimi ümumilikdə 7 tədbirdə agentliyin iştirakı və bu çərçivədə əməkdaşlıq nəzərdən keçirilib. Energetika naziri və agentliyin icraçı direktorunun həmsədrliyi ilə keçiriləcək "Enerji Keçidi üzrə 4-cü Yüksək Səviyyəli Dialoq"la bağlı fikir mübadiləsi aparılıb. Həmçinin "EU4Energy" proqramı çərçivəsində IEA tərəfindən hazırlanmış "Azərbaycan üçün Enerji Səmərəliliyi üzrə Yol Xəritəsi"nin təqdimatına həsr olunmuş tədbirin COP zamanı keçirilməsi təklifi müzakirə edilərək razılaşdırılıb.

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera ilə görüşdə də əsas diqqət COP29 zamanı agentliklə birgə təşkil olunan tədbirlərə yönəldilib. Bu xüsusda Azərbaycanın evsahibliyi ilə Pre-COP29 zamanı keçiriləcək "BƏƏ Konsensusunun Enerji Nəticələrinin İzlənməsi - Hesabatın Başlanması" tədbiri və Mərkəzi Asiya üçün Enerji Keçid İnvestisiya Forumunun təşkili məsələləri müzakirə edilib. Həmçinin IRENA-nın iştirakı ilə planlaşdırılan digər tədbirlər və aktual məsələlər nəzərdən keçirilib.

# İndoneziya və Monqolustan nümayəndə heyətləri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olublar

Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29 sentyabr - 2 oktyabr tarixlərində Bakıda keçirilən 29-cu İllik Konfransı və ümumi yığıncağında iştirak edən beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlərin keçirilməsi davam etdirilir.

Qeyd olunan tədbir çərçivəsində ölkəmizdə səfərdə olan İndoneziya Respublikasının baş prokurorunun müavini Asep Nana Mulyananın təşəbbüsü ilə xarici qonağın rəhbərlik etdiyi nümayəndə heyəti 2 oktyabr 2024-cü il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə yerində tanış olub.

Nümayəndə heyətinə Baş İdarənin funksiya və fəaliyyət istiqamətləri barədə geniş məlumat verilib, o cümlədən qonaqlar ixtisaslaşdırılmış prokurorluq orqanının kriminalistik imkanları, "161 - Qaynar xətt" əlaqə mərkəzi, informasiya-kommunikasiya şəbəkəsi, əməliyyatların idarə edilməsi mərkəzi və digər xidməti sahələri ilə tanış ediliblər.

Baş İdarədə yaradılmış müasir və əlverişli iş şəraitindən məmnunluğunu ifadə edən Asep Nana Mulyana ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində formalaşmış təcrübəni və əldə edilmiş nailiyyətləri yüksək qiymətləndirib.

* * *

Ölkəmizdə səfərdə olan Monqolustan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Müstəqil Xidmətinin rəhbəri Dashdavaa Zandraanın təşəbbüsü ilə xarici qonağın rəhbərlik etdiyi nümayəndə heyəti 3 oktyabr 2024-cü il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə yerində tanış olub.



Xarici qonaqları salamlayan baş prokurorun müavini - Baş İdarə rəisi Nazim Rəcəbov onlara ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılmış islahatlar, əldə edilmiş nailiyyətlər və müsbət təcrübələr, habelə ixtisaslaşdırılmış prokurorluq orqanının funksiya və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

Daha sonra nümayəndə heyəti Baş İdarənin kriminalistik imkanları, "161 - Qaynar xətt" əlaqə mərkəzi, informasiya-kommunikasiya şəbəkəsi, əməliyyatların idarə edilməsi mərkəzi və digər xidmət sahələri ilə tanış edilib.

D.Zandraa ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsindəki təşəbbüs və nailiyyətlərindən, eləcə də Baş İdarədə yaradılmış iş şəraitindən məmnunluğunu ifadə edib, həmçinin görüş zamanı gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# CƏBRAYIL – azadlığa qovuşan ilk şəhər






## Zəfərin izi ilə

**Cəbrayıl şəhərinin azadlığına qovuşmasından dörd il ötür. Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il oktyabrın 4-də xalqa verdiyi "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" müjdəli xəbəri sanki dünən kimi xatırlanır. Amma artıq Cəbrayıl azaddır, dirçəlir, doğma sakinlərinə qovuşur.**

**Cəbrayıl düşmən tapdağından xilas edilən ilk şəhər idi. Vətən müharibəsinin ilk günlərindən Cəbrayıl rayonunun kəndləri bir-bir işğaldan azad edilirdi. Dövlət başçısı bu sevincli xəbərləri xalqla bölüşürdü.**

**İlk gündə rayonun Böyük Mərcanlı və Nüzgar kəndləri, oktyabrın 3-də isə Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri, 4 oktyabr tarixdə isə Cəbrayıl şəhəri ilə yanaşı, rayonun 9 kəndi - Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Decal qüdrətli ordumuz tərəfindən işğaldan azad edilmişdi.**






Cəbrayıl şəhərinin azadlığı, Azərbaycan bayrağının qaldırılması ordumuzu daha əmin addımlarla irəliyə doğru aparırdı.

Ümumilikdə bu əməliyyatlar zamanı Cəbrayıl şəhəri və rayonun 90 kəndi işğaldan azad edildi. Həmçinin Azərbaycanın İranla dövlət sərhədinə nəzarət qismən bərpa edildi.

*Tarixə nəzər: 1930-cu ildə təşkil edilən Cəbrayıl rayonu 4 yanvar 1963-cü ildə ləğv edilərək Füzuli rayonuna birləşdirilib. 17 iyun 1964-cü ildə ayrıca rayon kimi yenidən yaradılıb. Rayon 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. İşğal zamanı Cəbrayıl rayonu 1 şəhər, 4 qəsəbə və 92 kənddən ibarət idi.*

*1994-cü il 5 yanvar tarixdə Horadiz əməliyyatı zamanı Cocuq Mərcanlı kəndi işğaldan azad edilsə də, kənddə yaşayış mümkün olmayıb. 2016-cı il Aprel döyüşlərində Azərbaycan Ordusunun əks-hücumu nəticəsində Lələtəpə yüksəkliyi işğaldan azad ediləndən sonra Cocuq Mərcanlı kəndi ordumuzun nəzarətinə keçib.*

*Vətən müharibəsinə gedən yolun başlanğıcı hesab edilən Aprel döyüşləri işğal dövründən sonrakı ilk genişmiqyaslı əməliyyat idi. Dörd gün davam edən savaşda Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində bəzi mövqeləri düşməndən azad etmişdi. Strateji əhəmiyyətli yüksəkliklərin nəzarətimizə keçməsi böyük əhəmiyyət kəsb edirdi.*

### Müqəddəs torpaqlara ilk səfər

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın azadlığa qovuşmuş müqəddəs torpaqlara ilk səfərləri də elə Cəbrayıl şəhərindən başladı. Ölkə rəhbəri Cəbrayıl şəhərində və Xudafərin körpüsündə üçrəngli Azərbaycan bayrağını qaldırdı.

Füzuli və Cəbrayıla səfər edən dövlət başçısı qələbənin zirvəsi sayılan Şuşaya yol çəkilişi ilə bağlı göstərişini də verdi. Zəfər yolunun əsası elə bu səfərdə qoyuldu.

Vətən müharibəsindən dərhal sonra Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, işğaldan azad olunmuş hər bir rayonda bərpa və yenidənqurma işləri sürətlə həyata keçirilir. Quruculuq işləri dövlət başçısının birbaşa nəzarətindədir.

### Bərpa, quruculuq...

Cəbrayıl da 27 il ərzində ermənilər tərəfindən vəhşicəsinə dağıdılan rayonlarımızdandır. İşğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard dollar məbləğində ziyan dəyib. Cəbrayılın işğaldan azad olunmasının ilk ilində Prezident Cəbrayıla səfər edərək, orada bir sıra təməlqoyma tədbirlərində iştirak edib "KAMaz" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin əsasını qoydu. Ölkə rəhbəri eyni zamanda 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak etdi. Həmin səfərində cəbrayıllılarla görüşən Prezident İlham Əliyev qələbənin önəmindən söz açaraq Cəbrayılın azad olunmasından sonra işğal altında olan digər rayonlara uğurlu addımların mümkün olduğunu bildirdi.

Bəli, Cəbrayıldan sonra Zəngilan, Qubadlı və Laçın rayonunun cənub hissəsinin işğalçılardan təmizlənməsinə şərait yarandı. Qüdrətli ordumuz bu şəraitdən məharətlə istifadə edərək irəlilədi. Beləliklə, hərbçilərimiz Laçın dəhlizinə tam nəzarəti bərpa edə bildi.

Cəbrayılda "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin də təməlləri qoyuldu. Ötən il Cəbrayıl Şəhəri Günündən öncə rayona səfər edən dövlət başçısı ilk yaşayış məhəlləsi - Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanış oldu. Eyni zamanda inzibati binanın təməlini qoydu.

Cəbrayıl rayonunda 240 meqavat gücə malik günəş-elektrik stansiyasının inşası da nəzərdə tutulub. Rayona gediş-gəlişin rahatlığının təmin olunması üçün isə hazırda 4-6 zolaqlı yol çəkilir. Rayonun bütün kəndlərinin tədricən bərpa edilməsi proqramı da təsdiq edilib.

Bu ilin may ayında Cəbrayıla baş çəkən Prezident İlham Əliyev yeni dörd kəndin - Böyük Mərcanlı, Karxulu, Sarıcallı və Maşanlı kəndlərinin əsasını qoydu. Böyük Mərcanlıda 2040-cı ilədək 6230 nəfər əhali üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları, Karxuluda 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli evlərin, Sarıcallıda 4740 nəfər əhali üçün 1185 fərdi evin və bir neçə mərtəbəli binaların, Maşanlıda isə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi nəzərdə tutulub.

Bu səfərdə eyni zamanda "Xudafərin" və "Qız Qalası" hidroqovşaqlarının açılışı baş tutdu. Bütövlükdə, Cəbrayılda adını çəkmədiyimiz neçə-neçə böyük layihələr həyata keçirilir, binaların tikintisi davam etdirilir.

### Bu gün Cəbrayıl Şəhəri Günüdür

Prezident İlham Əliyevin ötən ilin iyul ayında imzaladığı sərəncama əsasən, işğaldan azad edilmiş ərazilər üzrə şəhər günləri təsis edilib. Zəfər yolunun başlanğıcı, ilk azad edilən şəhər kimi Cəbrayılın bu gün azadlığının təntənə günüdür. Cəbrayıllılar və bütün Azərbaycan xalqı bu günü böyük təmtəraqla qeyd edirlər.

Tezliklə digər şəhərlərimizin sakinləri kimi, Cəbrayılın sakinləri də bu böyük bayramın sevincini doğma yurdda qeyd edəcəklər. İlk mərhələdə Cəbrayıl şəhərində ümumilikdə 117 ailə - 364 nəfərin məskunlaşması təmin olunacaq. Məlumata əsasən, Cəbrayıl şəhərinin mərkəzində kompleksdə 33 yaşayış binası tikilir. 4-5 mərtəbədən ibarət olan bu binalarda 712 mənzil olacaq. İnşaat işləri başa çatdıqdan sonra binalarda 2158 keçmiş məcburi köçkün məskunlaşacaq. Bundan sonra cəbrayıllıların da mərhələli şəkildə dədə-baba torpaqlarına köçmələrinin, sevinc göz yaşlarının şahidi olacağıq.

### Cəbrayıl igidləri

Cəbrayılın azad olunması qələbənin qazanılmasında xüsusi rol oynayıb. İllərlə bu ərazilərdə möhkəmlənmiş düşmənin mövqelərini, istehkamlarını məhv etmək xüsusi bacarıq, şücaət tələb edirdi. Vətənini canından çox sevən Azərbaycan Ordusunun əsgər və zabit heyəti bu yolda hər şeyə hazır idi. Bunun üçün yalnız Ali Baş Komandanın əmri kifayət idi.

Zəfərdən sonra Vətən müharibəsi ilə əlaqədar təsis edilən ali mükafatlar sırasında "Cəbrayılın azad olunmasına görə" medalı da xüsusi yer aldı. Dövlət başçısı tərəfindən bu yolda canı, qanı bahasına döyüşərək şəhadətə yüksələnlər, həmçinin qazilərimiz mükafatlandırılmışdı. Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 22797 hərbi qulluqçusu "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdi.

### Cəbrayıl istiqamətində döyüşlər gələcək qələbəmizin təməlini qoydu

Cəbrayılın 1992-ci il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini xatırladan Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib ki, rayon strateji mövqeyi, həmçinin Xudafərin körpüsü vasitəsilə İranla həmsərhəd olması baxımından böyük əhəmiyyət daşıyır: "Buna görə ermənilər ciddcəhdlə Cəbrayılı qorumağa çalışırdılar. Onlar ciddi mühəndis-istehkam qurğuları yaratmışdılar ki, rayonu geri almaq mümkün olmasın. 1994-cü ilin yanvar ayında Horadiz əməliyyatı zamanı Cocuq Mərcanlı kəndi Azərbaycan hərbçiləri tərəfindən işğaldan azad edilmişdi. 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu Lələtəpə yüksəkliyini azad edərək Cocuq Mərcanlıya nəzarəti tam ələ almışdı. Lakin rayonun digər kəndləri Ermənistanın, separatçı qüvvələrin işğalı altında qalırdı. 2020-ci il sentyabrın 27-də döyüşlər başlayanda ən ciddi istiqamət Cəbrayıl idi, çünki ermənilər bu rayonun bir sıra kəndlərini, həmçinin Cocuq Mərcanlını atəş altında saxlayırdılar. Çalışırdılar ki, Azərbaycan Ordusu əks istiqamətdə hücuma keçə bilməsin. Ermənistan silahlı qüvvələrinin bu kəndə açdığı atəşdən mülki vətəndaşımızın yaralanması ilə Azərbaycan Ordusu ciddi həmlələrinə başladı. Əsas istiqamət Füzuli-Cəbrayıl idi. Burada Ermənistanın çoxlu hərbi texnikası cəmləşdirilmişdi. Azərbaycan Ordusu onların hamısını sıradan çıxartdı. Daha sonra 18-ci motoatıcı diviziya məhv edildi".

Bir sıra strateji əhəmiyyətli kəndlərin müharibənin ikinci həftəsində Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildiyini xatırladan deputat deyib ki, ən mühüm məsələlərdən biri müharibənin təxminən üçüncü həftəsində Azərbaycanı və İranı birləşdirən, 30 ilə yaxın işğal altında olan Xudafərin körpüsünə çıxış idi. Azərbaycan Ordusu Xudafərini işğaldan azad etdi. Prezident İlham Əliyev bu ərəfədə informasiya müharibəsi aparırdı. Xalq ölkə rəhbərinin "Tviter"də (indiki "X") paylaşımlarını maraqla, səbirsizliklə gözləyirdi. Oktyabrın 18-də isə dövlət başçısı Xudafərin körpüsündə dalğalanan Azərbaycan bayrağının videosunu paylaşdı.

A.Nağıyev vurğulayıb ki, Azərbaycan Ordusu artıq Xocavənd rayonuna - cənub kəndlərinə tərəf irəliləyir və strateji əhəmiyyətli Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatların keçirilməsi üçün böyük imkan əldə edirdi. Cəbrayılın azad olunması Vətən müharibəsində çox mühüm dönüş nöqtəsi idi. Bu istiqamətdə gedən döyüşlər gələcək qələbəmizin təməlini qoydu. "Noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin ərazilərdə oldular, Xudafərin körpüsünə getdilər. Qələbədən təxminən 10 gün sonra "Cəbrayılın azad olunmasına görə" medalı təsis edildi. 12 mindən çox hərbçimiz bu medalla təltif olundu. Bu gün isə Cəbrayıl şəhəri minalardan təmizlənərək, yenidən qurulur. 200-ə yaxın ailə Cəbrayıl şəhərinə köçürülüb və proses davam edəcək. Cəbrayıl döyüşləri, şəhərin azad olunması Azərbaycan tarixinə fəxarətlə yazılacaq səhifədir. Bu istiqamətdə analoqu olmayan döyüşlər gedib. Azərbaycan Ordusu, xüsusi xidmət orqanlarımız və digər hərbi birləşmələrimiz Ali Baş Komandanın rəhbərliyi altında tapşırıqları çox yüksək səviyyədə yerinə yetirdilər. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin", - deyə komitə sədri fikrini tamamlayıb.

### Zəfər yolunun başlanğıcı

Uzun illər işğal altında qalan digər şəhər və kəndlərimizin taleyini yaşayıb Cəbrayıl da. Daşı daş üstündə qoymayan düşmən yaşayış evlərini, bütün obyektləri dağıdıb. Tarixi silmək istəyən barbarlar Cəbrayılın da abidələrini, mədəniyyət nümunələrini məhv ediblər. Amma Azərbaycan haqqı, ədaləti bərpa edərək işğala son qoyub və bu gün həmin əraziləri öz gücü hesabına yenidən qurur, abadlaşdırır.

Xatırladaq ki, Cəbrayıl şəhərində vaxtilə Ağoğlan nekropolu, Sultan Məcid hamamı, Sirik kəndində Qala bürcü, Xələfli qəsəbəsində Qız qalası, Dağ Tumas kəndində Divlər sarayı, Tatar kəndində Siklop tikililəri, Şıxlar kəndində şəhərcik qalıqları və qışlaq yerləri, dairəvi türbə, XVI və XIX əsrlərə aid məscidlər, Ağoğlandakı Orxan yazılı abidəsi, Qumlaq kəndində 11 və 15 aşırımlı Xudafərin körpüləri, Xudyarlı kəndində dairəvi və səkkizguşəli türbələr işğal illərində məhv edilib.

Amma artıq əzəli sahiblər öz torpaqlarındadır. Qurur, yaradır, o yerləri yenə cənnətə çevirəcəklər.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*









# Türk dövlətlərini birləşdirən güclü siyasi-iqtisadi platforma

**2021-ci ilə qədər Türk Şurası adlandırılan Türk Dövlətləri Təşkilatı (TDT) üzv dövlətlərin başçılarının siyasi iradəsi, türk birliyinin formalaşması üzrə verdikləri mühüm qərarlar sayəsində ötən 15 ildə mühüm təşəkkül dövrü keçib, sürətlə təşkilatlanıb. Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası və Türk Biznes Şurası kimi qurumların fəaliyyəti sayəsində üzv ölkələr arasında əlaqələr genişlənib.**

## Türk dünyasının həmrəyliyinə və türk dövlətlərinin siyasi-iqtisadi inteqrasiyasına xidmət edən 10 Zirvə görüşü

Dost və qardaş türk dövlətlərinin dil, tarix və mədəniyyətindən güc alan TDT Avrasiyada sülh, sabitlik və rifaha önəmli töhfələr verərək regionun nüfuzlu təşkilatlarından birinə çevrilmişdir. Bu dövrdə TDT bir çox nüfuzlu təşkilatla əməkdaşlıq qurmuşdur.

Yarandıqdan sonra TDT-nın 10 Zirvə görüşü keçirilmişdir. Birinci Zirvə görüşü "İqtisadi əməkdaşlıq" mövzusu adı altında 20-21 oktyabr 2011-ci ildə Almatı şəhərində baş tutmuşdur. İkinci Zirvə görüşü 22-23 avqust 2012-ci Bişkek şəhərində keçirilmişdir və mövzusu "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq" olmuşdur. Üçüncü Zirvə görüşü 15-16 avqust 2013-cü ildə Azərbaycanın Qəbələ şəhərində keçirilmişdir. Bu dəfə isə mövzu "Nəqliyyat və bağlantı" idi. Dördüncü Zirvə görüşü "Turizm sahəsində əməkdaşlıq" mövzusu adı altında 4-5 iyun 2014-cü ildə Bodrum şəhərində baş tutmuşdur. Beşinci Zirvə görüşü 10-11 sentyabr 2015-ci ildə "Media və informasiya sahəsində əməkdaşlıq" mövzusu adı altında Qazaxıstanın Astana şəhərində, VI Zirvə görüşü 1-3 sentyabr 2018-ci ildə "Gənclik və milli idmanlar" mövzusunda Qırğızıstanın paytaxtı Bişkekdə, VII Zirvə görüşü "Kiçik və orta sahibkarlığın dəstəklənməsi" mövzusunda 2019-cu ildə Bakıda, VIII Zirvə görüşü 15 oktyabr 2021-ci ildə "Rəqəmsal çağda "yaşıl texnalogiyalar" və "ağıllı şəhərlər" mövzusunda İstanbulda, IX Zirvə görüşü isə 2022-ci ilin noyabr ayında Özbəkistanın Səmərqənd şəhərində keçirilmişdir.

2023-cü il noyabrın 3-də isə Qazaxıstanın paytaxtı Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü olmuşdur. Bu Zirvə görüşündəki nitqində Prezident İlham Əliyev türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu bəyan etmişdir: *"Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir".*

Hələlik sonuncu olan Astana görüşündə əldə olunan razılaşmaların türk dövlətlərinin münasibətlərinə yeni töhfələr verəcəyi şübhəsizdir.

Bu zirvə görüşlərinin bəziləri təşkilatın inkişafı və genişlənməsi baxımından xüsusilə əlamətdar olmuşdur. Məsələn, VI Zirvə görüşündən sonra təşkilatın ən mühüm nailiyyətlərindən biri Macarıstanın paytaxtı Budapeşt şəhərində TDT-nin ofisinin açılmasıdır. Budapeştdə ofisin açılması təklifi Macarıstanın Baş naziri Viktor Orban tərəfindən irəli sürülmüşdü. Ofis türkdilli dövlətlərlə Macarıstan, habelə Avropa İttifaqı və qurumun təsisatları arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoymasında əhəmiyyətli rol oynayır, təşkilatın fəaliyyətinə töhfə verir, inkişafına müsbət təsir göstərir.

2019-cu ildə Bakıda keçirilən VII Zirvə görüşü isə təşkilatın yaranmasının 10 illiyinə təsadüf edirdi. 10 illik yubileyin və Bakı görüşünün başqa əsas özəlliyi Özbəkistanın təşkilata tamhüquqlu üzv olması idi. Beləliklə, 2009-cu ildə Naxçıvan sazişi ilə əsası qoyulan və 2019-cu ilə qədər Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin üzv olduğu təşkilata həmin il daha bir türk dövləti - Özbəkistan qoşuldu. Təbii ki, bu ölkənin TDT-də təmsil olunmaq qərarı dərin çoxəsrlik köklərə əsaslanan mədəni və tarixi qardaşlığı müasir dövrün tələblərinə uyğun olaraq türkdilli dövlətlərin xalqlarının rifahı naminə daha da inkişaf etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

## TDT-nin fəaliyyətinin gücləndirilməsinə xidmət edən təşəbbüslər

2009-2019-cu illərdə TDT çoxprofilli beynəlxalq təşkilat kimi formalaşma dövrü keçmişdir. Son illər isə təşkilatın fəaliyyətində qarşılıqlı fəaliyyətin daha keyfiyyətli mərhələsinə və infrastruktur, sərmayələr, qanunvericilik sahələrində, həmçinin iqtisadiyyatın real sektorunda birgə layihələrin həyata keçirilməsini ehtiva edən sıx inteqrasiyaya keçmə mərhələsi olmuşdur. Məhz bu mərhələnin ilk iki ilində - 2019-2021-ci illərdə Azərbaycan quruma sədrlik etmişdir.

Azərbaycanın 2019-2021-ci illərdə TDT-yə sədrliyi dünyada koronavirus pandemiyasının şiddətlə tüğyan etdiyi dövrə təsadüf etdi. Məlum olduğu kimi, pandemiyanın pik dövründə Prezident İlham Əliyev bu bəla ilə mübarizədə qlobal liderlik missiyasını öz üzərinə götürdü. Dövlət başçısı bu vəziyyətin heç kimə xeyir gətirməyəcəyini və koronavirusla mübarizədə qlobal həmrəyliyin vacib olduğunu nəzərə alaraq, dünyanın ayrı-ayrı qitələrindən müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələri bir araya gətirməyə nail oldu.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il aprelin 10-da TDT-nin videokonfrans vasitəsilə "COVID-19 pandemiyası ilə mübarizədə həmrəylik və əməkdaşlıq" mövzusunda fövqəladə Zirvə görüşünün keçirilməsi koronavirusla mübarizədə ilk beynəlxalq tədbir kimi tarixə düşdü. Azərbaycan Prezidenti bu həssas durumda böyük siyasi qətiyyət nümayiş etdirərək Türk Şurasının sədri kimi bu qurumun səmərəli fəaliyyətinə nail oldu, eyni zamanda qardaş və tərəfdaş ölkələrlə həmrəylik nümayiş etdirdi.

Beləliklə, TDT dünya miqyasında ilk beynəlxalq təşkilat oldu ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş tədbir keçirdi. Prezident İlham Əliyev Zirvə görüşündə çıxışında bununla bağlı demişdir: *"Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir. Bu, bizim nümunəvi səviyyədə olan həmrəyliyimizin növbəti bariz təzahürüdür. Bizi birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır.*

*Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır".*

Azərbaycan Prezidenti həmin həssas durumda belə böyük siyasi qətiyyət nümayiş etdirərək TDT-nin sədri kimi bu qurumun səmərəli fəaliyyətinə nail oldu, eyni zamanda qardaş və tərəfdaş ölkələrlə həmrəylik nümayiş etdirdi. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan prezidentləri və Macarıstanın Baş naziri ilə yanaşı, ÜST-ün Baş direktoru Tedros Adhanom Qebreyesusun konfransda iştirakı İlham Əliyevin koronavirusla mübarizə sahəsindəki təşəbbüslərinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin təsdiqi kimi tarixə düşdü. Təsadüfi deyil ki, konfrans iştirakçısı olan bütün dövlət rəhbərləri, o cümlədən ÜST-ün Baş direktoru Prezident İlham Əliyevə təşəkkürlərini ifadə etdilər. Çıxışlarda tədbirin koronavirus pandemiyası ilə mübarizədə türkdilli dövlətlərin həmrəyliyini daha da möhkəmləndirəcəyi birmənalı bəyan olundu.

Fövqəladə Zirvə görüşünün keçirilməsi və səslənən təkliflərin həyata keçirilməsi koronavirus təhlükəsinin səngimədiyi çətin dövrdə türkdilli dövlətlərin üzləşdikləri çətinliklərin aradan qaldırılmasında mühüm rol oynadı. Ən əsası isə odur ki, Azərbaycan Prezidentinin təşəbbüsünün dəstəklənməsi və təqdir olunması türkdilli dövlətlər arasındakı həmrəyliyin möhkəm olduğunu və İlham Əliyevin qeyd etdiyi kimi, onların yalnız xoş günlərdə deyil, çətin günlərdə də bir-birinin yanında olduğunu göstərdi.

Azərbaycanın sədrliyinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, respublikamız türkdilli dövlətlər arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, habelə Türk Şurasının dünyada nüfuzunun daha da artırılması istiqamətində səylər göstərdi. Ümumiyyətlə isə, sürətlə dəyişən dünya nizamı da göstərirdi ki, türk dövlətlərinin bütün məsələlərdə həmrəylik nümayiş etdirməsi həmişə olduğundan daha çox vacibdir. Bunları nəzərə alan Azərbaycan sədrliyi dövründə türk dövlətləri arasında əlaqələrin daha da dərinləşməsi istiqamətində mühüm işlər gördü. Məsələn, 2019-2021-ci illərdə təşkilat çərçivəsində mövcud əməkdaşlıq istiqamətlərinə əlavə olaraq, səhiyyə, miqrasiya, kənd təsərrüfatı, energetika, media, prokurorluq, ədliyyə və humanitar sahələrdə yeni əməkdaşlıq mexanizmləri quruldu.

2021-ci il martın 31-də videokonfrans vasitəsilə TDT-nin qeyri-rəsmi Zirvə görüşü keçirildi və bu, respublikamızın təşkilata sədrliyi dövründə dövlət başçıları səviyyəsində keçirilən sayca ikinci tədbir oldu. Tədbir zamanı Qazaxıstanın Türkistan şəhərinə yeni təsis olunmuş "Mənəvi paytaxt" statusu verildi.

Bu dövrdə təşkilata üzv olan dövlətlərin iqtisadiyyat, səhiyyə, nəqliyyat, xarici işlər nazirlərinin videokonfrans formatında da görüşləri keçirildi. İşğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması layihələrinə Türk Şurasına üzv və müşahidəçi ölkələrdən olan şirkətlər və iş adamları maraq göstərirlər. 2021-ci il sentyabrın 10-da Bakıda "Azərbaycanın işğaldan azad edilmiş Qarabağ regionunun bərpasına və inkişafına həsr olunmuş" biznes-forumun keçirilməsi də marağın nəticəsi idi. Həmçinin Bakıda Türkdilli Dövlətlərin Baş Prokurorlarının 1-ci iclası keçirilib və Türk Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurası təsis olunub.

Göründüyü kimi, Azərbaycanın təşkilata sədrliyi dövründə Türk Şurasının səmərəli, məhsuldar və uğurlu fəaliyyəti təmin olunub, üzv ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində mühüm addımlar atılıb. Ən əsası, Azərbaycanın sədrliyi dövründə görülən işlər təsdiqləyib ki, qloballaşan və dünya nizamının dəyişdiyi indiki dövrdə türk dövlətlərinin həmrəylik nümayiş etdirməsi olduqca vacibdir.

## Azərbaycanın qələbəsi türk dünyasının zəfəridir

Azərbaycanın Türk Şurasına sədrliyi ölkəmiz üçün olduqca tarixi bir dövrə təsadüf etdi. Bu dövrdə Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazandı, ərazi bütövlüyümüz təmin olundu.

Müharibə dövründə Türk Şurası ilk gündən Azərbaycanın haqlı mövqeyini qətiyyətlə müdafiə etdi və əlbəttə ki, bu həm də hər bir türk dövlətinin savaşla bağlı mövqeyinin ifadəsi idi. Vətən müharibəsinin ilk günlərində təşkilatın yaydığı bəyanatda münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında tezliklə həll olunmasının vacibliyi qeyd edildi.

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi Türk Şurasının 2021-ci il martın 31-də videokonfrans formatında keçirilən qeyri-formal Zirvə görüşündə də xüsusi qeyd olundu. Qazaxıstanın keçmiş prezidenti Nursultan Nazarbayevin, Qazaxıstanın Prezidenti Kasım-Jomart Tokayevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, Türk Şurasının keçmiş baş katibi Bağdad Amreyevin təbrikləri göstərdi ki, Azərbaycanın qələbəsini bütün türk dünyası öz zəfəri kimi qəbul edir.

Bütövlükdə Azərbaycanın Vətən müharibəsində qələbəsi bütün türk dünyasının zəfərinə çevrildi. Bu hadisə türk dünyasında birliyin və həmrəyliyin daha da güclənmdirilməsində mühüm rol oynadı. Bu baxımdan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə görüşü Azərbaycanın qələbəsinin türk dövlətləri tərəfindən qeyd olunması baxımından mühüm siyasi hadisə oldu. Bu, Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra keçirilən ilk Zirvə görüşü olduğundan 44 günlük müharibədə qazanılan Zəfər bütün türk dünyasının uğuru kimi, tədbirin yüksək ovqatını müəyyən edən amil kimi özünü göstərdi. "Rəqəmsal dövrdə "yaşıl texnologiyalar" və "ağıllı şəhərlər" mövzusunda görüş həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adı altında keçirilən sonuncu zirvə toplantısı oldu.

İstanbulda mühüm qərarlar qəbul olundu. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu ilə bağlı qərarların qəbul olunması bütövlükdə təşkilatın fəaliyyətini yeni mərhələyə yüksəldən addımlar oldu. Zirvə görüşünün bizim üçün əsas hadisəsi isə Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi oldu.

Prezident İlham Əliyev bu mükafata Azərbaycanın Vətən müharibəsindəki tarixi və möhtəşəm qələbəsinə və türk birliyinin daha da möhkəmləndirilməsindəki səylərinə görə təltif olundu. Vətən savaşındakı qələbə ilə Azərbaycan 30 ilə yaxın işğal altında qalan torpaqlarını azad etdi. Ermənistanın işğal siyasətinə son qoymaqla Azərbaycan BMT-nin kağız üzərində qalan qətnamələrinin icrasını təmin etdi. Bu qələbə regionda yeni siyasi-iqtisadi reallıqlar və yeni əməkdaşlıq imkanları yaratdı.

Türk Dünyasının Ali Ordenini təltif edərkən *"Hörmətli Prezident, Əziz qardaşım, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev"* deyə müraciət edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd etdi ki, dövlətmizin başçısı "qətiyyətli rəhbərliyi ilə Qarabağda təxminən 30 il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoydu: "Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır". Türkiyə Prezidenti xüsusi vurğuladı ki, Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmiş, Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəfərin müjdəçisi olmuşdur.

Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif olunması dövlətimizin başçısının şəxsiyyətinə göstərilən böyük ehtiramın nümunəsidir. Bu mükafat Azərbaycan Prezidentinin dünyadakı yüksək nüfuzunun təcəssümüdür. Türk Dünyasının Ali Ordeninə görə dərin təşəkkürünü bildirən Prezident İlham Əliyev bunun bütün Azərbaycan xalqına verilmiş mükafat olduğunu bildirmişdir: *"Bu, mənim üçün böyük şərəfdir, eyni zamanda böyük məsuliyyətdir. Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər. Onların imzası ilə və əziz Qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir. Qeyd edilir ki, bu, Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir. Buna görə də mən bütün Azərbaycan xalqı adından çox dərin təşəkkürümü bildirirəm. Çünki mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır".*

Ümumiyyətlə, TDT hər zaman Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir. Təşkilatın katibliyi 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri və 27 sentyabrdan başlayaraq Ermənistan tərəfindən həyata keçirilən təxribatlarla bağlı mütəmadi olaraq bəyanatlar vermiş, təşkilatından keçmiş baş katibi Bağdad Amreyev 2020-ci il 20 oktyabr tarixdə Gəncə şəhərini ziyarət etmiş, Ermənistan tərəfindən Gəncənin raket atəşinə tutulması ilə bağlı türk dünyası adından həmrəyliyi nümayiş etdirən bəyanatla çıxış etmişdir.

Azərbaycanın zəfərinin türk dünyasının qələbəsi olması 2022-ci ilin noyabr ayında keçirilən IX Səmərqənd Zirvə görüşündə də bəyan olundu. Məsələn, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın yanında olduqlarını bir daha bəyan etdi: *"Cənubi Qafqazda sülh prosesi can Azərbaycanın bütün səylərinə baxmayaraq, hələ də kövrək olaraq qalır. Noyabrın 8-də qeyd etdiyimiz şanlı Qarabağ Zəfərinin ikinci ildönümündə əziz şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram. İlham qardaşımızın şəxsində Azərbaycan xalqını bir daha təbrik edirəm. Haqlı mübarizəsində olduğu kimi, sülh axtarışında da Azərbaycanın yanındayıq".*

Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi də Azərbaycanın zəfərinin bütün Türk dünyasının böyük uğuru kimi qarşılanmasının təcəssümü idi. Eyni zamanda Şuşanın 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi şəhərin türk dünyası üçün böyük mədəni əhəmiyyətə malik olduğunun göstəricisi oldu.

Memarlıq və şəhərsalma sənətinin 272 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verdi. Ötən il bu istiqamətdə ölkədə çoxsaylı tədbirlər təşkil olundu ki, bunlar həm Şuşanın, həm bütövlükdə Azərbaycan mədəniyyətinin zəngin irsinin, eyni zamanda türk dünyasının mədəniyyətinin təqdim edilməsində əvəzsiz rol oynadı.

Türk dünyasının birliyinin möhkəmlənməsi işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində də görünür. Belə ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "türk dövlətlərinin rəhbərlərinin azad edilmiş torpaqlara səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür".

## Şuşada imzalanan Qarabağ Bəyannaməsi türk dövlətlərinin həmrəyliyinin növbəti təntənəsi oldu

TDT-nin indiyədək 4 qeyri-rəsmi Zirvə görüşü keçirilib. COVID-19 pandemiyası ilə mübarizəyə həsr olunmuş fövqəladə Zirvə görüşü və 2021-ci il martın 31-də keçirilən qeyri-rəsmi Zirvə görüşü barədə bəhs etdik. Daha sonra 2023-cü il martın 16-da Ankarada, 2024-cü il iyulun 5-6-da Şuşada qeyri-rəsmi zirvə görüşləri keçirildi. Ankarada keçirilən Zirvə görüşü Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra qardaş dövlətə dəstək məqsədi daşıyıb. Türk dövlətlərinin rəhbərləri Ankarada bir araya gələrək Türkiyənin yanında olduqlarını bir daha göstərdilər. İmzalanan Ankara Bəyannaməsində də türk dövlətlərinin Türkiyənin dərdinə şərik olduğu vurğulandı, təbii fəlakətlərin idarə olunması sahəsində əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd edildi. Bu qeyri-rəsmi Zirvə görüşünün digər mühüm cəhəti iclasda müşahidəçi üzv olan Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikasının üzv dövlətlərlə yanaşı, ən yüksək səviyyədə təmsil olunması idi. Bütün bunlardan belə anlaşıldı ki, tərəfsizliyini qoruyan Türkmənistan türk dövlətləri ilə əməkdaşlığını getdikcə artıracaq və ona üzv olan dövlətlər Kiprlə yaxınlaşmağa davam edəcək.

Üzv dövlətlər Azərbaycanın Tehrandakı səfirliyinə hücumu və Avropa ölkələrində "Qurani-Kərim"ə qarşı edilən təhqirləri də pislədilər. Bu Zirvə görüşü bir daha göstərdi ki, üzv ölkələr regional və qlobal problemlərə və hadisələrə qarşı birgə hərəkət edir və həmfikirdirlər.

2024-cü il iyulun 5-6-da Şuşa şəhərində TDT-nin növbəti qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi bir daha dünyaya "Qarabağ Azərbaycandır!" reallığının bəyan edilməsi idi. Bu Zirvə görüşü həm beynəlxalq aləmə, həm də Ermənistanın havadarlarına ciddi mesaj oldu. Çünki bu tədbir dünya ictimaiyyətinin diqqətini yenidən Şuşaya, Qarabağa yönəltdi.

Prezident İlham Əliyev də 2024-cü il iyunun 6-da TÜRKPA nümayəndələri ilə görüşündə bildirmişdi ki, onun təşəbbüsü ilə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Dövlət başçısı xüsusi vurğulayıb ki, ildə bir dəfə Zirvə görüşünün keçirilməsi kifayət etmir. Eyni mövqeni Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da səsləndirib: *"Türk Dövlətləri Təşkilatındakı birliyimizin daha da güclənməsi üçün fəaliyyətimizi davam etdiririk. Təşkilatımızın növbədənkənar Zirvə toplantısının iyul ayında türk dünyasının mədəniyyət paytaxtlarından olan Şuşada keçirilməsindən məmnunluq hissi keçirdiyimi xüsusi qeyd etmək istəyirəm".*

Beləliklə, 2024-cü il iyulun 5-6-da türk dünyasının diqqəti Şuşada oldu. Regional və beynəlxalq güc mərkəzinə çevrilən TDT-yə daxil olan ölkələrin liderlərinin iştirakı ilə şəhərdə qeyri-formal Zirvə görüşü keçirildi. Azərbaycan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan prezidentləri - İlham Əliyev, Şavkat Mirziyoyev, Sadır Japarov, Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Şuşaya səfər etdilər.

Zirvə görüşü mühüm qərarların qəbulu ilə başa çatdı və tarixi sammit kimi bütün türk dünyasının tarixinə düşəcəyi şəksizdir. Həm də ona görə tarixidir ki, azad olunmuş ərazilərdə keçirilən ilk ən yüksək beynəlxalq səviyyəli tədbirdir.

TDT-yə üzv ölkələrin liderləri türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərə söykənən ailə olduğunu hesab edərək, bəşəriyyət tarixində türk xalqlarının siyasi, iqtisadi və bəşəri nailiyyətlərinə əsaslanaraq, Qarabağ Bəyannaməsini imzaladılar. Bu sənəd türk xalqlarının qitə miqyasında töhfələrini, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarixboyu oynadığı rolunun ən yüksək dəyərini özündə əks etdirir.

Şuşa müqəddəs şəhər kimi tarixi zəfərimizin parlaq rəmzidir. Bu şəhər təkcə Azərbaycan xalqının deyil, bütün türk xalqlarının qəlbində xüsusi ehtiram və qürur, iftixar duyğularını oyadır. Şuşa görüşündən ortaya çıxan mühüm mesaj da odur ki, birgə səylərlə bütün Qarabağ türk dünyasının əbədi dostluğunun həqiqi rəmzinə çevrilib. Bu baxımdan qeyri-rəsmi Zirvə görüşü türk dünyasının mənəvi bağlantısı istiqamətində mühüm hadisə kimi tarixə düşüb. İmzalanan Qarabağ Bəyannaməsi, qəbul edilən qərarlar isə türk dünyasının həmrəyliyini və eyni zamanda TDT-nin beynəlxalq nüfuzunu daha da gücləndirib.

*(ardı var)*

**Ziyad SƏMƏDZADƏ,**
***Milli Məclisin deputatı, akademik***




# "COP29 çərçivəsində kənd təsərrüfatı və su resurslarının idarə edilməsində davamlılıq və yenilikçilik" beynəlxalq simpoziumu keçirilib

**ADA Universitetində Azərbaycanda kənd təsərrüfatı və su hövzələrinin idarə edilməsinə dair "COP29 çərçivəsində kənd təsərrüfatı və su resurslarının idarə edilməsində davamlılıq və yenilikçilik" mövzusunda beynəlxalq simpozium keçirilib.**



AZƏRTAC xəbər verir ki, simpoziumda Macarıstanın, İtaliyanın və Qazaxıstanın ölkəmizdəki səfirləri, alimlər, yerli və xarici mütəxəssislər iştirak ediblər.

Tədbiri ADA Universitetinin akademik işlər üzrə prorektoru Elkin Nurməmmədov açaraq, mövzunun əhəmiyyətindən danışaraq bildirib ki, simpoziumda iqlim dəyişikliyinin kənd təəsərrüfatına, enerji sektoruna, su hövzələrinə təsiri və bu təsirlərin azaldılması məsələləri müzakirə ediləcək.

Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma çıxış edərək bildirib ki, bu gün dünyada sənayenin inkişafı qlobal səviyyədə iqlim dəyişikliyinə səbəb olur: "İqlim dəyişikliyi kənd təsərrüfatına və su hövzələrinə mənfi təsir göstərir ki, bunların da qarşısı əməkdaşlıqla alına bilər".

Macarıstan nümayəndə heyətinin COP29-da iştirak edəcəyini bildirən səfir iqlim dəyişikliyi ilə əlaqədar Azərbaycanın təşəbbüslərinin dəstəkləndiyini bildirib.

Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov simpoziumda çıxış edərək iqlim dəyişikliyi ilə əlaqədar ölkəmizdə həyata keçirilən tədbirlərdən, alternativ enerjiyə keçiddən danışıb. Nəzərə çatdırılıb ki, Azərbaycanın alternativ enerji istehsalı üçün böyük potensialı var: "Azərbaycanda külək və günəş enerjisindən böyük həcmdə elektrik enerjisi əldə etmək mümkündür və bu istiqamətdə işlər davam edir. COP29-un gələn ay Bakıda keçirilməsi də təsadüfi xarakter daşımır. Azərbaycan hökuməti qlobal problemlərə, o cümlədən iqlim dəyişikliyinə ciddi diqqət yetirir".

İtaliyanın Azərbaycandakı səfiri Luka di Canfrançesko çıxış edərək bildirib ki, Azərbaycan ilə İtaliya arasında bütün sahələrdə olduğu kimi, iqlim dəyişiliyi məsələsində də əməkdaşlıq əlaqələri var və bu əlaqələrin genişləndirilməsi zəruridir. Səfirin sözlərinə görə, iqlim dəyişikliyi qlobal xarakter daşıyır və bütün dövlətlər atmosferə atılan karbonun azalması istiqamətində birgə fəaliyyət göstərməlidirlər: "Bu günə kimi Azərbaycan bir çox irimiqyaslı beynəlxalq tədbirə uğurla evsahibliyi edib və COP29-u da uğurla təşkil edəcək".

Səfir COP29-da qəbul edilən qərarların dünya dövlətləri tərəfindən səmərəli formada həyata keçiriləcəyinə əmin olduğunu bildirib.

Qazaxıstanın Azərbaycandakı səfiri Alim Bayel simpoziumda bildirib ki, Qazaxıstan 2030-cu ilə kimi atmosferə atılan karbon qazını 15 faiz azaltmağı planlaşdırıb: "Bu istiqamətdə Qazaxıstanın müvafiq strukturları yol xəritəsi hazırlayırlar. Qazxıstanın alternativ enerji əldə etmək üçün böyük potensialı var və bundan artıq istifadə olunur. Alternativ enerji istehsalının artırılması üçün xarici mütəxəssislər və investorlar dəvət edilir".

Digər çıxış edənlər müasir dünyada karbonsuzlaşmanın zəruri olduğunu, atmosferə atılan zərərli qazların azaldılması istiqamətində əməkdaşlığın əhəmiyyətli olduğunu qeyd ediblər. Nəzərə çatdırılıb ki, Azərbaycan su ehtiyatları qıtlığından əziyyət çəkən, eləcə də iqtisadiyyatının əhəmiyyətli bir hissəsi kənd təsərrüfatı sahəsində formalaşan ölkə olaraq, iqlim dəyişikliyi mövzusunda beynəlxalq əməkdaşlığı təşviq etməyə davam edir.

Daha sonra alimlər, mütəxəssislər su resurslarının mühafizəsi və iqlim dəyişikliyi ilə əlaqədar məruzələr söyləyib, slaydlar nümayiş etdirib, görülməsi zəruri olan tədbirlər barədə müzakirələr aparıblar.

# İqlim dəyişmələri kontekstində dünyada insan hüquqlarının müdafiəsi Azərbaycan üçün prioritetdir

***"Müasir dünyada ən aktual qlobal çağırışlardan biri olan iqlim dəyişikliyi təkcə ekoloji problemlərə səbəb olmur, həm də insan hüquqlarına ciddi təhlükə yaradır. Yer kürəsinin iqlimi dəyişdikcə təsirlər müxtəlif regionlar arasında qeyri-mütənasib şəkildə hiss edilir, həyat, sağlamlıq, qida, su, mənzil təminatı və digər bir sıra fundamental insan hüquqlarını pozur. Bu mənada iqlim dəyişikliyinin fəsadlarının qarşısının alınması, aradan qaldırılması insan hüquqlarının təminatı baxımından da müstəsna önəm kəsb edir".***



AZƏRTAC xəbər verir ki, bu fikirlər Media Təhlil Mərkəzinin Analitik Qrupunun iqlim dəyişmələri kontekstində dünyada insan hüquqlarının müdafiəsi ilə bağlı məqaləsində yer alıb.

Məqalədə bildirilir ki, günümüzdə iqlimlə bağlı baş verənlər hətta yaşamaq hüququnu da müxtəlif yollarla təhdid edir. Qlobal temperaturun, ekstremal hava hadisələrinin tezliyinin artması və dəniz səviyyəsinin qalxması qasırğa, daşqın və meşə yanğınları kimi daha çox təbii fəlakətlərə səbəb olur. Bu hadisələr demək olar ki, indi hər il milyonlarla insana təsir edən həyat itkisinə və miqrasiyaya səbəb olur. Bəzi ada dövlətləri dəniz səviyyəsinin yüksəlməsi səbəbindən ekzistensial təhlükələrlə üzləşirlər. Onların bir çox vətəndaşı artıq "iqlim miqrasiyası"nı yaşamalı olub. Təəssüf ki, qaçqınlarla bağlı mövcud beynəlxalq qanunlar "iqlim miqrasiyası"nı yaşayanları əhatə etmir. Bu da milyonlarla insanı lazımi hüquqi müdafiədən məhrum edir. Bununla bərabər, iqlim dəyişikliyi insanların, xüsusilə uşaqlar, qocalar və yoxsulluq şəraitində yaşayanlar kimi ən həssas əhali qruplarının sağlamlıq hüququnu təhdid edir. Eyni zamanda iqlim dəyişikliyi həm də insanların yaşaması üçün iki əsas ehtiyac olan qida və su hüququna birbaşa təhlükə yaradır. Qlobal temperatur yüksəldikcə kənd təsərrüfatı məhsuldarlığı azalır. Uzun sürən quraqlıqlar, daşqınlar və dəyişkən xarakter alan yağıntılar dünyanın müxtəlif yerlərində məhsul çatışmazlığına səbəb olur. Hazırda dünyada bir çox region uzun sürən quraqlıq və buzlaqların azalması səbəbindən şirin su ehtiyatlarının azalması ilə üzləşir.

Həmçinin qeyd olunur ki, iqlim dəyişikliyi nəticəsində mənzil hüququ müxtəlif formada pozulur. Təbii fəlakətlər və ekstremal hava hadisələri evləri dağıdır və böyük köçlərə gətirib çıxarır. İqlimlə bağlı hadisələr səbəbindən evlərini və dolanışıq vasitələrini itirən insanlar köç etdikləri yeni yerlərdə bəzən ayrı-seçkiliklə, yoxsulluqla, mənzil təminatı problemləri ilə üzləşirlər. Bütün qeyd olunanlar kontekstində iqlim dəyişikliyinə insan hüquqları obyektivi ilə yanaşmaq zəruridir.

"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi etməyə hazırlaşan Azərbaycan bu məqama da xüsusi diqqət edərək, onu beynəlxalq səviyyədə gündəmə gətirir. "İqlim dəyişikliyi və insan hüquqları: ombudsman və milli insan hüquqları institutlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Bakı Forumu da buna xidmət edən daha bir mühüm hadisədir. Forumda aparılan müzakirələr bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edir. Prezident İlham Əliyev Beynəlxalq Bakı Forumunun iştirakçılarına müraciətində iqlim dəyişmələrinin yalnız dövlətlərin sosial-iqtisadi rifahına deyil, sadə insanların gündəlik həyatlarına və yaşam tərzlərinə də birbaşa və ya dolayı yolla təsir göstərdiyini qeyd edərək, bunun əsas insan hüquqlarının müdafiəsi və təminatı baxımından bir sıra ciddi çətinliklər yaratdığını vurğulayır. Dövlət başçısı forumun iqlim dəyişmələrinin yaratdığı problemlər və onların həlli yollarının insan hüquqları perspektivindən müzakirə edilməsi, bu sahədə mövcud müsbət təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyətə malik olduğuna diqqəti cəlb edir. Bu və digər tədbirlərin təşkilində Azərbaycanın əsas məqsədi iqlim dəyişmələri kontekstində insan hüquqlarının müdafiəsi sahəsində yeni təşəbbüslərin və yanaşmaların irəli sürülməsinə, bu hüquqların təminatına ciddi maneə yaradan hallarla mübarizə istiqamətində ümumi səylərin birləşdirilməsinə nail olmaqdır. Bu kimi məsələlərin COP29 zamanı da əsas diqqət mərkəzində yer alacağı gözlənilir", - deyə məqalədə qeyd olunur.

Yazıda qeyd edilir ki, Azərbaycan iqlim ədaləti konsepsiyasının tətbiqində maraqlı ölkədir. Çünki bu, iqlim dəyişikliyi nəticəsində hüquqları pozulan şəxslərin hüquqlarının bərpa olunmasına və digər pozuntuların aradan qaldırılmasına xidmət edir. Eyni zamanda Azərbaycanın yanaşması iqlim siyasətinin əhatəli olmasını təmin etməyə və bütün insanların, xüsusən də həssas qrupların hüquqlarını qorumağa, bunun üçün müvafiq fəaliyyət göstərilməsinə hesablanıb.

# *Rza DEQQƏTİ:* "Sərgi vasitəsilə COP29-un Azərbaycanda keçirilməsi qərarının təsadüfi olmadığını göstərməyə çalışmışam"

**Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində məşhur fotoqraf Rza Deqqətinin "Caspian Dreams" sərgisi nümayiş etdirilib.**

Rza Deqqəti AZƏRTAC-a bildirib ki, müasir dövrdə insanlar məlumatları şəkillər, görüntülər vasitəsilə ötürməyə və öyrənməyə üstünlük verirlər: "Hazırkı dövrdə tarixi hadisələr şəkillərlə, görüntülərlə yaddaşa yazılır, onun vasitəsilə dünyanın dörd bir yanına yayılır. Mən də Azərbaycanın son 30 ildə keçdiyi inkişaf yolunu dünyaya göstərmək niyyətində idim. Müasir dövrün nəbzini tutaraq Bakı üzərindən bunu etmək qərarına gəldim. Bakının hazırda ən görməli yerlərinin 30 il əvvəlki vəziyyəti ilə indiki halı müqayisəli formada şəkillərdə əks olunub. Kiçik bir nümunə böyük dəyişikliklərin hansı formada olduğunu göstərməyə yetərli oldu. Bundan əlavə, COP29-un Azərbaycanda keçirilmə qərarının təsadüfi olmadığını da göstərməyə çalışmışam. Çünki çəkilən şəkillərdə son 30 ildə həm şəhərin ildənilə gözəlləşməsi, həm də ətraf mühitinin sağlamlaşdırılması və təbiətin mühafizəsi istiqamətində görülən işləri aydın görmək mümkündür. Sanki COP29-a illər əvvəldən hazırlıq başlayıb. Yəni illərdir qlobal iqlim dəyişikliyi ilə mübarizə aparılır, ətraf mühitin mühafizəsi sahəsində tədbirlər görülür".

## Bakı COP29-a hazırlaşır













# Paytaxtın quruculuq mənzərələri

**Getdiyimiz, gördüyümüz şəhərlər həmişə tarixi yerləri, körpüləri, yaşıllığı, abadlığı, bir sözlə, bənzərsiz gözəlliyi ilə yaddaşımızda qalır. Bu da təbiidir. Çünki insan həmişə gözəlliyə can atır, onun vurğunu olur, onu vəsf edir. Bir də ki, səliqə-sahman, abadlıq həmişə könül açır, göz oxşayır. Gözoxşayan gözəlliklər isə insanların ovqatına ovqat qatır, yaşamaq həvəsini artırır.**

Bu gün ölkəmizin paytaxtı Bakı şəhərində aparılan abadlıq işləri hamımızı sevindirir. Meydanlar, küçə və prospektlər, hətta məhəllələr belə gündən-günə gözəlləşir. Belə şəhərdə yaşamaq və işləmək isə insanda xoş ovqat yaradır.

Azərbaycan cari ilin noyabr ayında COP29-a evsahibliyi edəcək. Həmin günlər şəhərimiz qonaqlı-qaralı olacaq. Ölkəmizin paytaxtına demək olar ki, dünyanın hər yerindən nümayəndələr gələcək. Qonaqlar istirahət vaxtlarında şəhərimizin tarixi yerlərini, meydanlarını, küçə və prospektlərini gəzəcəklər. Deməli, şəhərimizi elə abadlaşdırmalıyıq ki, Bakı gələn qonaqların yaddaşında dünyanın ən gözəl, insanları valeh edən məkanlarından biri kimi qalsın. Məhz buna görə də indi şəhərimizin demək olar ki, bütün guşələrində geniş abadlıq işləri aparılır.

Paytaxtımızın sakinləri aparılan bu abadlıq, təmir və bərpa işlərinin hər gün şahidi olurlar. Abadlaşan binalar, parklar, meydanlar, tarixi məkanlar, küçələr sanki əyinlərinə yeni don geyinirlər. Daha möhtəşəm, bənzərsiz görkəmdə görünürlər. Bu gözəllik isə hər birimizi sevindirir və zövqümüzü oxşayır. Çünki insan yaranandan gözəllik aşiqi olub. Buna görə də həmişə səfalı, səliqə-sahmanlı yerlərdə məskən salıb.

Sevindirici odur ki, abadlıq və quruculuq işləri təkcə böyük meydan, park və prospektlərdə deyil, hər yerdə - dayanacaqlarda, yeraltı keçidlərdə, səkilərdə, binaların fasad və eyvanlarında, bir sözlə, hər addımda aparılır. Belə hərtərəfli quruculuq və bərpa işləri hamıda heyranlıq yaradır. Görülən hər kiçik iş, yerə döşənən hər kiçik daş, silinən və rənglənən hər metr divar təmizliyə və gözəlliyə xidmət edir.

Təmizlik, abadlıq işləri daim insanlara başucalığı gətirib. Ona görə də bu vacib tədbirlər həmişə ölkəmizdə diqqətdə saxlanılıb, heç vaxt unudulmayıb. Abadlıq işləri başa çatandan sonra təbiidir ki, şəhərimiz daha cəlbedici, daha möhtəşəm olacaq və noyabr ayında ölkəmizə gələcək COP29-un iştirakçılarının zövqünü oxşayacaq.

Quruculuq, abadlıq işlərinin daha rəvan getməsi üçün ən bacarıqlı, ən peşəkar mütəxəssislər cəlb olunub. Təbiidir ki, bu amil işlərin yüksək keyfiyyətlə aparılmasına müsbət təsir göstərəcək. Bu isə son nəticədə görənlərin zövqlərini oxşayacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***





# Beynəlxalq konfransın iştirakçıları Ağdərədə aşkarlanmış kütləvi məzarlığa baxış keçiriblər

**"İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi" mövzusundakı beynəlxalq konfransın iştirakçıları Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri ilə birgə Ağdərə rayonunun Sırxavənd kəndində aşkarlanmış kütləvi məzarlığa baxış keçiriblər.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, kütləvi məzarlıqda Birinci Qarabağ müharibəsində itkin düşmüş 15-ə yaxın şəxsə aid meyit qalıqları aşkar edilib.

Qonaqlara məlumat verilib ki, bir ay ərzində burada 6 nöqtədə qazıntı işləri aparılıb və insan sümüklərinin qalıqları aşkarlanıb. Ərazidə digər insan qalıqlarının olması da ehtimal edilir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupunun üzvü Zaur İsmayılov jurnalistlərə açıqlamasında deyib: "Birinci Qarabağ müharibəsi dövründə Ağdərə rayonu ərazisində qızğın döyüşlər gedib. Həmin döyüşlərdə xeyli hərbçimiz həlak olub. Həlak olan hərbçilərin əksəriyyətinin cəsədlərini döyüş meydanından çıxarmaq mümkün olmayıb. Onlar itkin kimi Dövlət Komissiyasında qeydiyyata alınıb. Şahidlərin ifadələrinə əsasən, burada içərisində beş hərbçi və bir tibb bacısının olduğu hərbi yük avtomobili vurulub. Həmin yerdə də bu qalıqlar aşkarlanıb. Ehtimal olunur ki, qalıqlar həmin adamlara məxsusdur. Burada hərbi avtomobilin qalıqları da aşkarlanıb. Bu ərazidə ümumilikdə 4 kütləvi və 2 fərdi məzarlıq aşkar edilib".

Qonaqlar həmçinin ərazidən tapılan minaların partlayış yolu ilə zərərsizləşdirilməsi prosesini izləyiblər.

Qeyd edək ki, oktyabrın 2-də Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının və Beynəlxalq Qızıl Xaç Komitəsinin birgə təşkilatçılığı ilə "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi" mövzusunda növbəti beynəlxalq konfrans təşkil olunub.

# Beynəlxalq konfransın iştirakçıları Şuşa həbsxanasında ötən il aşkarlanan kütləvi məzarlıqda olublar



**"İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi" mövzusundakı beynəlxalq konfransın iştirakçıları Şuşa həbsxanası ərazisində ötən il aşkarlanan kütləvi məzarlığa baxış keçiriblər.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri olan xarici ölkələrin sabiq hökumət başçıları, Azərbaycanda akkreditasiya olunmuş diplomatik korpus nümayəndələri və hərbi attaşelər, Beynəlxalq Qızıl Xaç Komitəsinin rəhbər şəxsləri, itkin düşmüş şəxslər üzrə beynəlxalq təsisatların nümayəndələri və ekspertləri, xarici ölkələrin müvafiq sahədə fəaliyyət göstərən qurumlarının rəhbərlərinə və əməkdaşlarına Şuşa həbsxanası, burada ötən il aşkar edilən kütləvi məzarlıq barədə məlumat verilib.

Bildirilib ki, Şuşa həbsxanası 1848-ci ildə çar Rusiyası dövründə tikilib və burada ağır cinayətlər törətmiş insanlar saxlanılıblar. Birinci Qarabağ müharibəsi dövründə burada azərbaycanlı əsir və girovlar çox ağır şəraitdə saxlanılıb. Dövlət Komissiyasında olan məlumata görə, 360 nəfər əsir və girov götürülmüş şəxslər burada saxlanılıb. Onlardan 216 nəfəri komissiyanın səyləri nəticəsində azad olunub. 144 nəfəri isə Dövlət Komissiyası tərəfindən bu günə qədər axtarışdadır. Bildirilib ki, saxlanılan əsir və girovlara çox dəhşətli şəkildə işgəncələr verilib. Burada ölən, öldürülən əsir və girovlar ərazidə dəfn ediliblər. Onlar həbsxana ətrafında yerləşən qəbiristanlıqda əsirlərin köməkliyi ilə dəfn olunublar.

Diqqətə çatdırılıb ki, keçən il iyun ayında bu ərazidə qazıntı aparılarkən insan qalıqları aşkar edilib. Dərhal əraziyə ekspedisiya heyəti cəlb olunub. Arxeoloqlar, antropoloqlar, eyni zamanda məhkəmə tibbi ekspertləri əraziyə cəlb ediliblər. Burada üç mərhələdə qazıntı işləri aparılıb, ərazidə 31 nəfər insan qalığı aşkarlanıb. Həmin insanlar qeyri-ənənəvi, işgəncə verilmiş halda və müxtəlif formalarda basdırılıblar. Bir-birinin üzərində tapılmış qalıqlarda zədə izləri olub. Toplanmış materiallar təsdiq edir ki, buradakı insanlara çoxsaylı işgəncələr verilib və onlarla qeyri-insani rəftar edilib.

Qeyd edək ki, oktyabrın 2-də Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının və Beynəlxalq Qızıl Xaç Komitəsinin birgə təşkilatçılığı ilə "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi" mövzusunda növbəti beynəlxalq konfrans təşkil olunub.

# Ombudsmanların Beynəlxalq Bakı Forumunun iştirakçıları Ağdama səfər ediblər





**Ombudsmanların Beynəlxalq Bakı Forumunun iştirakçıları Ermənistan hərbi qüvvələrinin otuz ilə yaxın işğal dövründə dağıtdığı dini, mədəni və tarixi abidələrə yerində baxıblar.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, forum iştirakçıları rayonun Sarıcalı kəndi ərazisində minatəmizləmə prosesini izləyib, şəhərin mərkəzi küçəsində ermənilərin yerlə yeksan etdikləri binaların qalıqlarına baxıblar. Səfər iştirakçıları həmçinin Ağdam Cümə məscidində, İmarət kompleksində Azərbaycan dövləti tərəfindən həyata keçirilmiş təmir-bərpa işləri ilə tanış olub, yeni yaşayış məhəllələri, həyata keçirilən tikinti-quruculuq işləri barədə məlumatlandırılıblar.

* * *

Ombudsmanların Beynəlxalq Bakı Forumunun iştirakçıları Ağdam rayonunun Sarıcalı kəndində minaların zərərsizləşdirilməsi prosesini izləyiblər.

AZƏRTAC xəbər verir ki, səfər iştirakçılarına işğaldan azad edilmiş ərazilərdə ANAMA tərəfindən aparılan minatəmizləmə işləri barədə məlumat verilib.

Bildirilib ki, Azərbaycan 30 ilə yaxın davam edən münaqişə və torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində ərazilərinin minalarla çirklənməsi problemindən əziyyət çəkir və dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır. Ölkə ərazisinin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib. Otuz ilə yaxın işğal müddətində qadınlar və uşaqlar da daxil olmaqla, yüzlərlə şəxs mina qurbanına çevrilib. Basdırılmış minalar regionda həyata keçirilən tikinti və bərpa prosesinə, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışına maneə yaradır.

Sonra qonaqlar minaların zərərsizləşdirilməsi prosesini izləyiblər.

# Litvanın xarici işlər nazirinin Azərbaycana qarşı səsləndirdiyi fikirlər qəbuledilməzdir

**Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsberqisin Avropa Şurası Parlament Assambleyasının (AŞPA) oktyabrın 2-də keçirilən iclası zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlər tamamilə əsassız və qəbuledilməzdir.**

AZƏRTAC xəbər verir ki, bu, Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Litvanın xarici işlər nazirinin səsləndirdiyi fikirlərə dair şərhində yer alıb.

"Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın dalana dirəndiyini qeyd edən, Avropa Şurası Parlament Assambleyası ilə dialoqa, açıq məsələləri həll etməyə çağıran Litva xarici işlər nazirinə xatırlatmaq istərdik ki, dialoqu dayandıran və bundan imtina edən Azərbaycan deyil, məhz AŞPA-da Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin dayandırılması barədə ədalətsiz və hüquqi cəhətdən suallar doğuran təşəbbüsü dəstəkləyən 76 nəfər parlament üzvü olub. Avropa Şurası nizamnaməsinin pozulması, AŞPA tərəfindən səlahiyyətlərin aşılması nəticəsində baş vermiş məlum addımdan sonra da Azərbaycan tərəfi müxtəlif kanallarla dialoqa açıqlığını, vəziyyətin həllində səmimi şəkildə maraqlı olduğunu nümayiş etdirib. Görünən odur ki, Avropa Şurası Nazirlər Komitəsində sədr olan Litva tərəfi Azərbaycanın AŞPA-da hüquqlarının əlindən alınmasından qətiyyən narahat deyil", - deyə Ayxan Hacızadə bildirib.

O qeyd edib ki, AŞPA daxilində Azərbaycana qarşı son illər, xüsusilə də ərazilərimizin Ermənistanın işğalından azad edilməsindən sonra qərəzli yanaşmalar, ölkəmizin beynəlxalq hüquqa və ədalətə söykənən mövqeyinə kölgə salınmağa yönəlmiş cəhddir. AŞPA-da təmsilçilik Azərbaycanın haqqıdır və bu haqqın qeyd-şərt olmadan təmin edilməsi zəruridir.

"Azərbaycan nümayəndə heyətinin səlahiyyətləri barədə məsələyə səs verdiklərinə görə Avropa Şurası Parlament Assambleyası deputatlarının Azərbaycana girişinə qoyulan qadağa ilə bağlı fikirlərə gəldikdə qeyd edək ki, bu qərar Azərbaycan Respublikasının qanunvericiliyi əsasında suveren hüququmuz çərçivəsində atılıb və bu tədbir bir çox ölkələrin, o cümlədən Avropa Şurası üzv dövlətlərinin mövcud təcrübəsinə uyğundur. Azərbaycan nümayəndələrini AŞPA-da görmək istəməyən parlament üzvlərini Azərbaycanda görmək kimi bir niyyətimiz və öhdəliyimiz yoxdur. Nazir Landsberqisin AŞPA-nın tribunasından istifadə edərək Azərbaycanda insan hüquqları ilə bağlı səsləndirdiyi əsassız fikirləri də qətiyyətlə qınayırıq. Azərbaycanda milli qanunvericiliyə və Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olaraq bütün əsas hüquq və azadlıqlara tam hörmət edilir. Əsaslı sübutlar əsasında başlanmış və qanunvericiliyin tələblərinə uyğun olaraq aparılan təhqiqatları "ifadə azadlığını məhdudlaşdıran sanksiyalar" kimi qələmə vermək tamamilə yanlışdır.

Azərbaycanın Qarabağ bölgəsindən könüllü şəkildə Ermənistana köçmüş ermənilərin hüquqlarının Avropa İnsan Hüquqları Konvensiyası çərçivəsində qorunduğuna, onların geri qayıdış hüquqlarına hörmət edilməsinin vacib olduğuna istinad edən Litva naziri nədənsə Ermənistan ərazisindən qovulmuş 300 mindən çox azərbaycanlının hüquqları barədə danışmır.

Bu kimi qərəzli mövqedən çıxış etmək əvəzinə, Litva nazirinin öz fəaliyyətinə diqqət yetirməsi, həmçinin Azərbaycanla dialoq və əməkdaşlığın bərpası üçün zəruri addımlar atmağa AŞPA-ya çağırış etməsi daha yaxşı olardı", - deyə Azərbaycan XİN rəsmisi vurğulayıb.

# Qərbi Azərbaycan İcması bəyanat yayıb

Qərbi Azərbaycan İcması bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir:

"Litvanın xarici işlər naziri Qabrieulius Landsberqis Avropa Şurasının Parlament Assambleyasında bir sıra anti-Azərbaycan fikirlər səsləndirmişdir.

Litvanın xüsusən Vətən müharibəsindən sonra sistemli xarakter almış anti-Azərbaycan fəaliyyəti ikrah doğurur. "Lazım bildiyim anda Azərbaycanda sui-istifadə halları ilə bağlı açıqlamalar verəcəm" kimi şit və təkəbbürlü bəyanatlarla Litva naziri özünü və ölkəsini gülünc vəziyyətə salır. Təəssüf ki, bu gün Qərbdə azərbaycanofobiya mərəzinə yoluxmuş, danışdığı sözün mahiyyətini dərk etməyən, iddiası ilə imkanları tərs mütənasib olan, dövlətçilik təfəkküründən uzaq çoxlu sayda qeyri-ciddi, diletant siyasətçi var.

Öz ərazisində milli azlıqların hüquqlarını kütləvi və sistemli şəkildə pozan, vətəndaşsızlıq hallarına səbəb olan Litva Azərbaycana insan hüquqları mövzusunda nəyisə öyrətmək haqqına sahib deyil. Litva qoy gedib müxtəlif xalqların harmoniya içində yaşamasını Azərbaycandan öyrənsin. Litva Fransa, Niderland, Kanada ilə birlikdə Azərbaycana "öyüd-nəsihət verə bilən" axırıncı ölkələrdəndir.

Reç Pospolitanın xiffətini çəkən litvalı nazir müstəqilliyini birinci olaraq tanıdıqları Ermənistan rəsmilərinin ən azı sözdə ifadə etdikləri "mifik Ermənistan"dan "real Ermənistan"a keçid niyyəti kimi "real Litva"ya keçməlidir.

Q.Landsberqisin qayıdış hüququnu yalnız etnik ermənilərə aid etməsi, Ermənistanın etnik təmizləməsinə məruz qalmış bir milyondan artıq azərbaycanlıya, o cümlədən qərbi azərbaycanlılara qarşı ayrı-seçkiliyin, qərəzin, onun səlibçi təfəkkürünün göstəricisidir.

Avropa Şurası Parlament Assambleyasının bir ovuc rasist və korrupsioner üzvünün Azərbaycana girişinə icazə verilməməsi məsələsinə gəldikdə, vurğulamaq lazımdır ki, suveren bir dövlət kimi onlara giriş qadağası qoymaq tamamilə Azərbaycanın haqqıdır. Litvalı nazirin bununla bağlı da açıqlamaları lüzumsuzdur. Həmin addım Azərbaycana və Azərbaycan xalqına qarşı etnik və dini ayrı-seçkiliyin ifşa edilməsinə və insan hüquqlarının təşviqinə xidmət edir".

# Konstitusiya Məhkəməsində İslam Əməkdaşlıq Təşkilatının nümayəndələri ilə görüş keçirilib

**Oktyabrın 3-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatı Müstəqil Daimi İnsan Hüquqları Komissiyası (İƏT MDİHK) katibliyinin icraçı direktoru professor Nura Zaid Alrşoudun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən bildirilib.

Görüşdə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. Qeyd edilib ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi İslam Əməkdaşlıq Təşkilatına üzv olan İslam Dünyası Konstitusiya Yurisdiksiyaları Məhkəmələrinin Konfransı çərçivəsində bir çox ölkələrin Konstitusiya məhkəmələri ilə əməkdaşlıq edir.

44 günlük Vətən müharibəsindən bəhs edilərək vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi bərpa edilib.

İƏT MDİHK katibliyinin icraçı direktoru, professor Nura Zaid Alrşoud qeyd edib ki, səfərin məqsədi Azərbaycan Respublikası İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) təşəbbüsü ilə keçirilən Beynəlxalq Bakı Forumunda iştirak etmək, habelə beynəlxalq əlaqələrin qurulması və əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsidir.

Sədr konstitusiya hüquqlarının təmin edilməsi sahəsində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi ilə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) arasında səmərəli əməkdaşlığı xüsusi qeyd edib.

Fərhad Abdullayev 2021-ci il sentyabrın 23-25-də İƏT MDİHK nümayəndə heyətinin Azərbaycanın işğaldan azad olunmuş tarixi və əzəli torpaqlarına səfər edərək fakt-araşdırma missiyasını həyata keçirməsi ilə bağlı tərtib olunmuş məruzəni yüksək qiymətləndirib.

Tərəflər arasında geniş fikir mübadiləsi aparılıb, beynəlxalq hüquqi əməkdaşlıq məsələlərinə toxunulub.

Görüşdə həmçinin İƏT MDİHK katibliyinin icraçı direktorunun müavini Javed Saqlain, Konstitusiya Məhkəməsinin sədr müavini, Aparatın məsul əməkdaşları və Ombudsman Aparatının rəhbəri iştirak ediblər.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ







# Şahin uçur, ceyran qaçır...

## Qarabağ və Şərqi Zəngəzurun canlı təbiət inciləri də tarixi məskənlərinə qovuşur

**İşğal müddətində erməni vandalları Qarabağ və Şərqi Zəngəzurda ekoloji terrora əl ataraq bulaqlarımızı, çaylarımızı qurutmuş, meşələrimizi qırıb yandırmış, flora və faunamıza qənim kəsilmişdilər. Bir sözlə, düşmən bu ərazilərdə "ölü torpaq" siyasəti həyata keçirərək canlı aləmi məhv etmişdi. Hətta azadlığından az sonra dədə-baba yurdlarına ziyarətə yollanan əksər keçmiş məcburi köçkünlərin dəhşət və təəssüf hissi ilə dilə gətirdikləri ifadələrdən biri də xarabalıqlara çevrilən o yerlərdən heç quş səsinin belə gəlməməsi ilə bağlı idi...**

Ancaq şanlı zəfərlərimiz sayəsində 30 il ərzində düşmənin məhv etdiyi Qarabağın və Şərqi Zəngəzurun ekologiyası da müvəffəqiyyətlə bərpa olunur. Tarixi məskənlərindən didərgin salınan faunası yenidən özünə qaytarılır.

### Heyvanların müdafiəsi daim diqqətdə saxlanılır

4 Oktyabr Beynəlxalq Heyvanları Müdafiə Günüdür. Həmin gün 1931-ci ildə İtaliyanın Florensiya şəhərində ekoloqların nəsli kəsilməkdə olan bəzi heyvan növlərinin müzakirəsini apardıqları yığıncağından sonra təqvimə daxil edilib. Bundan sonra həmin gün dünyadakı heyvanların bütün növlərinə şamil olunub. Bundan əlavə, oktyabrın 4-ü heyvanların müqəddəs qoruyucusu hesab edilən İtaliyanın Assasiya əyaləti sakini Françeskonun vəfat etdiyi günə görə təyin olunub.

Bu gün dünyanın bir çox ölkəsində müxtəlif tədbir, aksiya, kampaniyalarla qeyd edilir. O cümlədən ölkəmizdə. Ümumiyyətlə, Azərbaycanda heyvanların müdafəsi daim diqqətdə saxlanılır. Hazırda isə xüsusilə Qarabağ və Şərqi Zəngəzurun heyvanlar aləminin bərpası vacib əhəmiyyət daşıyır.

1993-cü ilə qədər Qarabağ ərazisində 16 dəstəyə, 57 fəsiləyə daxil olan 200-ə yaxın quş növü qeydə alınıb. Bunlardan 32 növ "Qırmızı kitab"ın II nəşrinə daxil edilib. Qarabağ ərazisində işğala qədər 6 dəstəyə mənsub 75 məməli növü qeydə alınıb, 24 növ Azərbaycanın "Qırmızı kitabı"nın 2013-cü il nəşrinə salınıb.

İşğaldan azad olunan Qarabağda erməni vandalizmi səbəbindən bölgənin faunasına ciddi zərər dəyib. Gələcəkdə aparılacaq tədqiqatlar vasitəsilə bölgədə sıradan çıxmış populyasiyaları aşkar etmək, daha sonra müəyyənləşdirilmiş üsullarla heyvanat aləminin yenidən bərpası mümkündür. Həmin istiqamətdə layihələr hazırlanıb həyata keçiriləcək. "Qırmızı kitab"ın 2023-cü ildəki üçüncü nəşrində azad edilmiş ərazilərin də nadir fauna və flora növləri haqqında məlumatlar yer alıb.

Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərin ekoloji vəziyyətinin düzəldilməsi üçün burada müxtəlif növ ağaclar əkilir, heyvanların tarixi areala reintroduksiyası üçün işlər həyata keçirilir.

### Tarixi məskənə qayıdış

Qarabağ və Şərqi Zəngəzurun düşmən tərəfindən məhv edilmiş ekologiyası birbaşa Prezident İlham Əliyevin diqqəti və nəzarəti altında bərpa olunur.

2022-ci il oktyabrın 19-da dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 baş ceyran buraxmaları heyvanat aləminin də tarixi areallarına qayıdışının rəmzi oldu. Oktyabrın 20-də isə Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Cəbrayıl ərazisinə daha 15 baş ceyran buraxdılar.

2023-cü il mayın 28-də Prezident İlham Əliyevin iştirakı ilə ölkə ərazisində reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Laçın rayonu ərazisində boyunlarına xüsusi siqnalötürücü xaltalar bağlanmış Şərqi Qafqaz turları (Capra cylindricornis) və şahin quşları təbiətə buraxıldı.

Qeyd edək ki, Şərqi Qafqaz turları ölkəmizdə Böyük Qafqazın cənub və şərq yamaclarında daha geniş yayılıb. Əsasən dəniz səviyyəsindən 1000-3000 metr hündürlükdə yaşayan bu heyvanların sayı ölkəmizdə 7-8 min başdır. Şərqi Qafqaz turlarının fəallığı mövsümdən və yem bazasından asılı olaraq dəyişir. Vaxtilə bu heyvanlar Kiçik Qafqaz dağlarında yaşasalar da, sonradan həmin ərazidə nəsilləri tükənib.

Adı "Qırmızı kitab"a düşən şahin quşları Qətərdən Azərbaycana gətirilib.

Ötən il Müstəqillik Günündə Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində də iştirak etmişdi.

### "Bəsitçay" və "Daşaltı" yenidən fəaliyyət göstərir

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən "Azərbaycan" qəzetinin sorğusuna cavab olaraq bildirildi ki, nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin artırılması, onların tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya olunması istiqamətində IDEA İctimai Birliyinin, Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin dəstəyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən reintroduksiya layihələri həyata keçirilir. Reintroduksiya layihələri çərçivəsində ceyran (Gazella subgutturosa), Avropa bizonu (Bison bonasus), nəcib maral (Cervus elaphus), hind tirəndazı (Hystrix indica), Şərqi Qafqaz turu (Capra cylindricornis), şahin qızılquşu (Falco pelegrinoides) və bezoar keçisinin (Capra aegagrus) tarixi yaşayış məskənlərində bərpasına nail olunur: "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" üzrə nəzərdə tutulmuş tədbirlərdə nadir və nəsli kəsilmək təhlükəsi olan növlərin reintroduksiyasının həyata keçirilməsi, fauna növlərinin bərpası və bioloji müxtəlifliyin qorunması əsas prioritet istiqamətlərdəndir".

Məlumata görə, 2024-cü il ərzində reintroduksiya tədbirləri çərçivəsində Laçın rayonu ərazisinə kəklik quşlarının reintroduksiyası həyata keçirilib.

Qeyd olundu ki, fauna növlərinin qorunması üçün işğaldan azad edilən ərazilərdə mütəmadi monitorinqlər həyata keçirilir və heyvanların müşahidəsi məqsədilə əraziyə fototələlər quraşdırılıb. Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarının ərazilərində binokl vasitəsilə və vizual olaraq müşahidələr həyata keçirilib. Həmçinin "Vectonic Aerospace VHF" antenası vasitəsilə ceyranlara qoşulmuş CPS-dən siqnal alınması və yerlərin müəyyən edilməsi üçün istifadə olunub.

Hazırkı dövrədək işğaldan azad edilmiş ərazilərdə Zəngilan rayonu ərazisində Bəsitçay çayına, Qubadlı rayonunda Bərgüşad çayına, Füzuli rayonunda Köndələnçay çayına, Tərtər rayonu və Ağdərə rayonu ərazisində Suqovuşan Su Anbarına, Ağdam rayonu ərazisində Xaçınçay Su Anbarına və Laçın rayonunda Həkəri çayına balıq buraxılışı həyata keçirilib və növbəti aylarda da bu işlərin davam etdirilməsi nəzərdə tutulur.

Həmçinin bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə biomüxtəlifliyin qorunması və zənginləşdirilməsi məqsədilə Bəsitçay Dövlət Təbiət Qoruğunun və Daşaltı Dövlət Təbiət Yasaqlığının fəaliyyətinin bərpası yenidən təmin edilib, həmin ərazilərdə yeni xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması ilə bağlı araşdırmalar aparılır. Bundan əlavə, işğaldan azad edilmiş torpaqlarımızın faunasının zənginləşdirilməsi məqsədilə həmin ərazilərdə biomüxtəliflik komponentlərinin tarixi areallarına qaytarılması layihələrinin icrası uğurla davam etdiriləcək.

### Yaklar Kəlbəcər və Laçın yaylaqlarında

2022-ci ildə Azərbaycanda ətlik istiqamət üzrə ixtisaslaşmış təsərrüfatın yaradılması üçün Qırğızıstandan 100 baş yak növlü iribuynuzlu heyvan gətirilib. Yaklar gətirilməzdən əvvəl qırğız ekspertlərin iştirakı ilə Kəlbəcər və Laçın rayonlarında monitorinqlər keçirilərək müvafiq ərazilər seçilib. Dağlıq ərazilərdə soyuq iqlim şəraitində yaşamağa uyğunlaşmış heyvanların Laçın rayonunda öncədən müəyyən edilmiş ərazidə yerləşdirilməsi təmin edilib.

Ərazidə heyvanların ovlanmasını qadağan edən xüsusi xəbərdaredici lövhələr quraşdırılıb. Bu heyvanlar dəniz səviyyəsindən 2500-4000 metr yüksəklikdə yerli şəraitə daha yaxşı adaptasiya olunurlar.

Ötən il Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri Qırğızıstandan dəvət olunmuş ekspertlərlə birgə təsərrüfata baxış keçirib, heyvanları müayinə ediblər. Təsərrüfatın fəaliyyətini qənaətbəxş hesab edən qırğız ekspertlər yakların sürətli çəki almasını yerli şəraitə qısa müddətdə adaptasiya olunmaları, Laçın və Kəlbəcər yaylaqlarının qış otlaqlarının yem bolluğu, keyfiyyətli su mənbələri ilə izah ediblər. Yakların balalarının doğulması isə onların Qarabağ və Şərqi Zəngəzurun təbiətinə uğurlu adaptasiyasından xəbər verir.

Bu ilin yayında isə Qırğızıstan Prezidenti Sadır Japarovun azərbaycanlı həmkarı İlham Əliyevə şəxsi hədiyyəsi olan 101 baş yak və onların 15 balası ölkəmizə gətirilərək işğaldan azad edilmiş Kəlbəcər rayonunun Qazxan yaylağında təbiətə buraxılıb. Yakların həm buradakı sürüyə, həm də yerli təbiətə uyğunlaşması prosesi davam edir.

### Təbiətin dirçəlişi

Qarabağ və Şərqi Zəngəzurda ekosistemin bərpası, o cümlədən flora və fauna növlərinin qorunması üçün dövlətimiz tərəfindən mühüm və hərtərəfli işlər həyata keçirilir. İşğal dövründə təbiətinə ciddi ziyan dəymiş ərazilərimizdəki bulaqlarımız, çaylarımız, şəlalələrimiz yenidən çağlayır, meşələrimiz pöhrələyir, təbii ərazisindən didərgin düşən canlılar öz məskənlərinə qaytarılır.

İndi bu yerlərin yaşayan təbiətində yenidən şahinlər uçur, ceyranlar qaçır, kəkliklər oxuyur...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*





## ZƏFƏR gündəliyi

## 4 oktyabr 2020-ci il

# İlham Əliyevdən növbəti zəfər müjdəsi: "Cəbrayıl şəhəri işğaldan azad edilib"

*Oktyabrın 4-də Ermənistan ərazisindən Füzuli rayonunun ərazisi raket atəşinə, işğal altında olan ərazilərimizdən isə Ağdam və Tərtər rayonlarının kəndləri artilleriya atəşinə tutulub.*

*Xankəndi şəhərindən şimalda Ballıcada yerləşən hərbi hissədən Azərbaycan Ordusunun bölmələrinin mövqeləri və yaşayış məntəqələrimiz son iki gün ərzində intensiv atəşə tutulub. Beynəlxalq təşkilatların nümayəndəlikləri vasitəsilə düşmənə bir neçə dəfə xəbərdarlıq edilməsinə baxmayaraq, proses davam edib.*



### Gəncə şəhəri raket hücumuna məruz qalıb

Düşmən Gəncə şəhərini Ermənistan ərazisindən atəşə məruz qoyub. Mülki əhali arasında ölən və yaralananlar olub. Yaşayış və ictimai-iaşə obyektlərinə ciddi ziyan dəyib. Erməni tərəfi isə məlumat yayaraq guya Gəncədəki hərbi obyektlərə atəş açılıb. Dünya bir daha erməni rəzilliyinə şahidlik edib.

Dünya bir daha şahidlik edib ki, düşmən tərəfindən açılan atəş nəticəsində Gəncədə dinc sakinlərə, mülki infrastruktura və qədim tarixi tikililərə ziyan dəyib.

### Azərbaycan Ordusu tərəfindən cəza tədbirləri görülüb

Düşmənin zirehli texnikaları, atəş-dəstək və təminat vasitələri məhv edilib. Azərbaycan Ordusunun rəhbərliyi döyüş tapşırıqlarının uğurlu icrasını planlaşdırır və təşkil edir. Dəfələrlə edilən xəbərdarlığa məhəl qoymayan düşmənə qarşı Azərbaycan Ordusu tərəfindən cəza tədbirləri görülüb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov açıqlama verərək bildirib ki, Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir.



### Mübariz İbrahimovun həlak olduğu posta bayrağımız sancılıb

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan bayrağı sancılıb.

Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülüb.

### Cəbrayıl şəhəri və bir neçə kənd işğaldan azad edilib

Ali Baş Komandan İlham Əliyev rəsmi "Tviter" (indiki "X") səhifəsində paylaşım edərək xalqa növbəti müjdəni verib: "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Mehriban Əliyeva: "Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun!"

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşım edib:

"Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

### Ali Baş Komandan birlik komandirlərini, şəxsi heyəti təbrik edib

Ali Baş Komandan İlham Əliyev birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə təbrik edib. Onlara tapşırıq verib ki, müzəffər sərkərdənin təbriklərini korpusların bütün şəxsi heyətinə çatdırsınlar.

Mayis Bərxudarov və Hikmət Mirzəyev Ali Baş Komandana öz təşəkkürlərini bildirərək, Prezidenti əmin ediblər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.



### Ali Baş Komandan: "Biz tarixi ədaləti bərpa edirik"

Axşam saatlarında Prezident xalqa müraciət edib. Prezident Cəbrayıl şəhərinin və rayonun doqquz kəndinin işğaldan azad edilməsi münasibətilə xalqı təbrik edib.

Ali Baş Komandan deyib ki, bir həftədir döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaq: "Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır".

Prezident deyib ki, Azərbaycan tarixində bir çox şərəfli anlar olub, amma onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Azərbaycan ədaləti bərpa edir: "Biz Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

### İlham Əliyev atəşkəs şərtlərini bir daha açıqlayıb

Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" televiziya kanalına müsahibə verərək bir daha bəyan edib ki, Azərbaycanı heç kim haqq yolundan döndərə bilməz.

"Hadisələrin nəzarətdən çıxdığını düşünmürəm, vəziyyət Azərbaycan Ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir" deyən dövlət başçısı vurğulayıb ki, əgər Ermənistan atəşkəs istəyirsə, Azərbaycandan üzr istəyib, torpaqlarımızdan çıxmaqla bağlı vaxt cədvəli təqdim etsin. Belə olarsa, Azərbaycan Ordusunun uğurlu əməliyyatları dayandırılacaq və danışıqlar aparılacaq.

"Bizim müqəddəs Şuşa torpağında öz bandası ilə rəqs etməklə və "Qarabağ Ermənistandır" deməklə azərbaycanlıların hisslərini təhqir etmiş Ermənistanın baş naziri üzr istəməli və deməlidir ki, "Qarabağ Ermənistan deyil". Mənim sözüm budur".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Avropa və Asiyanı birləşdirən yeni yol qovşağı

### Bu qovşaq işğaldan azad edilmiş ərazidə salınıb

**Ölkəmizdə yol infrastrukturunun yenilənməsi Prezident İlham Əliyevin xüsusi önəm verdiyi sahələrdən biridir. Bunun nəticəsidir ki, son 20 ildə şəhər, rayon və kəndlərimizdə hər il ən azı min kilometr yol çəkilib, yaxud əsaslı təmir edilib. Nə xoş ki, artıq dörd ildir bu yollara bizi doğma Qarabağa, Şərqi Zəngəzura aparan yollar da qovuşub.**

44 günlük Vətən müharibəsindəki qələbəmizdən dərhal sonra azad edilmiş ərazilərimizin bərpası istiqamətində başlanan ilk tədbirlərdən biri də məhz yol çəkilişi oldu. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində, həmçinin dövlət başçısının sərəncamları əsasında 45 avtomobil yolu layihəsinin tikintisi yerinə yetirilir. Avtomobil yolu layihələrinin ümumi uzunluğu 3094,3 kilometr təşkil edir. Proqrama uyğun olaraq artıq ümumi uzunluğu 254,2 kilometr təşkil edən 7 avtomobil yolu layihəsi uğurla yekunlaşıb. Bu gün sözügedən iki iqtisadi rayonun yol infrastrukturu layihələrində ümumi uzunluğu 69,1 kilometr olan 45 avtomobil tuneli, ümumi uzunluğu 13,4 kilometrə yaxın 463-dən artıq körpü, viaduk və yol ötürücüsü də inşa edilir.

Həm də məsələ təkcə görülən işin həcmində deyil, söhbət eyni zamanda yüksək keyfiyyətdən gedir. 2024-cü il Avropa və Mərkəzi Asiya Regional Mükəmməllik Mükafatlarına təqdim edilən Əhmədbəyli-Füzuli-Şuşa Avtomobil Yolu Layihəsinin Beynəlxalq Yol Federasiyası (BYF Qlobal) tərəfindən İnnovativ İnşaat Metodologiyası kateqoriyasında qalib seçilməsi deyilənlərin əyani sübutudur.

Dünya üzrə İnnovativ inşaat metodologiyası nominasiyasında 1-ci yeri tutan bu yol layihəsi daim Prezident İlham Əliyevin nəzarətində olub. Dövlət başçısı bir neçə dəfə tikinti gedən ərazilərə səfər edib. Məsələn, 2023-cü ilin iyul ayında yolun Füzuli Beynəlxalq Hava Limanına qədər uzanan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub. Bu ilin mayında isə dövlət başçısı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda aparılan işlərlə tanış olub, bu yolda inşa edilmiş birinci tunelin açılışında iştirak edib.

Mühüm yol infrastrukturu layihələrindən biri olan və İnnovativ inşaat metodologiyası nominasiyası üzrə qalib seçilən uzunluğu 81,7 kilometr təşkil edən I texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda 11 körpü, 7 tunel və 9 viaduk inşa edilib. Viadukların tikintisi zamanı aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilib.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirir. Yeni yol əvvəlkindən 19,3 kilometr qısadır. Bu, birinci texniki dərəcəli yol olmaqla 4-6 hərəkət zolağına malikdir.

Əhmədbəyli-Füzuli-Şuşa yolunun sözügedən mükafatı qazanması ilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi müstəsna layihələri mükəmməlliyə, innovasiyaya və cəmiyyətə müsbət təsirinə görə mükafatlandırılmış təşkilatların elit qrupuna qoşulub. Mükafatlandırma sentyabrın 26-da Bolqarıstanın Plovdiv şəhərində baş tutub.

Avropa Yollar Konfederasiyasının baş katibi Stiv Philips bununla bağlı deyib: "Sizi Beynəlxalq Yol Federasiyası tərəfindən təltif olunmağınız münasibətilə təbrik edirəm. İcra etdiyiniz layihələr çox təqdirəlayiqdir və əminəm ki, yol infrastrukturu sahəsində ölkənizdə görə biləcəyim müsbət işlər kifayət qədərdir".




"Kapsch" şirkətinin layihələrin idarə edilməsi üzrə baş mütəxəssisi Kristof Demut da layihəni yüksək dəyərləndirib: "Azərbaycanda icra olunan müasir yol infrastruktur layihəsi haqqında öz fikirlərimi bildirmək istərdim. Qeyd etməliyəm ki, burada bizə təqdim olunan layihənin önəmli cəhəti odur ki, bu layihə vaxtında və yüksək standartlarla icra edilmişdir. Bizə məlum olan Qərb standartları üzrə icra edilmiş bu layihə Avropa və Asiyanın birləşməsində yol qovşağı funksiyasını icra edəcəkdir".

"Ekoposte" şirkətinin Beynəlxalq Biznesin İnkişafı üzrə direktoru Esteban Salinas təbriklərini çatdıraraq bildirib: "Sizi Beynəlxalq Yol Federasiyası tərəfindən təltif olunmanız münasibətilə təbrik edirəm. Bu, böyük bir uğurdur. Ölkənizin yol infrastrukturu sahəsində əldə etdiyi nailiyyətlərə görə, xüsusən də yol təhlükəsizliyi sahəsindəki həyata keçirilən tədbirlərlə bağlı sizi təbrik edirik".

Mükafatlandırma zamanı Azərbaycanın möhtəşəm tədbir - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ərəfəsində olduğu, COP29-a ölkəmizin bütün müvafiq qurumları kimi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin də fəal hazırlıq gördüyü qeyd edilib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "Şəfəq" GES: daha bir addım atıldı

**Məlum olduğu kimi, Cəbrayıl rayonunda 240 MVt gücündə dəyişən cərəyanlı "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikilməsi nəzərdə tutulur.**




Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə BP arasında 2021-2022-ci illərdə "Şəfəq" layihəsinin həyata keçirilməsinə dair İcra Sazişi və ona bir sıra əlavələr imzalanıb. Layihənin ətraf mühitə və sosial-iqtisadi sahəyə təsirinin qiymətləndirilməsi sənədi 2024-cü ildə ictimaiyyətə açıqlanıb, müzakirə edilib və Azərbaycan hökuməti tərəfindən təsdiq edilib.

BP şirkəti "Şəfəq" layihəsinin ilkin tək investoru kimi SOCAR Green (SOCAR) və Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) ilə səhmdarlar sazişi imzalayıb və bununla Şəfəq (Cəbrayıl) Solar Limited" (SJSL) adlı yeni birgə müəssisə yaradılıb. Bu müəssisə layihəyə aid birgə investisiya fəaliyyətini həyata keçirəcək. Bundan əvvəl, səhmdarlar sazişi üzrə danışıqlara başlamaq məqsədilə ötən ilin sentyabrında eyni tərəflər arasında qoşulma sazişi imzalanmışdı.

"Şəfəq" layihəsində "Virtual Enerji Ötürmə Mexanizmi" adlanan yeni kommersiya modelindən ilk dəfə istifadə olunacağı gözlənilir. Həyata keçəcəyi təqdirdə, bu mexanizm layihənin Cəbrayıl rayonunda istehsal edəcəyi günəş enerjisinin ölkənin elektrik enerjisi şəbəkəsinin operatoru olan "Azərenerji"yə həmin yerdə çatdırılmasını, "Azərenerji"nin isə sonra eyni həcmdə elektrik enerjisini Səngəçal terminalına verməsini təmin edəcək. Bu da öz növbəsində terminalın həmin bərpa olunan elektrik enerjisindən öz ehtiyacı üçün istifadə etməsinə imkan verəcək.

Səhmdarlar sazişini SJSL adından BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda maliyyə məsələləri üzrə vitse-prezidenti Kolin Allan, SJSL-də səhmdar şirkət kimi BP adından BP-nin günəş enerjisi və quruda külək enerjisi üzrə vitse-prezidenti Noelia Marivela Alvarez, SOCAR Green adından SOCAR-ın prezidenti Rövşən Nəcəf və AİŞ adından AİŞ-in icraçı direktoru Ülvi Mansurov imzalayıblar.

Səhmdarlar sazişi müəyyən kommersiya və tənzimləyici şərtlər yerinə yetirildikdən sonra qüvvəyə minəcək. Saziş qüvvəyə mindikdən sonra SJSL səhmdarlarının iştirak payları belə olacaq: BP - 50,01 faiz, SOCAR - 39,99 faiz və AİŞ - 10 faiz.

*"Azərbaycan"*

## Qazaxıstanla sosial sahədə əməkdaşlıq məsələləri müzakirə edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Qazaxıstanın Əmək Resurslarının İnkişafı Mərkəzinin prezidenti Daulet Arqandıkov ilə görüş olub.**



Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev xalqlarımız arasında mövcud olan tarixi, mədəni və dini ortaqlıqların iki ölkə arasında dostluq və qardaşlıq əlaqələrinin əsasını təşkil etdiyini bildirib. Dövlətlərarası münasibətlərin bütün sahələrində, o cümlədən sosial sahədə səmərəli əməkdaşlığın qurulduğu vurğulanıb. Bu sahədə iki ölkə arasında imzalanmış əməkdaşlıq sənədlərinin, təcrübə mübadilələrinin və qarşılıqlı səfərlərin önəmi qeyd edilib.

Sonra qonaqlara Azərbaycanda əmək, məşğulluq və sosial müdafiə sahəsində son illərdə həyata keçirilən islahatlar barədə məlumat verilib.

D.Arqandıkov ikitərəfli münasibətlərin davamlı inkişafından məmnunluğunu ifadə edib.

Görüşün sonunda sosial sahədə rəqəmsallaşma tədbirləri, gələcək əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## Bu il 365 milyon manatdan çox ipoteka krediti verilib

**İpoteka və Kredit Zəmanət Fondu cari ilin yanvar-sentyabr aylarında 365,6 milyon manat ipoteka krediti verib. Onun 66,5 milyon manatını güzəştli ipoteka kreditləri təşkil edir.**

İlin əvvəlindən adi ipoteka kreditləri hesabına 3017, güzəştli ipoteka kreditləri hesabına isə 844 ailə özünün mənzil şəraitini yaxşılaşdırıb. Bu ilin ötən dövründə verilmiş ipoteka kreditlərinin orta məbləği 94 min 683 manat təşkil edib.

Ümumilikdə indiyədək fondun vəsaiti hesabına 3,2 milyard manat dəyərində ipoteka krediti verilib ki, bu da 51 min 710 ailənin mənzil şəraitini yaxşılaşdırmasına imkan verib. Bu kreditlərin 931 milyon manatdan çoxu dövlət dəstəyinə ehtiyacı olan xüsusi kateqoriyaya aid şəxslərə verilmiş güzəştli ipoteka kreditləri təşkil edir. İpoteka kreditlərindən faydalananların 67 faizi gənclər və gənc ailələrdir.

Şəxsi yığımları yetərli olmayan əhalinin daha aşağı ilkin ödənişlə ipoteka kreditindən faydalanmasını təmin etmək məqsədilə 1 oktyabr 2024-cü il tarixinə fond tərəfindən 92,9 milyon manat məbləğində 1077 ipoteka krediti üzrə zəmanət verilib.

## Urbanizasiya və balanslı iqtisadi inkişaf

### Azərbaycanda bu yöndə təsirli tədbirlər görülür

**Dünən işini yekunlaşdıran Bakı İqlim Fəaliyyəti Həftəsi (BİFH) iqlimlə bağlı fəaliyyətin səfərbər edilməsi və sərhədlər arasında əməkdaşlığın təşviqi üçün mühüm platforma rolunu oynadı. Eyni zamanda Azərbaycanın iqlim böhranının həllinə sadiqliyini göstərdi və qlobal dəyişikliklərə təkan verməkdə yerli təşəbbüslərin potensialını nümayiş etdirdi.**

Bakı İqlim Fəaliyyəti Həftəsi dayanıqlı inkişaf və iqlim fəaliyyəti öhdəliyinə sadiq olan təşkilatlarla yeni əməkdaşlıq əlaqələri, eləcə də investisiya və tərəfdaşlıqlar çərçivəsində Azərbaycanın keçid dövrünü dəstəkləməyə çalışdı. Builki tədbirin əsas mövzuları "Enerji keçidi", "Şəhərlər/Urbanizasiya olunmuş mühitlər", "Su təhlükəsizliyi", "Qida və kənd təsərrüfatı", "Kiçik və Orta biznes müəssisələri" və "Yaşıl bacarıqlar" idi. Bu yazıda "Şəhərlər/Urbanizasiya olunmuş mühitlər" mövzusuna toxunaraq həmin istiqamətdə görülən işlərdən və problemlərdən bəhs etməyə çalışacağıq.

Məlumdur ki, şəhərlərdə sənaye həcminin artması, mədəni və siyasi funksiyaların önə çıxması və əməyin bölgüsündə strukturun dəyişməsi urbanizasiyaya səbəb olur. Urbanizasiya kənd əhalisinin şəhərlərə köçməsi, kiçik şəhərlərin böyüyərək ətraf kəndləri öz yaşayış sahəsinə qatmasıdır.

Azərbaycanda bunun baş verməməsi üçün şəhərsalma sahəsində indiyədək əldə edilmiş uğurlar dünyaya çatdırılır, eləcə də bu sahədə beynəlxalq əməkdaşlıq genişləndirilir. Bu vəzifələrin icrası ilk növbədə urbanizasiyanın qarşısının alınmasına xidmət edir. Ölkəmizin şəhərlərində sənayenin inkişafı məhsuldar qüvvələrin səmərəli yerləşməsinin, inkişafının, əhalinin həyat və mədəni, texniki səviyyəsinin yüksəldilməsinin çox mühüm şərtinə çevrilib. Bu səbəbdən şəhərlərdə sənayenin inkişafına dövlət tərəfindən həmişə böyük diqqət yetirilir.

İqtisadiyyatın bölgələr üzrə balanslı inkişafı əhalinin sosial rifah halının normal təmini üçün əsas şərtdir. Bu da yenə urbanizasiyaya bağlı amil olaraq Azərbaycanda, eləcə də dünyada diqqət mərkəzində saxlanılan əsas məsələ kimi olaraq gündəlikdə dayanır. Əhalinin kənd və şəhərlər üzrə bölgüsü aparılarsa, şübhəsiz, bu gün Azərbaycanda kənddən şəhərə axının qarşısıalınmaz bir prosesə çevrildiyinin şahidi olarıq. Statistikaya müraciət edək. Ötən il ölkəmizin əhalisinin sayı 52 min 625 nəfər (0,5 faiz) artaraq bu il yanvarın əvvəlinə 10 milyon 180,7 min nəfər olub. Bunun 54,5 faizi şəhərdə, 45,5 faizi kənddə yaşayanlardır. Əslində isə, kənddə bundan az əhali yaşayır. Bunu təbii qarşılamaq da olar. Çünki şəhərdə olan şərait və imkan kənddə yoxdur. Gənclərin şəhərə iş dalınca gəlməsini də görməzliyə vurmaq olmaz.



Urbanizasiya müəyyən mənada keyfiyyət göstəricisi olsa da, normadan kənara çıxması müsbət hal sayılmır. Azərbaycanda hələ sovetlər dönəmində urbanizasiya xeyli dərəcədə yüksək olmuşdur. Müstəqillikdən sonra isə həm iqtisadi, həm də sosial amillərin yaratdığı əngəllər, üstəlik, Birinci Qarabağ müharibəsinin fəsadları nəticəsində bu, ifrat dərəcəyə çatmışdır. Bakıda əhalinin sıxlığı əvvəlki onilliklərlə müqayisədə o həddə böyümüşdü ki, şəhər təsərrüfatında əməllicə problem yaranmışdır. Bu gün Bakının əhalisi rəsmi olmayan məlumata görə, aşağı-yuxarı 3 milyondur. Bu sıxlıq, təbii ki, ekoloji problemlərə - havanın çirklənməsi, su çatışmazlığı, tıxac və bu kimi hallara səbəb olur. Nəqliyyatın hərəkətində və sosial infrastrukturda və kommunal xidmətdə yaranan problemləri də bunun üstünə gəlsək, Bakının bugünkü mənzərəsini təsəvvür etmək çətin deyil.

Urbanizasiyanın yaratdığı bu fəsadlar həm də şəhərsalmada əngəl yaradır. Məhz bu məsələ Bakı İqlim Fəaliyyəti Həftəsinin açılış günü müzakirə mövzusu oldu. "Şəhərlər/Urbanizasiya olunmuş mühitlər" panelində çıxış edən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bu barədə fikirlərini belə açıqladı: "Biz şəhərləri gələcəkdə də dayanıqlı şəhər kimi dizayn etməliyik: 70 faiz emissiyalar şəhərlərdə yaranır. Biz şəhərləri elə qurmalıyıq ki, onlar daha səmərəli olsunlar. İqlim dəyişikliyinə dayanıqlı olan şəhərsalma Azərbaycanda əsas prioritet sahələrdən biridir. Bakının Baş Planı-2040-cı il Azərbaycan üçün bir nümunə kimi götürülə bilər. Dayanıqlı urbanizasiya ilə bağlı təkliflər artıq irəli sürülüb. Burada çoxlu multisektor yanaşmalar əks olunub. Burada müxtəlif sektorlar arasında əməkdaşlıq əsas götürülür. Dövlət komitəsi olaraq ətraf mühit və rəqəmsallaşma ilə bağlı yeni standartlar qəbul olunub. iPCC ilə birlikdə biz artıq "yaşıl bina" təşəbbüsünə başlamışıq. Bir sıra tikinti şirkətləri artıq bununla bağlı öhdəlik götürüb. Azad edilmiş ərazilərdə artıq sıfır tullantı ideyası tətbiq edilir. Şəhərin sağlamlığı təkcə onun infrastrukturundan asılı deyil, eyni zamanda onun iqtisadiyyatından, sakinlərin həyat səviyyəsindən asılıdır".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## DOST Agentliyi Müşahidə Şurasının iclası keçirilib

**"DOST xidmətlərinə vətəndaş müraciətlərinin sayı 3 milyonu ötüb və bu xidmətlərdən vətəndaşların məmnunluğu 98,3 faiz təşkil edib".**

Bunu DOST Agentliyinin Müşahidə Şurasının növbəti iclasında şuranın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib. O, Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin artıq 7 DOST mərkəzi, 1 DOST filialı və 1 "Smart DOST" məntəqəsinin fəaliyyət göstərdiyini qeyd edib.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sayəsində Azərbaycanda dövlət sosial xidmətlərinin müasir və çevik, tam şəffaf mexanizmlər üzərindən, "bir pəncərə"dən, innovativ əsasda təqdim edildiyi vurğulanıb.

Bölgələrdə DOST mərkəzləri və filiallarının açılması istiqamətində görülən işlərdən bəhs olunub, DOST mərkəzləri şəbəkəsinin daha da genişlənəcəyi bildirilib.

Azərbaycanın uğurlu sosial islahat nümunəsi olan DOST modelinin beynəlxalq səviyyədə də yüksək qiymətləndirildiyi və ötən dövrdə DOST Agentliyinin bir çox beynəlxalq mükafat və sertifikatla təltif edildiyi vurğulanıb. Qeyd olunub ki, hazırda bir sıra ölkələr DOST təcrübəsini öyrənərək onu tətbiq etməyə maraq göstərir və bu sahədə həmin ölkələrlə təcrübə mübadiləsi aparılır.

İclasda agentliyin fəaliyyəti ilə bağlı 2024-cü il üzrə 9 aylıq hesabat təqdim olunub, həmçinin DOST mərkəzlərinin fəaliyyəti, qarşıda duran məsələlər və prioritetlər müzakirə olunub.

## Talış kəndinə köçürülən sakinlərdən artıq 40 nəfər şəxsin məşğulluğu təmin olunub

**İşğaldan azad olunmuş yurd yerlərimizə Böyük qayıdış proqramı üzrə görülən işlər çərçivəsində Talış kəndində də sakinlər aktiv məşğulluq tədbirləri ilə əhatə olunurlar.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən ilk mərhələdə həmin sakinlərin məşğulluq imkanları qiymətləndirilir və onların hansı məşğulluq proqramına cəlb olunacaqları müəyyən edilir. Talış kəndinə köçürülən sakinlərdən artıq 40 nəfərin məşğulluğu təmin olunub.

Onlar özünüməşğulluq, vakansiyalara uyğun işlə təminat, haqqı ödənilən ictimai işlər proqramları çərçivəsində işlə təmin ediliblər.





# Mədəniyyət





● İncəsənət xadimləri

# Ömrü dram əsərinə bənzəyən sənətkar

**Dünya qəribəliklərlə doludur... Sanki Tanrı onun aktyor, rejissor olacağını bildiyi üçün taleyini də bir dram əsərinə bənzətmişdi...**



Çəmbərəkənddə yoxsul bir ailədə dünyaya gəlmişdi. İki qardaş, bir bacı idilər. Sürücü işləyən atası Ağahüseyn Atakişiyev dünyaya gələn ilk övladının adını öz adına bənzədib Hüseynağa qoymuşdu...

O, dünyaya gələndən sonra həyat ona sanki öz amansız üzünü göstərirdi. Atasının aldığı az maaş ailənin tələbatını ödəmirdi... Bir yandan da anasının xəstəliyi...

Altı yaşındaykən anasını itirən Hüseynağa evdən qaçır... Bir neçə günlük axtarışdan sonra onu tapıb evə qaytarmaq mümkün olur. Ailənin çətinliyi, özündən kiçik bacı-qardaşlarının yaşaması üçün o, 12-13 yaşlarından işləməyə məcbur olsa da, orta təhsilini davam etdirə bilir.



## "Onunla ailə qurduğuma peşman deyiləm"

Əməkdar incəsənət xadimi Hüseynağa Atakişiyevin həyat yoldaşı Əməkdar artist, İncəsənət Universitetinin Aktyor sənəti kafedrasının müdiri, professor Gülşad Baxşıyeva ilə söhbət edirik:

- 1971-ci ildə Hüseynağa ilə İncəsənət İnstitutuna bir qəbul olmuşuq. Dörd il Mehdi Məmmədovun kursunda təhsil almışıq. Kurs tamaşalarında səhnədə tərəf-müqabil olmuşuq. Sonra təyinatla bütün kurs yoldaşlarımızla birlikdə qrup halında Şəkiyə getmişik...

Şəki teatrında 10 il işləmişik. Bir sıra tamaşalarda onunla tərəf-müqabil olmuşuq. Sonradan Hüseynağa tamaşa quruluşuna, rejissorluğa üstünlük verdi, mən isə aktyor olaraq işimi davam etdirdim.

Şəkiyə gedəndən iki il sonra evləndik. Oğlanlarımız Elbəy və Elmir dünyaya gəldilər.

Hüseynağa ilə evliliyimə peşman deyiləm...

## "Onun diplomu elə onun tamaşasıdır"

- Hüseynağa çox bacarıqlı rejissor idi. Hətta deyərdim ki, bənzəri yox idi. O, təkcə tamaşa qurmurdu. O, aktyorlarla işləyə, komanda yarada bilirdi. Teatrda əsas komandadır. Hüseynağanı tanıyanlar bilirlər ki, onu himayə edən kimsəsi yox idi. İstedadının, bacarığının, çalışqanlığının hesabına özünü təsdiq edib, sənətdə yerini tutmuşdu. Sıfırdan başlayıb, dərnəklərdə işləyib gəlmişdi. İnstituta qəbul olanda 22-23 yaşı olardı. Mehdi müəllimin sinfində aktyorluq təhsili almış, qiyabi isə Boris Şukin adına Moskva Teatr İnistitutunun Rejissorluq fakültəsini bitirmişdi. Mehdi müəllim ona həmişə tapşırıqlar verirdi. "Sən bu əsəri filankəslərlə işlə". Deməli, onda nəsə görürdü... Hüseynağanın rejissorluq işi oradan başlamışdı...

Geriyə baxanda görürəm ki, onun tamaşaları çox möhtəşəm idi. Ən bəsit əsərlə gözəl bir nümunə yaradıb ortaya qoya bilirdi. Moskvadan teatrşünaslar gəlib, tamaşaya baxıb, dəyər verirdilər. Bir dəfə kimsə Moskvadan gələn nümayəndəyə yaxınlaşıb demişdi ki, Hüseynağanın rejissorluq diplomu yoxdur. O, rus dilində cavab verib ki, "Onun diplomu elə onun tamaşasıdır"...

## "Hüseynağa qeyri-adi rejissor idi"

O, adi rejissor deyildi. Hazırladığı tamaşalar SSRİ miqyasında keçirilən dörd - "Bolqar", "Macar" "Rumun" və "Alman" dramaturgiyası festivallarının bütün parametrləri üzrə qalibi olmuşdu. SSRİ kimi bir ölkədə birinciliyi qazanmaq adi bir iş deyildi, bu, bir əyalət teatrı üçün böyük uğur idi. Özü də bu teatrın kollektivi bütövlükdə gənclərdən ibarət idi. Rejissorun isə cəmi 27 yaşı var idi... Bu faktlar özü göstərir ki, Hüseynağa qeyri-adi rejissor idi...

1975-ci ildə Şəki Dövlət Dram Teatrında aktyor kimi işə başlayan Hüseynağa Atakişiyev bir il sonra artıq həmin teatrın baş rejissoru kimi fəaliyyətini davam etdirir. "Hacı Qara" tamaşası onun ilk rejissor işi olur... 10 il Şəki Dövlət Dram Teatrında çalışdıqdan sonra Bakıya dəvət alan H.Atakişiyev 1985-ci ildən etibarən Akademik Milli Dram Teatrında baş rejissor kimi tamaşalara quruluş verir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, professor, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini, Əməkdar artist Azad Şükürovla söhbətimizi davam etdiririk:

- Hüseynağa Atakişiyev Azərbaycan teatrında öz dəst-xəti, sənət yolu olan, müəyyən prinsiplərə malik, teatra çox sədaqətlə xidmət göstərən bir rejissor idi. Mən ona həm də bir pedaqoq kimi baxırdım. Çünki o, ətrafına gəncləri toplayırdı. Şəki Dövlət Dram Teatrının açılışı zamanı belə bir hadisə baş vermişdi. O zaman Şəki teatrının çox istedadlı bir rejissoru var idi: Vaqif Abbasov. Bu teatrın açılmasında onun müstəsna rolunu, əvəzsiz xidmətini danmaq olmaz. Vaqif teatrın baş rejissoru idi. Hüseynağagil də həmin teatrda işləmək üçün Şəkiyə getmişdilər. Hüseynağa teatrda həm aktyorluq edirdi, həm də Vaqifin assistenti idi.

Elə oldu ki, bədbəxt hadisə nəticəsində Vaqif ayağını itirdi. Belə bir vəziyyətdə Vaqif orada çox qala bilməyib Bakıya gəldi. Hüseynağa Şəki Dövlət Tetrında baş rejissor oldu.

## "Ondan böyük gözləntilər var idi"

Nəhayət, məqam yetişdi, Hüseynağa köçüb Bakıya gəldi və Milli Dram Teatrının baş rejissoru oldu. Başlanğıc pis olmadı... Ondan böyük gözləntilər var idi. Amma Hüseynağa Şəkidəki uğurlu başlanğıcı Bakıda davam etdirə bilmədi. Əslinə qalsa, ona işləməyə imkan vermədilər. Xırda bir səhv addımını gözləyirdilər ki, ona mane olsunlar. Hüseynağanın Milli Teatra gəlişi əyri işi olan adamların "yaradıcılıq" prosesinə mane olurdu.

O, çox ağıllı adam idi. Bu intriqanı, çəkişməni hiss edib teatrdan ayrılmalı oldu. Milli Dram Teatrından ayrıldıqdan sonra 1989-cu ildə özünün Gənclər Teatrını yaratdı və ömrünün sonuna kimi teatrın bədii rəhbəri və direktoru oldu.

Hüseynağa Atakişiyev rejissor kimi 157-dən çox tamaşaya quruluş verib. Aktyor kimi 57-dən artıq rol oynayıb. Aktyorun "Uzun ömrün akkordları" filmində canlandırdığı Üzeyir bəy obrazı, habelə "Ac həriflər" teletamaşasındakı "Artist" obrazı xüsusilə məşhurdur. Eyni zamanda Hüseynağa Atakişiyev rejisor kimi 1995-ci ildə İstanbulda Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını tamaşaya qoymuşdur.

Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Bəstəkarlıq kafedrasının müdiri, Əməkdar incəsənənt xadimi, professor Aydın Əzimov:

- Şanslıyam ki, Hüseynağa Atakişiyev kimi bir sənətkarla dostluq edib birgə çalışmışam. Hüseynağa ilə təsadüfən tanış olmuşuq. Mən radioda səs rejissoru işləyirdim. Mədəniyyət Nazirliyi tulum çalanların yaradıcılığını, işini, həyatını, onların mühitini öyrənmək üçün məni Naxçıvana ezam etmişdi. Mən də onları Bakıya konsertə dəvət etmişdim. Onlar konsert verərkən mən də səs yazmaq üçün radiodan maşın dəvət etmişdim. Maşında öz işimlə məşğul olarkən bir də gördüm qapı açıldı, qarşımda çox maraqlı, gülərüz, nurlu bir adam dayandı. Qəribədir ki, biz köhnə tanışlar kimi görüşdük. Kim olduğunu soruşduqda dedi ki, Şəkidən gəlib, teatr aktyorudur. Hərdən tamaşalar da hazırlayır...

## "İlk tanışlığımızdan 15 gün sonra iş təklifi aldım"

- Çox maraqlı söhbətimiz oldu. Biləndə ki, o, teatr rejissorudur, bir az gileyləndim də... Dedim, gənc rejissorsan, tamaşa hazırlayırsan. Mən də gəncəm. Niyə həmişə tanınmış bəstəkarlarla işləyirsiniz. Gənc bəstəkara da şərait yaradın. İmkan verin onlar da özünü sınasın.

"Yaxşı", - dedi. Fikirləşdim ki, bu da söz verib getdi...

Aradan 15 gün keçmişdi. Gördüm mənə "zapiska" gəldi. Yazılmışdı ki, tamaşa üçün 12 mahnı, rəqs lazımdır. Həm də xüsusi olaraq qeyd etmişdi: "İnciməyin, pul olmayacaq. Çünki teatrın pulu yoxdur, mən özüm də pulsuz işləyirəm".

Təklif məni sevindirdi. Dedim, pul nədir ki, təki iş olsun. Qismət olar pul ilə də işləyərik. Evə gəlib musiqini işləməyə başladım. Qısa müddətdə hər şeyi hazır edib, bir qutuya yerləşdirib, avtobus ilə göndərdim Şəkiyə. İlk dəfə idi ki, tamaşaya musiqi yazırdım. Beləcə, bizim birgə yaradıcılığımız başladı...

## "Onunla işlədiyim illər ən xoşbəxt çağlarım olub"

- Bəzən insan bilmir ki, nə zaman xoşbəxt olur. Bir müddətdən sonra insanlar anlayır ki, ötən illər onun ən xoşbəxt çağlarıymış... Hüseynağa ilə işlədiyim illər ömrümün ən yaddaqalan çağları olub.

Hüseynağa çox gözəl teatr təşkilatçısı, peşəkar rejissor, işlədiyi kollektivlə dil tapmağı bacaran adam idi. Onun Şəki teatrında baş rejissorluq etdiyi illər bu teatrın keçdiyi inkişaf yolu, SSRİ-də tanındığı dövrdür. O zaman Şəki teatrı ittifaq miqyasında keçirilən bütün festivallarda birinciliyi qoruyub saxlayırdı.

Şəki teatrında çox gözəl bir mühit formalaşmışdı. Truppa, müdiriyyət, baş rəssam Qüdrət Məmmədov, bəstəkarlardan Emin Sabitoğlu, Cavanşir Quliyev bir nöqtəyə vurmaqla uğurlara imza atırdıq. İlk uğurumuz Moskvada keçirilən "Bolqar" dramaturgiyası festivalında Hüseynağanın quruluş verdiyi Raço Stolaninin "Ustalar" pyesinin tamaşası oldu. Bu tamaşa bütün nominasiyalar üzrə - rejissor, aktyor, rəssam və bəstəkar işinə görə birinci yeri tutdu... Bu uğurun ardı sonralar da gəldi. "Macar", "Alman" dramaturgiyası festivallarında da eyni uğuru təkrarladıq.

Moskvada Şəki teatrı haqqında bir əfsanə kimi danışırdılar. Bizi Moskvaya dəvət etdilər. Bir ay Moskvada qastrol səfərində olduq.

## "Hüseynağa qədər musiqini bilən rejissor az idi"

- Hüseynağa Atakişiyev müsiqini bilən çox nadir rejissorlardan idi. Tamaşada musiqidən zərgər dəqiqiliyi ilə istifadə etməyi bacarırdı. Musiqinin harada, hansı məqamda verilməsini çox incəliklə bilirdi. Demək olar ki, bütün teatrlarla, rejissorlarla birgə işim olub. Hüseynağa kimi musiqi duyumu olanı heç görmədim. H.Atakişiyev o rejissorlardandır ki, tamaşanı necə başlayıb, necə bitirəcəyini dəqiq bilirdi. Əvvəlcədən oturub hətta musiqinin neçə dəqiqə, neçə saniyə gedəcəyini dəfələrlə müzakirə edib yazırdıq.

Azərbaycanda təşkilatçı rejissorları barmaqla saymaq olar. Adil İsgəndərov, Şəmsi Bədəlbəyli, bir də Hüseynağa Atakişiyev... Bunlar Azərbaycan mədəniyyətinin əfsanələri olublar. Onu da deyim ki, Hüseynağa gənc yaşlarında Şəmsi Bədəlbəylinin yanında bir qədər işıqçı işləyib. Bəlkə də Şəmsi Bədəlbəylinin ustalığı Hüseynağaya öz təsirini göstərmişdi.

O, maraqlı adam idi. İstedadı çox tez fərq edirdi. Bir də görürdün ki, Şəkidə bazara gedir və ya şəhəri gəzir. İşsiz-gücsüz bir adamı teatrın nəzdində fəaliyyət göstərən studiyaya gətirib bir az onunla məşq edirdi. Sonra onu səhnəyə çıxarıb rol verirdi. Nə qədər belə adam onun hesabına teatra gəlib sonradan böyük sənətkar kimi tanınmış, Əməkdar artist, Xalq artisti fəxri adları almışdılar...

Ömrünün sonu da gözümün qabağına gəldi. Gənclər Teatrında onun otağında oturmuşduq. Birdən dedi ki, sağ qolum işləmir. Sonra sol ayağının quruduğunu dedi. Beləcə, bütün bədəni bir-bir fəaliyyətini dayandırırdı. Biz təcili yardım çağırdıq. Təcili yardım da bir az gec gəldi...

Bu əhvalatdan beş gün sonra - 2006-cı il aprelin 9-da biz Hüseynağa ilə əbədi olaraq ayrıldıq. Azərbaycan çox böyük mədəniyyət xadimini itirdi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "Kino bazarı dünyada yaradıcı sənayelərin ən inkişaf edən sahələrindən biridir"

**"Baku Cinema Breeze" beynəlxalq film festivalı çərçivəsində ilk dəfə olaraq Şərq və Mərkəzi Asiya ölkələrinin kino bazarı keçirilib.**



Bunu Mədəniyyət Nazirliyinin Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov jurnalistlərə müsahibəsində deyib. Onun sözlərinə görə, tədbirin əsas məqsədi həmin ölkələrdə kino sənayesi sahəsində fəaliyyət göstərən biznes subyektlərinin sayının artırılması, onların arasında maraqlı yeni layihələrin həyata keçirilməsidir. Ümumiyyətlə, bu bazarın böyük potensialı var. Ona görə də bu gün burada digər ölkələrin nümayəndələri də təmsil olunurlar. Bazarda Kanada, ABŞ, Finlandiya və Avropa ölkələri, eyni zamanda Hindistan, Koreya şirkətləri iştirak edirlər.

"Ümumiyyətlə, kino bazarı dünyada yaradıcı sənayelərin ən inkişaf edən sahələrindən biridir. Burada iqtisadi göstəricilər artır. Ölkəmizdə hazırda sosial-iqtisadi inkişaf strategiyasının icrası çərçivəsində yaradıcı sənayelərin inkişafı ilə bağlı olan tədbirlər, o cümlədən hədəflərdən biri kino sənayemizdə iqtisadi göstəricilərin artırılması nəzərdə tutulur. Burada həm məşğulluğun artırılması, həm də yeni biznes oyunçuların artırılması hədəf kimi qoyulur. Ona görə də hazırda bu tədbirdə bir neçə dövlət qurumunun birgə layihələr üzərində işləməsi fikrimcə, bizə böyük ümidlər verir", - deyə şöbə müdiri əlavə edib.

# UNESCO-nun subregional konfransı olub



**Oktyabrın 3-də Milli Azərbaycan Tarixi Muzeyində Azərbaycan Mədəniyyət Nazirliyi və UNESCO-nun Ümumdünya İrs Mərkəzinin birgə təşkilatçılığı ilə Volqa-Xəzər İpək Yolu Dəhlizi üzrə ikinci illik subregional konfrans və praktik sahə seminarı işə başlayıb.**

Tədbirdə Azərbaycanla yanaşı, Qazaxıstan, Rusiya Federasiyası, Türkmənistan və İran nümayəndələri iştirak edirlər.

Konfransın təşkilində məqsəd "Volqa-Xəzər İpək Yolu Dəhlizinin transsərhəd nominasiyası" üçün təqdim olunacaq mədəni irs obyektlərini müəyyən etmək, dəhlizə daxil olan 5 ölkədən hökumət nümayəndələri, milli əlaqələndiricilər, yerli və beynəlxalq ekspertlərlə müvafiq sənədlər ətrafında fikir mübadiləsi aparmaqdır.

Eyni zamanda 2024-cü il oktyabrın 3-dən 6-dək Bakıda keçiriləcək konfrans və seminarın proqramına Volqa-Xəzər İpək Yolu İrs Dəhlizi üzrə fəaliyyət istiqamətində sənədlərin və tövsiyələrin hazırlanması sahələrində səylərin davam etdirilməsi; irs obyektlərinin inventarlaşdırılması və elmi sənədləşdirilməsinin aparılması; Volqa-Xəzər Dəhlizinin Ümumdünya İrs Siyahısına transmilli nominasiyası üzrə seçim prosesində komponentlərin prioritetləşdirilməsi meyarlarının müəyyən edilməsi; koordinasiya mexanizminin və namizədlərin irəli sürülməsi prosesində katibliyin rolunun razılaşdırılması; sualtı irs üzrə tədqiqatların aparılması və quru yollarının arxeoloji tədqiqatları ilə sualtı arxeoloji işlər arasında əlaqənin yaradılması; ICOMOS (Abidələr və Tarixi Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şura) tərəfindən İpək yollarının tematik tədqiqatlarının davam etdirilməsi, o cümlədən Volqa-Xəzər dəhlizinin tədqiqi məsələləri daxildir.

# X Bakı Beynəlxalq Kitab Sərgisində "Ədəbiyyatda qadın səsi" adlı mühazirə keçirilib

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində azərbaycanəsilli İran yazıçısı Fəriba Vəfinin "Ədəbiyyatda qadın səsi" adlı mühazirəsi keçirilib.**



Sərginin fəxri qonaqlarından olan Fəriba Vəfi 13 əsərin müəllifi, Almaniyanın nüfuzlu "LiBeraturpries" mükafatının qalibidir.

Fəriba Vəfi çıxışında müəllifi olduğu "Zirzəmi quşu" romanının ərsəyə gəlməsindən söz açıb, bildirib ki, əsərdə həyatın ağır şərtlərinə dözən, ailə qurduqdan sonra bütün gücünü övladlarının tərbiyəsinə həsr edən qadından bəhs olunur.

O, hazırda Almaniyada yaradıcı fəaliyyətlə məşğuldur. Sonra müəllif oxucularla görüşüb, onların suallarını cavablandırıb. Görüşdə imza sessiyası da keçirilib.

# Xalq artisti Firudin Məhərrəmovun yubileyi qeyd olunub



**Sumqayıtda yazıçı-dramaturq Hafiz Ataxanlının "Altıncı hücrənin remarkası" kitabının təqdimatı olub. Kitab Sumqayıt Dövlət Dram Teatrının baş rejissoru, Xalq artisti, iki dəfə "Qızıl Dərviş" mükafatı laureatı, Prezident mükafatçısı Firudin Məhərrəmovun 65 illik yubileyinə bir töhfədir.**

Təqdimatda şair, Əməkdar mədəniyyət işçisi, professor Rafiq Yusifoğlu, Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, Əməkdar jurnalist Eyruz Məmmədov və başqaları Sumqayıtın ədəbi və teatr mühitinin zənginliyindən, sənətə, sənətkara həsr olunmuş kitabın məziyyətlərindən danışıb, yubilyara yaradıcılıq uğurları arzulayıblar.

Sonra teatrın tamaşa zalında yubiley tədbiri keçirilib. Teatrın truppasının musiqili təbrikindən sonra monitorda yubilyarın həyat və yaradıcılığı haqqında videoçarx göstərilib. Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Hacı İsmayılov, Xalq artisti, "Şöhrət" ordenli rejissor Cənnət Səlimova, Akademik Milli Dram Teatrının nümayəndəsi, Xalq artisti Sabir Məmmədov, İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İftixar Piriyev, Bakı Bələdiyyə Teatrının baş rejissoru Mərahim Fərzəlibəyov, truppa müdiri İsmayıl Atakişiyev, Mingəçevir Dövlət Dram Teatrının direktoru, Əməkdar artist İntiqam Soltan və uzun illər Sumqayıt teatrında çalışmış Xalq artisti Valeh Kərimov təbriklərini çatdırıblar.

Sağlamlığımızı qoruyaq

# Yaşınız 50-ni keçdisə...

## Heyvanların özünü yox, onların yediklərini yemək lazımdır

**Düzgün qidalanma sağlam həyat tərzinin əsas tərkib hissəsidir. Yaş artdıqca orqanizmdə faydalı maddələr daha pis sovrulur, enerji xərclənməsi, metabolik proseslər dəyişir və immun sistemi zəifləyir.**



Bədənin qocalması müxtəlif növ toxumaların hüceyrələrinin sayının azalması, onların deqradasiyası ilə əlaqələndirilir. Bu isə orqanizmin özünübərpası üçün lazım olan qida maddələrinin kifayət qədər həzm olunmaması ilə əlaqədardır. Buna görə də insanlar yaşlandıqca mikro və makro elementlərə, zülallara, yağlara, karbohidratlara və liflərə daha çox ehtiyac duyurlar. Tədricən qida rasionundakı heyvan və bitki məhsulları arasındakı nisbət dəyişir.

### Hər kəsin keyfiyyətli və sağlam qidalanma siyahısı olmalıdır

Mütəxəssislər xüsusilə 50 yaşdan sonra bitki əsaslı qidalanma tərzinə üstünlük verməyi tövsiyə edirlər. Bu, sağlam yaş almaq üçün olduqca önəmli faktordur. Demək olar ki, bütün xroniki xəstəliklər, xüsusən də hipertoniya, şəkərli diabet, ürək-damar xəstəliklərindən və piylənmədən əziyyət çəkənlər heyvan mənşəli, xüsusilə işlənmiş qidaların həddindən artıq istehlakından uzaq durmalıdırlar.

Təbii protein mənbəyi olan heyvan ətindən imtina etmək o qədər də asan deyil. Türkiyəli professor Osman Müftüoğlu deyib ki, hər kəsin keyfiyyətli və sağlam qidalanma siyahısı olmalıdır. Siyahını hazırlayanda təkcə zövq, istək və iqtisadi imkanlara deyil, həm də sağlamlıq risklərinə, problemlərə diqqət yetirmək lazımdır. Ən vacib məsələ: heyvanların özlərini yox, yediklərini yeməliyik.

Qidalanma siyahısını tərtib etmədən öncə insulin müqavimətinin olub-olmadığı müəyyən edilməlidir. O.Müftüoğlunun sözlərinə görə, bunun üçün gecə boyu 12 saat ac qaldıqdan sonra səhər tezdən laboratoriyada insulin müqavimət testi verilməlidir. Dərhal sonra "xüsusi hazırlanmış sınaq yeməyi" qəbul edilməlidir. Qan nümunələri yeməyin ilk dişləməsindən 60 və 120 dəqiqə sonra yenidən götürülməlidir. Bu nümunələrlə yeməkdən sonra qan şəkəri və insulin səviyyəsi müəyyən edilir. Nəticə 405 rəqəminə bölünür. Bu, insulin müqavimət nömrəsidir. İnsulin 5-dən, qan şəkəri isə 100-dən az olmalıdır.

### Qida rasionu ədviyyatlarla zənginləşdirilməlidir

Qida rasionunda tərəvəzlərin qəbuluna xüsusi diqqət edilməlidir. Tərəvəzlər çiy və ya müxtəlif üsullarla, vitaminləri qorunaraq bişirilib qəbul edilməlidir. Sağlam və balanslı qidaları müxtəlif faydalı ədviyyatlarla zənginləşdirmək lazımdır. Bunlardan ən öndə gələni sarıkökdür. Ədviyyatların kralı hesab edilən sarıkök sağlamlığı hər cəhətdən dəstəkləyir. Əsrlər boyu ənənəvi tibdə istifadə olunan sarıkökə Asiya mətbəxində çox üstünlük verilir. Güclü antiinflamatuar təsiri olduğu sübut edilən ədviyyat iltihabı azaldır, bədəndəki zərərli sərbəst radikalların sıradan çıxmasına kömək edir, əzələ ağrılarını kəsir.

Son illər aparılan araşdırmalarda sarıkökün daha çox istifadə edildiyi ölkələrdə xərçəng xəstəliyinə yaxalananların sayının dəfələrlə az olduğu müəyyənləşib. Onun xərçəng hüceyrələrinin böyüməsinə maneə törətdiyi sübut edilib.

Şərqdə qədim zamanlardan müalicəvi vasitə kimi istifadə olunan ədviyyatlardan biri də hildir. O, ürəyin fəaliyyətini yaxşılaşdırır, sinir sistemini möhkəmləndirir, beynin fəaliyyətini və qan dövranını yaxşılaşdırır, depressiya və stresi azaltmağa kömək edir, insanı gümrahlaşdırır, orqanizmin yaşlanmasının qarşısını alır.

Mütəxəssislər bildirirlər ki, tərkibindəki vitaminlər, minerallar, antioksidantlar sayəsində mixək də yaşlı nəslin sağlamlığına yaxşı təsir edir. Yaş artdıqca damar divarının və hüceyrə membranlarının bütövlüyünü qoruyub saxlamaq olduqca önəmlidir. Mixək də damarların möhkəmləndirilməsi üçün faydalıdır. O, təkcə sərbəst radikallara deyil, həm də orqanizmdə iltihaba səbəb ola biləcək digər amillərə qarşı da müqavimət göstərir. Ümumilikdə isə ədviyyatları qəbul etməzdən öncə orqanizmin individual özəlliklərinin nəzərə alınması vacibdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Ermənistan yenidən qarışır

## Ölkədəki ictimai-siyasi vəziyyət yenidən mürəkkəbləşməyə doğru gedir





**Ermənistanda keçmiş hərbi xunta təmsilçilərinin təşkilatçılığı ilə baş nazir Nikol Paşinyanın əleyhinə etiraz aksiyalarına yenidən start verilib. Əsas məqsəd iqtidara qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olmaq, güc yolu ilə olsa belə hakimiyyəti qəsb etməkdir. Burada əsas məqam da bu yürüşə yenə də erməni keşişin başçılıq etməsidir.**

Nikol Paşinyan hakimiyyətdə qalmağa çalışdığı bir vaxtda keşiş Baqrat Qalstanyanın yenidən əsas fiqur kimi ortada görünməsi mitinqlərin məntiqi sonluğunun heç də revanşistlərin arzuladığı kimi olacağı ümidlərini doğrultmur.

O, yalnız dini lider kimi deyil, həm də getdikcə müxalifət düşərgəsində daha nüfuzlu siyasi oyunçu kimi tanınır. Bu fonda Qalstanyan özünü Ermənistanın gələcək lideri kimi görür və Paşinyanı baş nazir postunda əvəz etməyi hədəfləyir. Onun ritorikası "ənənəvi erməni dəyərlərinin" bərpasına və Ermənistanın hərbi güc kimi yenidən dirçəlməsinə yönəlib.

Bu arada yenidən etirazlara başlayan Qalstanyan və tərəfdarları Ermənistanın İctimai Televiziyasına tərəf üz tutmağa başlayıblar. Hərəkat üzvləri onlara efir vaxtının verilməsini tələb edirlər. Qeyd ediblər ki, bu onların ilk tələbidir: "Bundan sonra hansı addımları atacağımıza qərar verəcəyik. Bizi qarşıda çətin hadisələr gözləyir. Ölkədə hakimiyyət dəyişikliyi əsas məqsəd deyil. Əsas odur ki, təkcə emosiyalara deyil, həm də ağıla əsaslanan milli birlik yaradaq".

Erməni keşiş Baqrat Qalstanyan deyib ki, "Müqəddəs mübarizə" hərəkatı küçədə bir nəfər qalana qədər davam edəcək: "Mən fiziki olaraq küçədəyəm. Amma onlar (hakimiyyət - red) küçədə doğulublar və ruhən orada qalıblar".

Keşiş Baqrat açıq şəkildə xalqı N.Paşinyanın devrilməsinə çağırır, onu Qarabağı və sərhədyanı əraziləri təslim etməkdə ittiham edir. Onun müraciətlərində konstitusiya quruluşunun bərpasına və "şər hakimiyyətinə" qarşı mübarizəyə çağırışlar aydın görünür.

V.Qalstanyanın mitinqlərdəki çıxışları da Ermənistanın siyasi həyatında diqqətçəkən hadisələrə çevrilib. O, "müqəddəs mübarizədə" qələbə vəd edir və tərəfdarlarını etiraz aksiyalarına toplayır. İlin əvvəlində mitinqlərə 30 min adam toplaşırdısa, oktyabrın 2-də Respublika meydanında cəmi 2 minə yaxın adam var idi. Bu "Məlumatlı Vətəndaşlar Birliyi" tərəfindən aparılan aeroçəkilişlə təsdiqlənib. Bu fakt Qalstanyanın ictimai dəstəyinin, onun gurultulu bəyanatlarına baxmayaraq, zəifləməyə başladığını göstərir.

Görünən odur ki, Hayastanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# "Ən yaxşı tank bölüyü" adı uğrunda yarış keçirilib

Cari ilin döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarında "Ən yaxşı tank bölüyü" adı uğrunda yarış keçirilib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, eləcə də döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən yarışda tank bölmələrinin döyüş hazırlığı yoxlanılıb.



Hərbi qulluqçulara sıra baxışı keçirildikdən sonra onlardan taktiki və fiziki hazırlıq üzrə məqbullar qəbul olunub. Həmçinin gündüz və gecə vaxtı atış və sürücülük üzrə çalışmalar yerinə yetirilib. Yarışın yekununda "Ən yaxşı tank bölüyü" adına layiq görülən bölmə müəyyən edilib.

# Hava şəraiti dəyişkən buludlu olacaq

**Azərbaycanda oktyabrın 4-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə və səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 13-17° isti, gündüz 20-24° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu olacaq. Nisbi rütubətin gecə 70-75 %, gündüz 40-45 % olacağı proqnozlaşdırılır.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 12-17° isti, gündüz 22-27° isti, dağlarda gecə 2-7° isti, gündüz 10-15° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 22-27° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 15-20° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12° isti, dağlıq ərazilərdə 0°-yə yaxın, gündüz 15-20° isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq, şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 8-13, gündüz 19-24°, dağlarda gecə 3-8°, gündüz 13-18° isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Ağdaş, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 22-27° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq, şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-18°, gündüz 21-26°, dağlarda gecə 11-13°, gündüz 15-20° isti olacaq.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4161**
**Sifariş 2227**

**Qiyməti 60 qəpik**